RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 126 (9871) 21 iyun 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






# Sarsılmaz birlik, əbədi dostluq

Təməl gücünü ortaq tarixi köklərimizdən, gündən-günə inkişaf edən qardaşlıq əlaqələrindən alan Türkiyə-Azərbaycan birliyi dünya üçün unikal nümunədir desək, qətiyyən yanılmarıq. Tam mübaliğəsiz deməliyik ki, bu gün dünyanın heç bir yerində Azərbaycan və Türkiyənin timsalında bir-birilərinə qardaş səmimiyyəti ilə yanaşan, istənilən məsələdə həmrəylik nümayiş etdirən hansısa ölkələrə rast gəlmək mümkün deyil.

Azərbaycan və Türkiyə arasındakı əzəli əlaqələrin iki liderin - İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın şəxsi dostluq və qardaşlıq münasibətləri sayəsində daha da inkişaf edib möhkəmlənməsi bir reallıqdır. Qardaşlıq münasibətlərinə dayanan bu əlaqələr sayəsində Azərbaycan və Türkiyə dövlətlərimizin, xalqlarımızın varlığına qarşı təhdid olan terrorizm, işğal siyasətinə qarşı birlikdə mübarizə aparır, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması istiqamətində daim bir-birilərinə dayaq-dəstək dururlar.

Vurğulanası vacib məqamlardan biri də iki qardaş ölkənin vahid gücünün təkcə ölkələrimizin, regionumuzun inkişafı üçün deyil, beynəlxalq əhəmiyyətli məsələlərin, qlobal problemlərin həlli üçün də mühüm rola malik olmasıdır. Bu gün Azərbaycan-Türkiyə birliyi dünyada hesablaşılan gücə çevrilib və regionla bağlı istənilən məsələnin, layihənin bu iki ölkənin maraqları nəzərə alınmadan reallaşdırılması mümkünsüzdür.

Vətən müharibəsində Türkiyənin Azərbaycana açıq şəkildə siyasi və mənəvi dəstək verməsi sayəsində ölkəmizin ermənipərəst düşmənlərinin əl-qolunun necə bağlanması hər kəsin yadındadır. 2020-ci ilin sentyabrında çıxdığımız Zəfər yürüşü zamanı Türkiyə ən ali səviyyədə Azərbaycanın tək olmadığını, onun Türkiyə kimi qardaşı olduğu mesajını verdi. Bununla da Azərbaycanın haqq işinə maneçilik törətmək istəyən xarici qərəzli qüvvələrin müdaxilələrinin qarşısı alındı.

Kahramanmaraşda açılış mərasimindəki çıxışı zamanı Prezident İlham Əliyev bu məqamı bir daha vurğuladı: "Qarabağ məsələsində də qeyd etdiyiniz kimi, biz əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanla savaşın ilk günündən çiyin-çiyinə, bir yerdə idik. Savaşın ilk saatlarında Türkiyə Cümhurbaşqanının bizə göstərdiyi dəstək, həmrəylik, siyasi dəstək, mənəvi dəstək, Türkiyə xalqının bizimlə bərabər olması bizim gücümüzə güc qatıb. Biz tarixi ədaləti bərpa etdik və bu gün Azərbaycan xalqı öz əzəli torpağında rahat və təhlükəsizlik şəraitində yaşayır".

2021-ci ilin 15 İyununda - Qurtuluş Günündə Azərbaycan Prezidenti ilə Türkiyə Prezidenti Qarabağda Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsini imzalayaraq qardaş ölkələrin münasibətlərini daha yüksək pilləyə ucaltdılar.

"Dörd il bundan öncə hörmətli Cümhurbaşqanı ilə Şuşa şəhərində imzaladığımız Şuşa Bəyannaməsi bizim əlaqələrimizi ən yüksək zirvəyə qaldırmışdır. Şuşa Bəyannaməsi bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Biz dostuq, qardaşıq, müttəfiqik. Türkiyə və Azərbaycan - iki qardaş ölkə həm siyasi, həm iqtisadi, həm enerji, nəqliyyat, hərbi və bütün başqa sahələrdə bir-birinin yanında inamla, uğurla irəliləyir", - deyə "Azərbaycan" məhəlləsinin açılışında dövlətimizin başçısı sözügedən bəyannamənin əhəmiyyətinə yenidən diqqət çəkdi.

6

## Özbəkistan Prezidenti Azərbaycana səfər edəcək



**Prezident İlham Əliyev Özbəkistanın investisiya, sənaye və ticarət nazirini qəbul edib**

2

## Azərbaycanda idmanın bütün növlərinə dövlət qayğısı göstərilir



**Prezident İlham Əliyev UFC-nin prezidentini qəbul edib**

2

## Azərbaycana qarşı aparılan böhtan kampaniyası iflasa məhkumdur




Son günlər ölkəmizi ləkələyən saxta xəbərlərlə bağlı Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası da açıqlama verib. Açıqlamada bildirilir ki, regionda baş verən son hadisələr fonunda Azərbaycan Respublikası hibrid təhdidlərin geniş yayılmış növlərindən olan dezinformasiya kampaniyasının yeni dalğası ilə qarşılaşıb: "Aparılan monitorinqlərin təhlili nəticəsində müəyyən edilib ki, qonşu dövlətlərin ərazisində fəaliyyət göstərən, müxtəlif dairələrə və maraqlara xidmət edən qruplar tərəfindən sosial media platformaları vasitəsilə dövlətimizə qarşı informasiya kampaniyaları təşkil edilir.

Cərəyan edən proseslərlə bağlı Azərbaycan Respublikasının rəsmi mövqeyinin Xarici İşlər Nazirliyi və dövlət rəsmiləri tərəfindən səsləndirilməsinə baxmayaraq, "Teleqram", "Feysbuk", "X", "TikTok" və "Yutub" kimi platformalar üzərindən aparılan fəaliyyətlərdə təhrif olunmuş, saxta məlumatlar yayılır. Münaqişə tərəflərini, eləcə də beynəlxalq ictimaiyyəti çaşdırmağa yönəlmiş bu hərəkətlərin məqsədi ölkəmizin artan nüfuzuna xələl gətirmək, dost və qardaş ölkələrlə münasibətlərini pozmaqdır.

6

## Orta dəhliz İsrail-İran müharibəsi fonunda

### Yaxın Şərqdəki gərginlik bu marşrutun əhəmiyyətini bir daha göstərdi



İsrail-İran müharibəsi daha bir əhəmiyyətli ticarət marşrutunun yaranmasını əngəlləyəcək. Bu, qardaş Türkiyənin İraqla birlikdə həyata keçirmək istədiyi "Qalxınma yolu" layihəsidir. Asiya ilə Avropa arasında ticarətin həyata keçirilməsinə böyük töhfə verə biləcək bu marşrut da İsrail-İran müharibəsi üzündən ləngiyə bilər. Belə ki, nəzərdə tutulan bu marşrut Fars körfəzi ilə bağlıdır, yəni müharibənin getdiyi bir ərazi ilə.

9

## Azərbaycan UNESCO-nun Hökumətlərarası Komitəsinə üzv seçilib




**Azərbaycan Respublikası UNESCO-nun Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqi üzrə Hökumətlərarası Komitəsinə 2025-2029-cu illər üzrə üzv seçilib.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, seçkilər iyunun 20-də UNESCO-nun mənzil-qərargahında, “Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqinə” dair 2005-ci il Konvensiyasının 10-cu Tərəflər Konfransı çərçivəsində baş tutub.

Qeyd edilib ki, 2005-ci il Konvensiyasının həyata keçirilməsinə nəzarət edən əsas icra orqanı kimi Hökumətlərarası Komitənin 24 üzvü vardır və üzvlərin səlahiyyət müddəti 4 ildir. Azərbaycan daha öncə 2019-2023-cü illər arasında Hökumətlərarası Komitədə təmsil olunub.

İllik əsasda toplanan Hökumətlərarası Komitənin əsas funksiyaları sırasına Konvensiyanın məqsədlərinin təşviqi, onun həyata keçirilməsinin monitorinqi, tərəflərin dövri hesabatlarının təhlili və konfransa təqdim olunması, əməliyyat təlimatlarının hazırlanması, ölkələr tərəfindən qaldırılan məsələlərlə bağlı müvafiq tövsiyələrin verilməsi, eləcə də Konvensiyanın prinsiplərinin digər beynəlxalq forumlarda təşviqi məqsədilə məsləhətləşmə mexanizmlərinin qurulması daxildir.

Azərbaycanın sözügedən komitəyə növbəti dəfə üzv seçilməsi ölkəmizin mədəni müxtəlifliyin qorunması, mədəni ifadə azadlığının təşviqi və bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü siyasətinin, həmçinin bu sahəyə verdiyi yüksək önəmin bariz göstəricisidir.

# Özbəkistan Prezidenti Azərbaycana səfər edəcək

## Prezident İlham Əliyev Özbəkistanın investisiya, sənaye və ticarət nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri, Hökumətlərarası Komissiyanın həmsədri Laziz Kudratovu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Laziz Kudratovun ölkəmizə səfərinin ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi. Azərbaycanla Özbəkistanın çox sayda birgə layihələr həyata keçirdiyini məmnunluqla vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, bu, bütün sahələrdə əlaqələrimizin sıx dostluq xarakteri daşımasının göstəricisidir.

Qəbula görə minnətdarlığını bildirən Laziz Kudratov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq qeyd etdi ki, Özbəkistan dövlətinin başçısı qardaş Azərbaycana nəzərdə tutulan səfərinə hazırlaşır və bu səfəri konkret praktiki məzmunla zənginləşdirmək üçün hökumətə tapşırıqlar verib.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.

Qonaq vurğuladı ki, ötən il Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri zamanı iki ölkənin prezidentlərinin qarşıya qoyduqları yeni prioritet istiqamətlər üzrə fəal iş aparılır.

Görüşdə iqtisadi-ticari əlaqələrin inkişafı məmnunluqla vurğulandı, sənaye kooperasiyası, nəqliyyat, logistika əlaqələrinin daha da genişləndirilməsi və yeni birgə layihələr barədə fikir mübadiləsi aparıldı.

# "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında "Kəmər və Yol" Təşəbbüsünün Birgə Təşviqi üzrə Əməkdaşlıq Planı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il aprelin 23-də Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında "Kəmər və Yol" Təşəbbüsünün Birgə Təşviqi üzrə Əməkdaşlıq Planı" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Əməkdaşlıq Planı qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əməkdaşlıq Planının qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çin Xalq Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 iyun 2025-ci il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında beynəlxalq multimodal daşımalar haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il aprelin 23-də Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında beynəlxalq multimodal daşımalar haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çin Xalq Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 iyun 2025-ci il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il aprelin 30-da Əl-Küveyt şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Küveyt Dövləti Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 iyun 2025-ci il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 21 dekabr tarixli 584 nömrəli Qərarı ilə təsdiq edilmiş "Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı"nda və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 sentyabr tarixli 374 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasının strukturu"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 181** **Bakı şəhəri, 18 iyun 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 21 dekabr tarixli 584 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2017, №12 (II kitab), maddə 2531 (Cild I); 2024, №5 (II kitab), maddə 602) ilə təsdiq edilmiş "Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı"nın 2.10-cu bəndi ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 sentyabr tarixli 374 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1107 (Cild I); 2024, №1, maddə 97) ilə təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasının strukturu"nun 2.11-ci bəndi ləğv edilsin.

3. Azərbaycan Milli Elmlər Akademiyası bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycanda idmanın bütün növlərinə dövlət qayğısı göstərilir

## Prezident İlham Əliyev UFC-nin prezidentini qəbul edib



**İyunun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Ultimate Fighting Championship"in (UFC) prezidenti, amerikalı sahibkar Deyna Uaytı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycana səfərdən məmnunluğunu ifadə edən Deyna Uayt Bakıda keçiriləcək UFC turnirinə hazırlıq işlərinin yüksək səviyyədə aparıldığını vurğuladı və göstərilən dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı UFC turnirinin ölkəmizdə ilk dəfə təşkil edilməsinin əhəmiyyətinə toxundu, onun davamlı olacağına ümidvarlığını bildirdi və bu tədbirin Azərbaycanın dünyada idman ölkəsi kimi daha çox tanıdılması baxımından rolunu qeyd etdi.

Söhbət zamanı Azərbaycanda idmanın bütün növlərinə göstərilən dövlət qayğısından söhbət açıldı, son illərdə idmançılarımızın dünyasəviyyəli mühüm yarışlarda qazandıqları uğurlar vurğulandı, gənc nəsildə idmana həvəsin təbliğ edilməsi istiqamətində görülən işlərə toxunuldu.

Görüşdə indiyədək ölkəmizdə nüfuzlu beynəlxalq idman yarışlarının yüksək səviyyədə təşkil edilməsindən məmnunluq ifadə olundu, UFC turnirinin də bu cür keçiriləcəyinə əminlik bildirildi.



# Azərbaycan və Gürcüstanın qanunvericilik orqanları arasında səmərəli əməkdaşlıq mövcuddur

**Milli Məclisin Sədri Sahibə Qafarova iyunun 20-də ölkəmizdə səfərdə olan Gürcüstan parlamentinin Sektoral iqtisadiyyat və iqtisadi siyasət komitəsinin sədri Şota Berekaşvilinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə spiker bildirib ki, dostluq və qardaşlıq ənənələrinə söykənən əlaqələrimiz hazırda strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Münasibətlərimizin inkişafında ali və yüksəksəviyyəli səfərlər mühüm rol oynayır.

Söhbət zamanı Azərbaycan və Gürcüstanın beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyəti, o cümlədən ərazi bütövlüyü və suverenlik məsələlərində daim bir-birini dəstəkləməsi, həmrəylik nümayiş etdirməsi məmnunluqla vurğulanıb. Qeyd edilib ki, ölkələrimiz regionda həyata keçirilən nəhəng enerji və nəqliyyat layihələrində uğurla əməkdaşlıq edirlər.

İki ölkənin parlamentlərarası münasibətlərindən danışan spiker Sahibə Qafarova deyib ki, qanunvericilik orqanlarımız arasında çox səmərəli əməkdaşlıq mövcuddur. Hər iki ölkənin parlamentində dostluq qrupları uğurla fəaliyyət göstərir və nümayəndə heyətlərimiz beynəlxalq parlament təşkilatlarında bir-birinə dəstək verirlər.

Görüşdə ali qanunvericilik orqanlarının komitələri arasında münasibətlərin inkişafının əhəmiyyəti qeyd olunub. İkitərəfli əməkdaşlıqla yanaşı, Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin uğurlu üçtərəfli əməkdaşlıq formatının önəmindən danışılıb.

Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbə ilə öz ərazi bütövlüyünü bərpa etməsindən sonra regionda yaranmış vəziyyət barədə danışan spiker Sahibə Qafarova qonağa Azərbaycan və Ermənistan arasında sülh prosesinin gedişi barədə məlumat verib.

Səmimi görüş üçün təşəkkürünü bildirən Gürcüstan parlamentinin Sektoral iqtisadiyyat və iqtisadi siyasət komitəsinin sədri Şota Berekaşvili Azərbaycana səfəri barədə təəssüratlarını bölüşüb, ölkələrimiz arasında tarixi köklərə əsaslanan və bu gün strateji tərəfdaşlıq səviyyəsində olan əlaqələrin əhəmiyyətindən danışıb.

Qonaq bildirib ki, ölkələrimiz arasında münasibətlərin inkişafı regionda təhlükəsizliyi, sabitliyi təmin etməklə yanaşı, həm də xalqlarımızın rifahına xidmət edir.

Şota Berekaşvili parlamentlərimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsinin, komitələr arasındakı işbirliyinin daha da artırılmasının, dostluq qruplarının fəaliyyətinin gücləndirilməsinin zəruriliyini qeyd edib, parlamentlərimiz arasında əməkdaşlığın perspektivləri haqqında fikirlərini bölüşüb.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Xarici ölkə vətəndaşlarının İrandan təxliyəsində Azərbaycanın rolu təqdir olunub

İyunun 20-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas arasında telefon danışığı aparılıb.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı İsrail-İran qarşıdurması nəticəsində mövcud təhlükəsizlik vəziyyəti müzakirə olunub.

Tərəflər İsrail-İran qarşıdurması nəticəsində bölgədə yaranmış təhlükəsizlik vəziyyətindən ciddi şəkildə narahat olduqlarını bildirib, münaqişənin diplomatik yollarla həllinin vacib olduğunu vurğulayıblar. Avropa İttifaqı üzv ölkələrinin vətəndaşları daxil olmaqla, xarici ölkə vətəndaşlarının İrandan təxliyəsində Azərbaycanın oynadığı əhəmiyyətli rol təqdir edilib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

* * *

İyunun 20-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Avstraliyanın xarici işlər naziri Penni Vonq arasında telefon danışığı olub.

Azərbaycanın Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı İsrail-İran qarşıdurması nəticəsində mövcud təhlükəsizlik vəziyyəti müzakirə olunub.

Avstraliyanın xarici işlər naziri ölkəsinin vətəndaşlarının İrandan təxliyəsi planları barədə məlumat verib və Azərbaycan tərəfindən göstərilən dəstəyə görə təşəkkür edib.

Nazirlər həmçinin qarşılıqlı maraq doğuran ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparıb, iki ölkə Xarici İşlər nazirlikləri arasında məsləhətləşmələr mexanizminin əhəmiyyətini vurğulayıblar.

# "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin təkrar nəşrinin 7-ci kitabı çapdan çıxıb




**"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin təkrar nəşrinin 7-ci kitabı çapdan çıxıb.** AZƏRTAC **xəbər verir ki, bu kitabda yer alan materiallar 1995-ci il martın 12-dən iyunun 15-dək olan dövrü əhatə edir. Kitaba Ulu Öndər Heydər Əliyevin çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri, məktubları daxil edilib.**

Nəşrdəki materiallarda Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu prosesindən, ictimai-siyasi, iqtisadi, mədəni həyatın bir çox sahələrindən, xarici ölkələrlə əlaqələrin genişləndirilməsindən bəhs olunur.

1995-ci il martın 12-də Ümummilli Lider Heydər Əliyev Kopenhagendə sosial tərəqqi naminə yüksək səviyyədə ümumdünya görüşündə iştirak edərək Azərbaycan xalqının haqq səsini bir daha dünyaya bəyan edib. Ulu Öndər həmin nitqində BMT-nin Təhlükəsizlik Şurasının Azərbaycanın işğal olunmuş ərazilərindən erməni işğalçı qüvvələrinin qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinin kağız üzərində qaldığını bir daha beynəlxalq birliyin diqqətinə çatdıraraq vurğulayıb: "Beynəlxalq birlik münaqişənin həllində müsbət nəticələr əldə etmək üçün öz yüksək nüfuzundan istifadə edib sülh danışıqları prosesinə təsir göstərməlidir". Ulu Öndərin nitqinin tam mətni bu kitaba daxil edilib.

Nəşrdə həmçinin ölkəmizdə dövlət çevrilişinə cəhd və onun qarşısının alınması ilə bağlı Ümummilli Liderin 1995-ci il martın 15-də Azərbaycan Televiziyası ilə xalqa müraciətinin, bununla əlaqədar martın 19-da keçirilmiş müşavirədəki nitqinin, habelə Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikinin, o zaman Respublika Günü kimi qeyd olunan 28 May - Müstəqillik Günü münasibətilə keçirilən təntənəli yığıncaqda söylədiyi nitqin mətnləri yer alıb.

Ulu Öndər həmin dövrdə gərgin iş qrafikinə baxmayaraq, ölkənin mədəni mühitini də diqqətdə saxlayırdı. 1995-ci il aprelin 16-da Xalq şairi Məmməd Arazın yaradıcılıq gecəsində iştirak etmiş Ümummilli Lider tədbirdən sonra ziyalılarla görüşmüşdü. Həmin görüşdə dahi rəhbər xalqın milli oyanışında, milli ruhunun canlanmasında ziyalıların rolunu xüsusi vurğulayaraq demişdi: "Bilirsiniz, milli azadlığa nail olmaq üçün xüsusən bizim xalqımızda milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır. Bu da asan bir proses deyil. Çox vaxt tələb edən prosesdir. Yaşadığımız o rejim dövründə bu prosesə təkan vermək çətin idi. Ancaq Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza kimi insanlar öz yaradıcılıqları ilə bu sahədə çox işlər görüblər. Ona görə düşündüm ki, biz müstəqillik qazanmışıq, respublikamız müstəqil dövlətdir. Xalqımız milli azadlığını əldə edibdir. Bu milli azadlığın, müstəqilliyin əldə edilməsində, şübhəsiz ki, xalqımızın hamısının - hərənin öz yeri, hərənin öz payı, hərənin öz xidməti var. Ancaq elə şəxsiyyətlər var ki, onlar bu işin, bu prosesin yaranmasında, formalaşmasında, inkişaf etməsində xüsusi xidmətlər göstəriblər və bunlar mədəniyyətimizin, ədəbiyyatımızın, şeirimizin içində olublar".

Ümummilli Lider 1995-ci il mayın 14-də isə görkəmli Azərbaycan yazıçısı və kinodramaturqu Maqsud İbrahimbəyovun 60 illik yubiley gecəsində, habelə həmin il iyunun 10-da böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin məqbərəsinin və ev-muzeyinin yaradılması ilə bağlı müşavirədə iştirak etmişdi. Dahi rəhbərin həmin tədbirlərdəki nitqlərinin mətnləri də kitaba daxil edilib.

Bu cilddə həmçinin Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ölkənin bazar iqtisadiyyatına keçid dövründə yaranmış çətinliklərin aradan qaldırılması, kənd təsərrüfatının inkişaf etdirilməsinə dair müşavirədəki nitqləri, erməni təcavüzünün ağır nəticələrinin aradan qaldırılmasına, daxili və xarici siyasətin başqa istiqamətlərinə dair materiallara geniş yer verilib.

Kitabın buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.

# Diplomatik korpusun nümayəndələri Laçında olublar







**Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Şərqi Zəngəzur və Qarabağa səfəri başlayıb.**

AZƏRTAC xəbər verir ki, iyunun 20-də diplomatlar Laçında olublar. Nümayəndə heyətini Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev müşayiət edib.

Qonaqlar Laçın Beynəlxalq Hava Limanında Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov tərəfindən qarşılanıblar. Hava limanı ilə tanışlıq zamanı yeni inşa olunan aeroport haqqında məlumat verilib. Bildirilib ki, Laçın aeroportu ötən ayın 28-də Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə açılıb. Mürəkkəb dağlıq relyefdə yerləşən Laçın Beynəlxalq Hava Limanı işğaldan azad olunmuş ərazilərdə inşa edilən üçüncü beynəlxalq hava limanıdır. İşğaldan azad olunan ərazilərdə qısa vaxtda müasir standartlara cavab verən Füzuli və Zəngilan Beynəlxalq Hava limanları da inşa olunub və artıq fəaliyyət göstərir. Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi ilə Azərbaycanın beynəlxalq hava limanlarının sayı doqquza çatıb.

Tikintisinə 2021-ci ilin avqust ayında başlanılmış bu mühüm infrastruktur obyektinin inşası ən yüksək texnoloji və mühəndislik standartlarına uyğun həyata keçirilib. Hava limanında istənilən tip hava gəmisinin qəbuluna imkan verən, uzunluğu 3 min, eni isə 60 metr olan uçuş-enmə zolağı inşa edilib. Beş min kvadratmetrlik terminal binası saatda ən azı 200 sərnişinə xidmət göstərmək imkanına malikdir. Terminalda sərnişinlərin rahatlığı üçün VIP zal, qeydiyyat və təhlükəsizlik sistemləri, baqaj konveyerləri, ticarət obyektləri və iaşə zonaları nəzərdə tutulub. Tam avtomatlaşdırılmış sistemlərlə təchiz olunmuş Hava Hərəkətini İdarəetmə Qülləsi uçuşların beynəlxalq normalara və təhlükəsizlik standartlarına uyğun olaraq həyata keçirilməsini təmin edir. Burada yaradılmış infrastruktur ICAO və IATA standartlarına uyğun olaraq uçuşların təhlükəsiz və səmərəli şəkildə həyata keçirilməsinə imkan verir.



Bu hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportudur. Laçın şəhərindən 30 kilometr, Şuşadan 70 kilometr, Kəlbəcərdən isə 60 kilometr məsafədə yerləşən hava limanı Qarabağ və Şərqi Zəngəzur regionlarının nəqliyyat əlaqələrinin gücləndirilməsində mühüm rol oynayacaq. Bundan başqa, bu mühüm nəqliyyat layihəsinin icrası ümumilikdə bölgənin turizm potensialının inkişafına da geniş imkanlar yaradacaq. Coğrafi mövqeyi və əlçatanlığı ilə bu hava limanı bölgənin iqtisadi, sosial və logistik inteqrasiyasını dəstəkləyən əsas nəqliyyat mərkəzinə çevriləcək.

Diplomatik korpus nümayəndələri sonra "Hoqazfilm" studiyasına gəliblər. Qarabağın çoxşaxəli nadir yaradıcılıq məkanı layihəsi olan "Hoqazfilm" studiyası Laçın şəhərində iki inzibati binadan və bir çəkiliş pavilyonundan ibarətdir. Studiyanın adı Laçın rayonunun əsas rəmzlərindən sayılan Hoqaz qayalıqlarının adından götürülüb. Çoxşaxəli yaradıcılıq məkanı olan "Hoqazfilm"in perspektiv fəaliyyət istiqamətləri çox genişdir. Bu istiqamətlərə Qarabağ regionunun genişmiqyaslı təbliğatı ilə bağlı layihələrin həyata keçirilməsi, bölgədə keçiriləcək mədəni-kütləvi tədbirlərin işıqlandırılması, Laçında yenidənqurma işlərinin, regionun milli brendlərinin və yerli məhsullarının təşviqi, kinoteatr və yaradıcı ittifaqla əməkdaşlıq, gənclər üçün yay məktəbləri, yaradıcılıq atelyeləri, kinematoqrafiya, rəsm kursları və müsabiqələrinin təşkili daxildir.

Qonaqların tanışlıq səfərinin növbəti ünvanı "Yurd" qalereyası olub. 2025-ci ildə Laçının MDB-nin mədəniyyət paytaxtı elan edilməsi çərçivəsində açılmış bu qalereya Qarabağ və Şərqi Zəngəzurun zəngin mədəni irsini əks etdirmək məqsədi daşıyır. Burada yerli sənətkarların əsərləri, bölgənin tarixi və etnoqrafiyası ilə bağlı eksponatlar sərgilənir. Qalereya həm də mədəni tədbirlər və sərgilər üçün yaradıcı platformadır. "Yurd" adı bu torpağa bağlılıq və milli kimlik rəmzidir. Bakı Abadlıq Xidmətinin dəstəyi ilə Laçın şəhərində açılan ilk özəl "Yurd" qalereyası artıq Azərbaycanın hüdudlarından kənarda, Avropada təmsil olunur.

Daha sonra qonaqlar "Lacinema" mərkəzinə baş çəkiblər. Qeyd edilib ki, kino mərkəzi musiqili və bədii tədbirlərin keçirildiyi məkana çevrilib. Bayram və əlamətdar günlər ərəfəsində mərkəzdə bir çox mədəni tədbirlər təşkil edilir. Diplomatlar burada Laçının işğal zamanı çəkilən görüntülərini və azad edildikdən sonra görülən bərpa-quruculuq işlərini özündə əks etdirən videoçarxa baxıblar.

Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov Laçın haqqında təqdimatla çıxış edib.

Diplomatik korpus nümayəndələrinin Laçın səfəri Seyrangahda davam edib. Burada qonaqlar Laçın şəhərinə açılan mənzərəyə baxıb, Laçının yenidən abadlaşdığına şahid olublar.

Laçında fəaliyyətə başlayan mərkəzlərdən biri - "Gilabi Ceramics" də səfər iştirakçılarının marağına səbəb olub, burada ərsəyə gələn əl işlərinin sərgisinə baxış keçirilib.

Səfər zamanı qonaqlar Həkəri çayının Laçın şəhər mərkəzindən keçən sahilində olub, çaya balıq buraxıblar.

Diplomatik korpusun nümayəndələrinin səfəri iyunun 21-də Şuşada davam edəcək.

# Bakıda III Azərbaycan-Özbəkistan Regionlararası Forumu keçirilib

**Bakıda Azərbaycanın İqtisadiyyat, Özbəkistanın İnvestisiyalar, Sənaye və Ticarət nazirliklərinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun təşkilatçılığı ilə III Azərbaycan-Özbəkistan Regionlararası Forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə hər iki tərəfdən hökumət nümayəndələri, sənaye, energetika, kənd təsərrüfatı, logistika, əczaçılıq, qida, turizm və konsaltinq sahələrini təmsil edən şirkət nümayəndələri iştirak ediblər.

Forumda Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov vurğulayıb ki, ötən il dövlət başçılarımız tərəfindən imzalanmış "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə" ikitərəfli əlaqələrimizi daha da stimullaşdırır.

Özbəkistanla birgə keçirilən regionlararası forumların münasibətlərin inkişafı baxımından səmərəli platforma olduğu qeyd olunub. Ötən il Özbəkistanda dövlət başçılarının iş adamları ilə görüşü çərçivəsində icrasına start verilən birgə layihələrin çoxu məhz ölkələrimizin bölgələrində reallaşdırılır. Bu layihələr bölgələrin tarazlı inkişafına töhfə verməklə yanaşı, iqtisadi tərəfdaşlığın intensivləşdirilməsinə xidmət edir.




Diqqətə çatdırılıb ki, bu ilin yanvar-may aylarında ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 200 milyon dollardan çox olub. Bununla belə, ixracın təşviqi, investisiya üzrə birgə fəaliyyətin, birbaşa işgüzar əlaqələrin genişləndirilməsi məqsədilə işlər görülür. Azərbaycanın Özbəkistanda ticarət nümayəndəliyinin yaradılması nəzərdə tutulur.

Ölkələrimiz arasında ticarət, investisiya, sənaye, enerji, nəqliyyat-tranzit, Ələt Azad İqtisadi Zonası, azad edilmiş ərazilərimizdə biznes fəaliyyəti və digər istiqamətlərdə işbirliyinin inkişafı üçün geniş potensial olduğu bildirilib. Forumda özbəkistanlı iş adamlarını Azərbaycandakı biznes fürsətlərindən fəal şəkildə yararlanmağa dəvət olunub.

Özbəkistanın investisiyalar, sənaye və ticarət naziri Laziz Kudratov yüksəksəviyyəli Azərbaycan-Özbəkistan münasibətlərinin, birgə investisiya layihələrinin reallaşdırılması, işgüzar dairələr arasında tərəfdaşlığın gücləndirilməsinə dair fikirlərini bölüşüb.

Tədbir çərçivəsində AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, Özbəkistanın "Uzkimyosanoat" ASC-nin İdarə Heyəti sədrinin birinci müavini Yevgeni Korjikov ölkələrimizin sərmayə iqlimi və ortaq biznes perspektivləri, Fərqanə vilayətinin rəhbəri Nuriddin Mamajonov isə rəhbəri olduğu vilayətin iqtisadi imkanları və ölkəmizlə mümkün əməkdaşlıq istiqamətləri barədə çıxış ediblər.

Forumda ölkələrimizin regionları arasında əlaqələrin genişləndirilməsi, birgə təşəbbüslərin gerçəkləşdirilməsi haqqında müzakirələr aparılıb.

Tədbir B2B və B2G formatlarında görüşlərlə davam edib.

# ADA Universitetində "Məzun günü" keçirilib






**ADA Universitetinin Məzun günü keçirilib. Universitetdən AZƏRTAC-a bildirilib ki, bu il ADA-dan 800-ə yaxın tələbə bakalavr və magistr proqramlarını bitirərək məzun olub. Təntənəli mərasimə valideynlər, professor-müəllim heyəti, dövlət və özəl qurumlarının nümayəndələri qatılıb və məzunların sevincini bölüşüblər.**





Tədbir ADA-nın beynəlmiləl ruhunu əks etdirən bayraq keçidi ilə başlayıb - əcnəbi tələbələr təmsil etdikləri ölkələrin bayraqları ilə səhnəyə çıxıblar. Ardınca Dövlət himni səsləndirilib.

Tələbələr Aylin İsmayılova və Rəvan Həsən tədbirə aparıcılıq ediblər.

ADA Universitetinin akademik işlər üzrə prorektoru Elkin Nurməmmədov çıxışında tələbələrin əldə etdiyi nailiyyətlərdən danışaraq bu il ilk məzunları olan maliyyə, riyaziyyat, rəqəmsal media və kommunikasiya, qlobal menecment və siyasət və Azərbaycan dilində tədris olunan dövlət idarəetməsi ixtisaslarını xüsusi qeyd edib. Prorektor ADA Universitetində bu tədris ilində ilk dəfə doktorantura pilləsinə tələbə qəbulunun elan olunduğunu bildirib.

Tədbirin xüsusi qonağı qismində ədliyyə naziri Fərid Əhmədov çıxış edərək məzunlara uğurlar arzulayıb. Onların cəmiyyətimizə töhfə verəcəklərinə əminliyini vurğulayaraq, bu yolda onlara dəstək verənləri unutmamağı məsləhət görüb. Nazir həmçinin universitetdə məzunların biliklərlə yanaşı, qazandıqları dəyərlərin önəmindən bəhs edib.

Ardınca yüksək akademik nailiyyətləri ilə fərqlənən iki məzun tələbə heyəti adından çıxış edib. Beynəlxalq münasibətlər ixtisası üzrə bakalavr məzunu Aylan Məmmədli və elektroenergetika mühəndisliyi ixtisası üzrə magistr məzunu Ayşət Seyidova öz çıxışlarında ADA-da keçirdikləri yaddaqalan anları bölüşüblər.

Sonda ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev çıxış edərək ADA Universitetinin əsas missiyasını bir daha xatırladıb. O, milli dəyərlərinə sadiq, eyni zamanda dünyaya açıq vətəndaşlar yetişdirməyin vacibliyini vurğulayıb. Məzunlara ünvanladığı səmimi tövsiyəsində isə onları ADA-dan kənarda da "ADA-lı" olaraq qalmağa, bu kimliyi layiqincə daşımağa, burada öyrəndiklərini daim vətənimizə xidmət üçün istifadə etməyə çağırıb.

Rektor eyni zamanda universitetin gələcək planları barədə danışıb. O bildirib ki, qarşıdakı illərdə ADA daha da genişlənəcək, tələbələr üçün yeni ixtisaslar açılacaq və müasir tədris binaları istifadəyə veriləcək. Çıxışının sonunda isə o, İtaliya-Azərbaycan Universitetinin ilk magistr məzunlarını xüsusi olaraq qeyd edib.

Ümumilikdə 2024-2025-ci tədris ili üzrə ADA Universitetindən 509 bakalavr və 275 magistr olmaqla, 784 tələbə məzun olub. Bakalavriat və magistratura səviyyələrində 23 ixtisasdan məzun olan tələbələrin 732-si yerli, 52-si isə əcnəbidir. Əcnəbi məzunlar ABŞ, Gürcüstan, Efiopiya, Esvatini, İran, Konqo, Livan, Latviya, Meksika, Mərkəzi Afrika Respublikası, Mozambik, Nigeriya, Özbəkistan, Qana, Qazaxıstan, Pakistan, Rusiya Federasiyası, Slovakiya, Sudan, Tacikistan, Ukrayna, Yəmən, Zambiya, Zimbabve kimi ölkələri təmsil edirlər.

# Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində "Zeynəbin sehrli dünyası" adlı sərginin açılışı olub






**Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində 13 yaşlı Zeynəb Babayevanın müəllifi olduğu "Zeynəbin sehrli dünyası" adlı sərginin açılışı olub.**

AZƏRTAC xəbər verir ki, ekspozisiyada iştirak edənlər arasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva da olub.

Sərgidə gənc rəssamın təbiətə, heyvanlara, flora və faunaya olan sevgisindən ilham alan əsərləri təqdim olunub. Zeynəb öz əsərlərində gil, kətan sapları, parça kimi təbii materiallardan istifadə edərək, onları zəngin daxili aləmi və parlaq təxəyyülünün yaratdığı obrazlara çevirib.

Tədbiri Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru, Xalq rəssamı Səlhəb Məmmədov salamlayıcı nitqlə açıb. O, çıxışında gənc rəssamın işlərini yüksək qiymətləndirib və ona yaradıcılığında uğurlar arzulayıb. Qeyd edib ki, məhz belə uşaqlar gələcək milli incəsənətimizin əsasını təşkil edirlər.

O qeyd edib ki, Zeynəbin əsərlərində valehedici zövq və yaradıcılığa heyrətamiz səy hiss olunur.

Bundan başqa Xalq rəssamı ekspozisiyanın müəllifinə xüsusi təkliflə müraciət edib. Onu Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına, Heykəltaraşlıq fakültəsinə dəvət edib.

S.Məmmədov vurğulayıb: "Səni Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına - Heykəltaraşlıq fakültəsinə dəvət etmək istəyirəm. Gələrsən və orada peşəkar ustaların və fakültəmizin tələbələrinin iş prosesi ilə tanış olarsan, habelə ab-havanı hiss edərsən. Əminəm ki, bu, sənin üçün ilhamverici amil və mühüm təcrübə olacaq".

İştirakçılara və qonaqlara səmimi sözlərlə müraciət edən "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Rüfət Mahmud da təşkilatçılara təşəkkürünü bildirib və uşaq və yeniyetmələrin yaradıcılığına dəstəyin vacibliyini vurğulayıb.

Mərkəzin direktoru Anna İbrahimbəyova çıxışında müəssisənin missiyası haqqında danışaraq bildirib ki, müəssisənin əsas məqsədi gənc müəlliflərə özlərini ifadə etmək üçün şərait yaratmaq, onların yaradıcılıq potensialını inkişaf etdirmək və yeni kəşflərə ruhlandırmaqdır.

Daha sonra tədbirdə Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva çıxış edərək Zeynəb Babayevanı ilk sərgisi münasibətilə təbrik edib və onun böyük yaradıcılığında parlaq gələcəyinə əminliyini ifadə edib. O qeyd edib ki, bu əsərlər mehribanlıq və istiliklə doludur. Onların əsas xüsusiyyəti sevgi ilə yaradılmasıdır.

Tədbir zamanı Zeynəbin ideyanın yaranmasından və heykəltaraşlığından tutmuş, hər bir heykəlin bəzədilməsi və canlandırılmasına qədər yaradıcılıq prosesini əks etdirən qısa videoçarx da nümayiş etdirilib. Tədbirin sonunda gənc rəssam qonaqların və uşaqların fəal iştirak etdiyi kiçik ustad dərsi keçirib.

AZƏRTAC-ın müxbiri ilə söhbətində Zeynəb Babayeva bildirib ki, o, kiçik yaşlarından heyvanlara xüsusi sevgi bəsləyir və məhz bu bağlılıq onu sərgidə təqdim olunan əsərləri yaratmağa ruhlandırıb. Zeynəbin sözlərinə görə, o, bəzi eksponatları xüsusi qayğıya ehtiyacı olan uşaqlara hədiyyə etməyi arzulayır ki, yaradıcılıq sevincini onlarla bölüşsün.

"Sərgimin əsas ideyası insanlara heyvanları sevmək və onları qorumaq lazım olduğunu xatırlatmaqdır. Onlar Yer üzündəki ən təmiz və məsum varlıqlardır", - deyə gənc rəssam bildirib.

Xalq rəssamı Səlhəb Məmmədov söhbəti davam etdirərək sərgi ilə bağlı təəssüratlarını bölüşüb.

"Bu sərgi onun daxili dünyasıdır, işıqla, təbiətə qayğı ilə və hər əsərində hiss olunan xüsusi saflıqla doludur", - deyə Xalq rəssamı vurğulayıb.

Rəssam qeyd edib ki, Zeynəbin əsərləri heç bir şübhə doğurmur: onlar səmimi hisslərdən, dərin müşahidə qabiliyyəti və zəngin təxəyyüldən yaranıb.

"Onun yaratdığı əsərlər onun ruhunu əks etdirir. Uşağın, xüsusən də 13 yaşında olan birinin ruhu isə təəccüblü dərəcədə təmizdir. Məhz bu təmizlik, toxunulmazlıq və mehribanlıq onun kompozisiyalarında yaşayır", - deyə Səlhəb Məmmədov izah edib.

Sonda rəssam Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinə xüsusi təşəkkürünü bildirib:

"Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinə uşaqlara özlərini ifadə etmək imkanı yaratdığı üçün təşəkkür edirəm".

Qeyd edək ki, sərgi Xalq yazıçısı Maqsud İbrahimbəyovun anadan olmasının 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı çərçivəsində keçirilib.

# Azərbaycan-Gürcüstan əlaqələri dinamik şəkildə inkişaf edir

**İyunun 20-də Milli Məclisdə ölkəmizdə səfərdə olan Gürcüstan parlamentinin nümayəndə heyətinin üzvləri ilə görüş keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev dövlətlərimiz arasında siyasi, iqtisadi, humanitar sahələrdə əməkdaşlığın xalqlarımızın ümumi mənafelərinə xidmət etdiyini söyləyib. O, hər iki ölkədə keçirilməsi nəzərdə tutulan gənclər forumunun qarşılıqlı anlaşmanın dərinləşməsinə və gələcək nəsillər arasında əlaqələrin inkişafına töhfə verəcəyinə inamını ifadə edib.

Öz növbəsində Gürcüstan parlamentinin Təhsil, elm və gənclərlə iş üzrə komitəsinin sədri Givi Mikanadze nümayəndə heyətinin ölkəmizdə səfərdə olmasından məmnunluq duyduğunu bildirib. O, Gürcüstan parlamentinin 89 deputatından 30-nun Azərbaycanla dostluq qrupunun üzvü olmasının ölkələrimiz arasında parlamentlərarası əlaqələrin yüksək səviyyədə olmasının bariz nümunəsi olduğunu vurğulayıb, dövlətlərimiz arasında parlament səviyyəsində həyata keçirilən səfərlərin qarşılıqlı münasibətlərin inkişafına verdiyi töhfədən söz açıb.

Görüşdə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Tahir Mirkişili, Rizvan Nəbiyev, Kəmaləddin Qafarov, Müşfiq Məmmədli, eləcə də Gürcüstan parlamentinin nümayəndə heyətinin üzvləri Şota Berekaşvili, Anton Obolaşvili, və Levan Maçavariani çıxış edərək Azərbaycan ilə Gürcüstan arasında inkişaf edən əlaqələrin əhəmiyyətindən, iri neft və qaz layihələrinin icrasının, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin regional əməkdaşlığa verdiyi töhfədən və diplomatik münasibətlərin yüksək səviyyəsindən söz açıblar.

Söhbət zamanı dövlətlərimiz arasında münasibətlərin qədim tarixi əlaqələrə əsaslanan dostluq üzərində qurulduğu və bu əlaqələrin bu gün də dinamik şəkildə inkişaf etdiyi vurğulanıb. Həmçinin icbari sığorta və səhiyyə islahatları sahəsində ölkələrin bir-birinin təcrübəsindən yararlandığı, informasiya texnologiyaları üzrə əməkdaşlığın da genişləndiyi qeyd olunub.

*"Azərbaycan"*

# Azərbaycan-Gürcüstan iqtisadi əlaqələri genişlənir

**İyunun 20-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində ölkəmizdə səfərdə olan Gürcüstan parlamenti nümayəndə heyətinin üzvləri ilə görüş keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə komitə sədri Azər Əmiraslanov bildirib ki, Azərbaycan ilə Gürcüstan arasında qədim tarixə malik dostluq və qardaşlıq əlaqələri mövcuddur. Hazırda iki ölkə arasında əlaqələr strateji müttəfiqlik səviyyəsindədir. Xalqlarımız hər zaman dərin hörmətə əsaslanan mehriban qonşuluq şəraitində yaşayıblar.

Komitə sədri Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələrinin dinamik inkişaf etdiyini deyib. Bildirib ki, hər iki ölkənin qanunverici orqanında dostluq qrupları uğurla fəaliyyət göstərir. Parlament komitələri arasında səmərəli əlaqələr qurulub.

O, dövlətlərimiz arasında iqtisadi əməkdaşlığın dinamik inkişaf etdiyini, ölkələrimizin iştirakı ilə həyata keçirilən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi irimiqyaslı layihələrin regionun iqtisadi inkişafı və qlobal inteqrasiyası üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Gürcüstan parlamentinin üzvü Anton Obolaşvili səfərin məqsədinin qarşılıqlı münasibətlərin daha da gücləndirilməsi və dərinləşdirilməsindən ibarət olduğunu deyib. O, ölkələrimiz arasında enerji, nəqliyyat və logistika, habelə turizm sahələrində qarşılıqlı faydalı əməkdaşlığın mövcud olduğunu bildirib. Qonaq Gürcüstanın Azərbaycanla müxtəlif istiqamətlərdə əlaqələrin möhkəmlənməsinə böyük maraq göstərdiyini qeyd edib. Parlament müstəvisində əlaqələrin inkişaf etdirilməsi barədə fikirlərini səsləndirib. Regionda sülhün bərqərar olmasında birgə səylərin önəmindən danışıb.

Görüşdə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Aydın Hüseynov, Zaur Şükürov, Gürcüstan parlamentinin Təhsil, elm və gənclərlə iş üzrə komitəsinin sədri Givi Mikanadze, komitənin aparat rəhbəri Davit Giorqadze çıxış edərək Azərbaycan-Gürcüstan münasibətlərinin bu günü və gələcək inkişaf perspektivləri barədə fikirlərini bölüşüblər. Onlar siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrin dərinləşdirilməsi, habelə milli-mənəvi dəyərlərin qorunub saxlanılması istiqamətində əməkdaşlığın vacibliyindən söz açıblar.

Söhbət zamanı parlament əlaqələrinin inkişafı, biznes-forumların təşkili, enerji, nəqliyyat-kommunikasiya sahələrində yeni layihələrin reallaşdırılması, digər qarşılıqlı maraq doğuran məsələlərə dair müzakirələr aparılıb.

*"Azərbaycan"*

# DİN-in Hərbi İnstitutunda növbəti buraxılış olub

**Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunda 2024-2025-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib. Tədbirdə respublikanın daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.**

**Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçən hərbi qulluqçuların və polis əməkdaşlarının əziz xatirəsi yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.**









Məzunların buraxılış mərasiminin Hərbi İnstitutun həyatında əlamətdar hadisələrdən biri olduğunu diqqətə çatdıran nazir müavini Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov təhsil müəssisəsinin inkişaf yolu, maddi-texniki və tədris bazasının gücləndirilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edib.

Nazir Vilayət Eyvazov Daxili İşlər Nazirliyinin əsas struktur qurumlarından olan Daxili Qoşunların yarandığı gündən şərəfli xidmət yolu keçdiyini vurğulayıb, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə, ölkədə sabitliyin, ictimai təhlükəsizliyin təmin olunmasında onun mühüm rol oynadığını diqqətə çatdırıb. O, Daxili Qoşunların döyüş hazırlığının yüksəldilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən hər zaman nəzarətdə saxlanıldığını, müasir silah və texnika ilə təminatı, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi sahəsində vacib qərarların qəbul edildiyini vurğulayıb, xüsusi diqqət və qayğının nəticəsi olaraq Daxili Qoşunların qarşıya qoyulan istənilən döyüş tapşırığını layiqincə yerinə yetirməyə qadir olduğunu bildirib.

General-polkovnik V.Eyvazov Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında möhtəşəm qələbə ilə nəticələnən Vətən müharibəsində Daxili Qoşunların hərbi qulluqçularının ön cəbhədə qəhrəmanlıq və vətənpərvərlik nümunələri göstərdiyini, onların arasında Hərbi İnstitutun məzunlarının da olmasını bu təhsil müəssisəsində kursantların dövlətə, xalqa, hərbi anda sədaqət ruhunda formalaşmasında əzmkar fəaliyyətin əyani təsdiqi kimi dəyərləndirib.

Daxili Qoşunların Hərbi İnstitutunun bu gün öz təyinatına uyğun olaraq Qoşunlar üçün yüksəkixtisaslı, peşəkar zabit heyətinin hazırlanması ilə bağlı çox böyük işlər gördüyünü, bu mühüm vəzifənin gələcəkdə də layiqincə yerinə yetiriləcəyinə əminliyini ifadə edib.

Daxili işlər naziri qoşunların peşəkar kadr özəyinin formalaşmasında, şəxsi heyətin döyüş hazırlığında yüksək nəticələr əldə etdiyinə görə Türkiyə Silahlı Qüvvələrinin, o cümlədən Jandarm Baş Komandanlığının roluna xüsusi diqqət çəkib. Qeyd olunub ki, məzunların həyatında yeni bir dövr başlayır. Bu təhsil ocağında komandir peşəsinə yiyələnməklə liderlik, cəsurluq, fədakarlıq, dürüstlük kimi keyfiyyətlər qazanan, peşələrini sevən, müasir düşüncəyə sahib gənc zabitlər artıq hazırlıqlı və peşəkar hərbçilər kimi Daxili Qoşunların sıralarında xidmətlərini uğurla davam etdirəcək, qoşunların döyüş ənənələrinə sadiq qalacaqlar.

Nazir V.Eyvazov Hərbi İnstitutu uğurla bitirmələri münasibətilə gənc zabitləri, onların valideynlərini və yaxınlarını təbrik edib, Daxili Qoşunlar üçün peşəkar kadrlar hazırlayan bu ali təhsil ocağının rəhbərliyinə, zabit-müəllim heyətinə təşəkkürünü bildirib, fəaliyyətlərində uğurlar arzulayıb.

Kursant Çingiz Cəfərli onlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına, DİN rəhbərliyinə və Hərbi İnstitutun zabit-müəllim heyətinə minnətdarlığını çatdırıb, gələcəkdə peşəkar zabit olacaqlarını, Vətən, dövlət və xalq qarşısında vəzifələrini layiqincə yerinə yetirəcəklərini, hərbçi şərəfini hər zaman uca tutacaqlarını bildirib.

Sonra döyüş bayrağı üçüncü kursun kursantlarına təhvil verilib. Gənc zabit Ç.Cəfərli "Yaş kötüyü"nə rəmzi xatirə lövhəsini vurub.

Tədbirin sonunda daxili işlər naziri Hərbi İnstitutu fərqlənmə və "baş leytenant" rütbəsi ilə bitirmiş məzunlara diplomları təqdim edib.

Sonda gənc zabitlər təntənəli marşla tribunanın qarşısından keçiblər.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında "Məzun günü" keçirilib









**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) Əmək və Sosial Münasibətlər Akademiyasında "Məzun günü" keçirilib.**

Tədbirdə 2024/2025-ci tədris ilində bakalavriat və magistratura səviyyələrində təhsillərini başa vuran məzunlar, konfederasiyanın və üzv təşkilatların rəhbərliyi, dövlət rəsmiləri, Milli Məclisin deputatları, akademiyanın müəllim heyəti və valideynlər iştirak ediblər.

Əvvəlcə Dövlət himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Sonra "Təşəkkür edirəm, Akademiya" videoçarxı nümayiş etdirilib.

Tədbirdə çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov məzunları təbrik edərək dövlətimizin gənclərə və təhsil sahəsinə diqqət və qayğısından danışıb. Qeyd olunub ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin formalaşdırdığı məqsədyönlü gənclər və təhsil siyasəti hazırda cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, gənclərin yüksəkixtisaslı kadr kimi yetişməsi, potensialının reallaşdırılması istiqamətində sistemli tədbirlər həyata keçirilir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə elm və təhsil sahəsində reallaşdırılan müxtəlif sosial və innovativ layihələr gənclərin fərdi və peşəkar inkişafında mühüm rol oynayır.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının müasir əmək bazarının tələblərinə uyğun kadr hazırlığını prioritet istiqamət kimi müəyyən etdiyini diqqətə çatdıran konfederasiya sədri hazırda ali təhsil ocağında tədrisin keyfiyyətinin daha da yüksəldilməsi istiqamətində görülən işləri qeyd edib.

Sahib Məmmədov məzunları əldə etdikləri bilik və bacarıqlarla dövlətimizin inkişafına töhfə verməyə, daim öyrənməyə və çalışqanlığı həyat tərzinə çevirməyə çağırıb.

Akademiyanın rektor vəzifəsini icra edən Yusif Ağayev tələbə və məzunların uğurlarından söz açıb, ali təhsil ocağının son illər əldə etdiyi nailiyyətlər, genişlənən beynəlxalq əlaqələr və təhsil proqramları haqqında məlumat verib. Bildirilib ki, əsas məqsəd yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən yüksəkixtisaslı kadrlar hazırlamaqdır.

Məzunları təbrik edən Yusif Ağayev onlara ölkəmiz üçün faydalı olmağı, öz üzərlərində davamlı işləməyi və peşəkarlıq səviyyələrini artırmağı tövsiyə edib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev, Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc və Milli Məclisin deputatı Samir Vəliyev məzunları təbrik edib, qazandıqları nəzəri bilikləri praktiki bacarıqlarla birləşdirərək gələcəkdə həm şəxsi karyeralarında uğurlar qazanacaqlarına, həm də ölkəmizin sosial-iqtisadi inkişafına töhfə verəcəklərinə inandıqlarını bildiriblər.

Akademiyanın məzunları - Vəfa Hacıyeva və Orxan Rəhmanov çıxış edərək tələbəlik illəri ilə bağlı xatirələrini bölüşüblər. Onlar burada qazandıqları bilik və bacarıqların gələcək peşəkar fəaliyyətlərinə etibarlı zəmin yaratdığını və bu biliklər sayəsində qarşılarına qoyduqları məqsədlərə doğru daha inamla irəliləyəcəklərini deyiblər.

Çıxışlardan sonra məzunların təltifetmə mərasimi keçirilib. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi, tədbirdə iştirak edən dövlət rəsmiləri və deputatlar tərəfindən akademiyanı bitirən 189 məzuna fəxri fərman və tərifnamələr təqdim olunub.

Tədbir bədii hissə ilə davam edib. Məzunlar klassik və müasir musiqi sədaları altında bir-birini təbrik edib, xatirə şəkilləri çəkdiriblər.

*N.ƏSGƏROVA,*
*"Azərbaycan"*

# "Şahdəniz"də növbəti mərhələ başlanır

## Yeni layihənin yataqdan təxminən 50 milyard kubmetr əlavə qaz hasilatına imkan yaradacağı gözlənilir



**"Şahdəniz" son onilliklər ərzində dünyada kəşf edilmiş və istismarına başlanmış ən böyük karbohidrogen yataqlarındandır. Xəzərin Azərbaycan sektorundakı bu yatağın ilkin hesablamalara görə, təxminən 1 trilyon kubmetr qaz və 2 milyard barel kondensat ehtiyatı var.**

"Şahdəniz" həmin yataqdır ki, Azərbaycanı dünyada həm də qaz ixrac edən ölkə kimi tanıdıb. Belə ki, yatağın işlənməsinin birinci mərhələsi çərçivəsində çıxarılan qaz 2006-cı ildə Cənubi Qafqaz Boru Kəməri (CQBK) vasitəsilə Gürcüstana və bir il bundan sonra Bakı-Tbilisi-Ərzurum kəməri ilə Türkiyəyə çatdırılıb. Genişləndirilmiş CQBK, TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) birləşməsindən yaranan "Cənub qaz dəhlizi"nin ixrac etdiyi qaz isə "Şahdəniz"in işlənməsinin ikinci mərhələsindəndir. "Şahdəniz-2" qazı TANAP-la Türkiyəyə 2018-ci ilin ortalarında, TAP-la Avropaya 2020-ci ilin sonuncu günündə çatdırılıb. Yatağın hər iki hissəsindən hasilat və ixrac uğurla davam edir.

Xatırladaq ki, "Şahdəniz" yatağı 1999-cu ildə kəşf olunub. Hazırda layihədə iştirak payları belədir: BP (operator - 29,99 faiz), LUKOYL (19,99 faiz), TPAO (19 faiz), "Cənub qaz dəhlizi" (16,02 faiz), NİKO (10 faiz) və MVM (5 faiz).

İlkin hasilat başlayandan indiyədək "Şahdəniz" yatağından təxminən 243 milyard kubmetr qaz və 50 milyon ton kondensat hasil olunub. 2024-cü ildə yataqdan təxminən 28 milyard kubmetr qaz və 4 milyon tondan artıq (təxminən 35 milyon barel) kondensat əldə edilib.

Bütün bunlar "Şahdəniz"in töhfələrinin hələ hamısı deyil. Mütəxəssislər vaxtaşırı belə bir fikir də səsləndirirdilər ki, layihənin növbəti mərhələsinin də olacağı mümkündür. Budur, cari ayın əvvəlində Bakı Enerji Həftəsi çərçivəsində "Şahdəniz" konsorsiumu yatağın işlənməsində növbəti mərhələ - "Şahdəniz Kompressiya" (ŞDK) layihəsi üçün yekun investisiya qərarını elan etdi. Bu, əvvəlki iki mərhələnin davamıdır.

2,9 milyard dollar dəyərində olan ŞDK layihəsində məqsəd "Şahdəniz"dəki aşağı təzyiqli qaz ehtiyatlarının hasilatını təmin etmək və beləliklə, yataqdan maksimum qazvermə əmsalına nail olmaqdır. Layihənin yataqdan təxminən 50 milyard kubmetr əlavə qaz 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir.

SOCAR-ın prezidenti Rövşən Nəcəf "Şahdəniz Kompressiya" layihəsinin Azərbaycanın enerji tarixində yeni və mühüm bir səhifə olduğunu deyib: "Bu layihə resursların uzunmüddətli işlənməsi, texnoloji irəliləyiş və beynəlxalq tərəfdaşlığa sadiqliyimizi əks etdirir. Bu investisiya "Şahdəniz"in regionda və ondan kənarda mühüm enerji mənbəyi kimi rolunu daha da gücləndirəcək və eyni zamanda yerli iqtisadiyyatımız və işçi qüvvəsi üçün yeni imkanlar yaradacaq. Elektriklə işləyən, heyətsiz kompressiya platforması texnologiyasının tətbiqi regionda dəniz işlənmələri sahəsində müasir və səmərəli bir yanaşmadır. Bununla yanaşı, layihənin yerli tikinti resurslarından və təcrübədən istifadəyə üstünlük verməsi ölkənin potensialının qurulmasına və iqtisadi artımın dəstəklənməsinə olan sadiqliyimizi göstərir. Bütün tərəfdaşlarımıza davamlı etimadlarına və əməkdaşlığa görə təşəkkür edirik. SOCAR bu layihənin təhlükəsiz və səmərəli, həmçinin Azərbaycan və tərəfdaşlarımız üçün maksimum fayda gətirəcək şəkildə həyata keçirilməsi üçün çalışacaq".

"Şahdəniz" yatağının operatoru olan BP şirkətinin regional prezidenti Qəri Counz layihəni belə dəyərləndirib: "Bu mühüm layihə dünyanın ən böyük və mürəkkəb qaz yataqlarından biri olan "Şahdəniz"in qarşıdan gələn onilliklər ərzində qlobal iri enerji təchizatçısı kimi qalmasına və bu nəhəng yataqdan maksimum ümumi hasilat əldə etməyə imkan yaradacaq. Bu uğur yolumuzda göstərdikləri dəstəyə və əməkdaşlığa görə Azərbaycan hökumətinə, SOCAR-a və "Şahdəniz" layihəsindəki tərəfdaşlarımıza təşəkkür edirik."

Vurğulayaq ki, layihə çərçivəsində yeni kompressiya obyektinin - elektriklə işləyən, heyətsiz kompressiya platformasının inşası nəzərdə tutulur. Platforma suyun 85 metr dərinliyində, mövcud "Şahdəniz Bravo" platformasından təxminən 3 kilometr məsafədə quraşdırılacaq. Üzərində dörd ədəd 11 meqavatlıq kompressor quraşdırılacaq ŞDK platforması həm "Şahdəniz Alfa", həm də "Şahdəniz Bravo" platformalarından hasil edilən qazın kompressiyası üçün ana qurğu kimi xidmət göstərəcək. Bu o deməkdir ki, hər iki platformadan hasil edilən ixrac qazı qurudakı Səngəçal terminalına göndərilməzdən əvvəl ŞDK-də kompressiya olunacaq.

Layihə həmçinin "Şahdəniz" müqavilə sahəsində quraşdırılacaq bir sıra əlaqədar obyektləri də əhatə edir. Bunlara mövcud iki platformanın qaz ixrac xətlərinə birləşən yataqdaxili sualtı qaz boru kəmərləri, yeni platformanı enerji ilə təchiz etmək üçün terminaldan çəkilən birləşdirilmiş elektrik və fiber-optik kabel xətti, "Şahdəniz Bravo"dan "Şahdəniz Kompressiya"ya birləşdirici ehtiyat elektrik və fiber-optik kabel xətti daxildir. Bundan əlavə, layihə əvvəlki iki platforma və Səngəçal terminalında mövcud infrastruktur üzərində aparılacaq bir sıra işləri də əhatə edir.

Tikinti işlərinin bu ilin sonlarında başlanması planlaşdırılır və 2029-cu ildə yekunlaşması gözlənilir. Yeni platformanın həmin ildə "Şahdəniz Alfa"dan, 2030-cu ildə isə "Şahdəniz Bravo"dan alınan qaz həcmlərini kompressiya üçün qəbul etməyə hazır olacağı planlaşdırılır. Tikinti işləri ölkə daxilində yerli resurslardan istifadə etməklə həyata keçiriləcək və 4000-ə qədər iş yeri yaradacaq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*



# Sarsılmaz birlik, əbədi dostluq

**"Azərbaycan hər zaman Türkiyənin yanında olub, Türkiyə də hər zaman Azərbaycanın yanında olub və bu gün "Azərbaycan" məhəlləsinin açılışında əziz qardaşımla birlikdə iştirakım bir daha bizim birliyimizin, dostluğumuzun təzahürüdür".**

İyunun 19-da Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılış mərasimi zamanı Prezident İlham Əliyevin vurğuladığı kimi, qardaş ölkədə yüzlərlə insan üçün isti, xoşbəxt yuvaya çevriləcək bu məhəllənin timsalında bir millət, iki dövlət olan Azərbaycan və Türkiyənin sarsılmaz birliyi bir daha gözlər önünə gəldi. Həmin açılışda ölkələrimizin himnlərinin sədaları altında ay-ulduzlu bayraqlarımızın qoşa dalğalandırılması xalqlarımızın həmrəyliyini, xoş gündə də, dar gündə də bir yerdə olmasını simvolizə etdi.

6 fevral 2023-cü ildə Türkiyədə baş verən və miqyasına görə "əsrin fəlakəti" adlandırılan dəhşətli zəlzələ nəticəsində yerlə yeksan olmuş Kahramanmaraşda ikiillik qısa müddətdə salınan və möhtəşəmliyi ilə gözoxşayan "Azərbaycan" məhəlləsinin fonunda həm də dünya iki qardaş ölkənin qüdrətini, gücünü, istənilən probleme qarşı birgə mübarizə apararaq onu həll etmək əzmini görmüş oldu...

## Çiyin-çiyinə

Təməl gücünü ortaq tarixi köklərimizdən, gündən-günə inkişaf edən qardaşlıq əlaqələrindən alan Türkiyə-Azərbaycan birliyi dünya üçün unikal nümunədir desək, qətiyyən yanılmarıq. Tam mübaliğəsiz deməliyik ki, bu gün dünyanın heç bir yerində Azərbaycan və Türkiyənin timsalında bir-birilərinə qardaş səmimiyyəti ilə yanaşan, istənilən məsələdə həmrəylik nümayiş etdirən hansısa ölkələrə rast gəlmək mümkün deyil.

Azərbaycan və Türkiyə arasındakı əzəli əlaqələrin iki liderin - İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın şəxsi dostluq və qardaşlıq münasibətləri sayəsində daha da inkişaf edib, möhkəmlənməsi bir reallıqdır. Qardaşlıq münasibətlərinə dayanan bu əlaqələr sayəsində Azərbaycan və Türkiyə dövlətlərimizin, xalqlarımızın varlığına qarşı təhdid olan terrorizm, işğal siyasətinə qarşı birlikdə mübarizə aparır, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması istiqamətində daim bir-birilərinə dayaq-dəstək dururlar.

Vurğulanası vacib məqamlardan biri də iki qardaş ölkənin vahid gücünün təkcə ölkələrimizin, regionumuzun inkişafı üçün deyil, beynəlxalq əhəmiyyətli məsələlərin, qlobal problemlərin həlli üçün də mühüm rola malik olmasıdır. Bu gün Azərbaycan-Türkiyə birliyi dünyada hesablaşılan gücə çevrilib və regionla bağlı istənilən məsələnin, layihənin bu iki ölkənin maraqları nəzərə alınmadan reallaşdırılması mümkünsüzdür.

Vətən müharibəsində Türkiyənin Azərbaycana açıq şəkildə siyasi və mənəvi dəstək verməsi sayəsində ölkəmizin ermənipərəst düşmənlərinin əl-qolunun necə bağlanması hər kəsin yadındadır. 2020-ci ilin sentyabrında çıxdığımız Zəfər yürüşü zamanı Türkiyə ən ali səviyyədə Azərbaycanın tək olmadığını, onun Türkiyə kimi qardaşı olduğu mesajını verdi. Bununla da Azərbaycanın haqq işinə maneçilik törətmək istəyən xarici qərəzli qüvvələrin müdaxilələrinin qarşısı alındı.

Kahramanmaraşda açılış mərasimindəki çıxışı zamanı Prezident İlham Əliyev bu məqamı bir daha vurğuladı: "Qarabağ məsələsində də qeyd etdiyiniz kimi, biz əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanla savaşın ilk günündən çiyin-çiyinə, bir yerdə idik. Savaşın ilk saatlarında Türkiyə Cümhurbaşqanının bizə göstərdiyi dəstək, həmrəylik, siyasi dəstək, mənəvi dəstək, Türkiyə xalqının bizimlə bərabər olması bizim gücümüzə güc qatıb. Biz tarixi ədaləti bərpa etdik və bu gün Azərbaycan xalqı öz əzəli torpağında rahat və təhlükəsizlik şəraitində yaşayır".

2021-ci ilin 15 İyununda - Qurtuluş Günündə Azərbaycan Prezidenti ilə Türkiyə Prezidenti Qarabağda Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsini imzalayaraq qardaş ölkələrin münasibətlərini daha yüksək pilləyə ucaltdılar.

"Dörd il bundan öncə hörmətli Cümhurbaşqanı ilə Şuşa şəhərində imzaladığımız Şuşa Bəyannaməsi bizim əlaqələrimizi ən yüksək zirvəyə qaldırmışdır. Şuşa Bəyannaməsi bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Biz dostuq, qardaşıq, müttəfiqik. Türkiyə və Azərbaycan - iki qardaş ölkə həm siyasi, həm iqtisadi, həm enerji, nəqliyyat, hərbi və bütün başqa sahələrdə bir-birinin yanında inamla, uğurla irəliləyir", - deyə "Azərbaycan" məhəlləsinin açılışında dövlətimizin başçısı sözügedən bəyannamənin əhəmiyyətinə yenidən diqqət çəkdi.

## Kədəriniz kədərimizdir dedik...

6 fevral 2023-cü ildə qardaş Türkiyədə zəlzələ nəticəsində baş verən faciə Azərbaycanı da sarsıtdı. Türkiyəli qardaşlarımızın acısını bölüşən, dərdinə şərik olan xalqımız, sözün əsl mənasında, bir ürəyə dönərək Azərbaycanın hər bir nöqtəsində yardım kampaniyalarına başladı, insanlarımız əllərindən gələn köməyi göstərməyə çalışdılar. Dəhşətli zəlzələ zamanı Türkiyəyə ilk beynəlxalq yardımı məhz Azərbaycan dövləti göstərdi. Həmin vaxt Prezident İlham Əliyevin tapşırığına əsasən, təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədilə qardaş Türkiyənin zəlzələ bölgəsinə dərhal yardım göstərilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirildi. Türkiyədə baş verən təbii fəlakətin ağır nəticələrini aradan qaldırmaq məqsədilə dövlət qurumlarımız səfərbər oldular. Çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələ qurbanlarına dəstək məqsədilə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, fond tərəfindən qardaş ölkəyə humanitar yardımlar göndərildi.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 16 mart 2023-cü ildə zəlzələ ilə əlaqədar Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının fövqəladə Zirvə görüşünün keçirilməsi dağıdıcı zəlzələnin fəsadlarının aradan qaldırılması istiqamətində mühüm əhəmiyyət kəsb etdi.

Bu il iyunun 19-da həyata keçirilən sözügedən açılış mərasimindəki çıxışı zamanı ölkəmizin rəhbəri İlham Əliyev iki il əvvəl Türkiyədə baş vermiş zəlzələ ilə bağlı söylədi ki, Azərbaycan xalqı bu faciəni öz faciəsi kimi qəbul etdi: "İlk gündən on minlərlə azərbaycanlı Bakıda, Azərbaycanın müxtəlif şəhərlərində insani yardım göstərmək üçün məntəqələrə gəlib öz qardaşlıq borcunu yerinə yetirməyə başlamışdır".

Dövlətimizin başçısı bildirdi ki, həmin vaxt Azərbaycan dərhal mindən çox heyəti, o cümlədən axtarış-xilasetmə üzvlərini, könüllüləri, həkimləri Türkiyənin zəlzələ bölgələrinə göndərmiş və dərhal işə başlamışdır: "Azərbaycan heyətləri tərəfindən 53 insan dağıntılar altından sağ çıxarılmış, bizim qurduğumuz iki səhra hospitalında 3200 insana Azərbaycan həkimləri tibbi yardım göstərmişdir".

## Türkiyədə Azərbaycan ruhu

Baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılması üçün Azərbaycanın qardaş Türkiyəyə etdiyi yardımların ümumi maliyyə dəyəri 31 milyon 510 min 900 ABŞ dolları təşkil edib. Həmçinin 13 milyon 397 min 883 ABŞ dolları birbaşa maliyyə yardımı şəklində təqdim olunub.

Prezident İlham Əliyevin xüsusi tapşırığı ilə Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin inşasına start verildi. 27,6 hektarlıq ərazini əhatə edən və artıq vurğuladığımız kimi iki ölkənin liderləri - İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən açılışı həyata keçirilən bu məhəllədə 1194 mənzildən ibarət 68 yaşayış binası, Heydər Əliyev adına ibtidai məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və digər sosial obyektlər inşa olunub. Həmçinin burada məskunlaşacaq ailələr üçün 1595 ticarət obyekti də yaradılıb.

Onu da xatırladaq ki, 29 aprel 2023-cü ildə keçirilən TEKNOFEST festivalı çərçivəsində Heydər Əliyev adına məktəbin və uşaq bağçasının təməlqoyma mərasimi olmuşdur. Bu mərasimə Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan videokonfrans vasitəsilə qatılmışdır. 2024-cü ilin sentyabrında isə Heydər Əliyev adına ibtidai məktəb və uşaq bağçasının açılışı baş tutmuşdur. Məktəb tədrisin və uşaqların fərdi inkişafının yüksək səviyyədə təşkili üçün bütün zəruri avadanlıq və tədris materialları ilə təmin edilmişdir.

Açılış zamanı "Azərbaycan" məhəlləsinin yaradılmasının çox gözəl hadisə olduğunu söyləyən Prezident İlham Əliyev məlumat verdi ki, burada 90-dan çox bina inşa edilib, 1200 mənzildə bizim türkiyəli bacı-qardaşlarımız yaşayacaq. Məktəb, uşaq bağçası var, mədəniyyət mərkəzinin inşası da nəzərdə tutulur: "Biz yaxşı günlərdə də, ağır günlərdə də daim bir-birimizin yanındayıq, bir-birimizin gücünü artırırıq. Bu gün Türkiyə-Azərbaycan qardaşlığı, birliyi nəinki bölgəmiz üçün, dünya miqyasında önəmli amildir, təhlükəsizlik, işbirliyi, inkişaf və qardaşlıq rəmzidir".

Ölkəmizə, xalqımıza, şəxsən Prezident İlham Əliyevə dar günündə Türkiyəyə göstərdiyi qardaşlıq dəstəyinə görə minnətdarlığını səmimi sözlərlə ifadə edən Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan dedi ki, bu gün burada "Bir millət, iki dövlət" şüarının həyata keçməsinə bir daha şahidlik edirik: "Çünki biz eyni bayrağın kölgəsində dua edən, eyni səccadədə göz yaşı tökən, eyni istiqlal üçün qurban verən bir millətin, iki dövlətin tək ürək daşıyan övladlarıyıq. "Ayrılarmı könül candan, Türkiyə Azərbaycandan", - deyən şairlərin sözlərə hərfbəhərf nəqş etdiyi qardaşlığımızın nə məna daşıdığını bu gün bütün dünyaya yenidən göstəririk. Rəbbim aramızdakı bu sarsılmaz həmrəyliyi, bu məhəbbəti daimi etsin".

Azərbaycan-Türkiyə birliyi zamanın sınağından uzüağ və uğurla keçərək hər ötən an daha da möhkəmlənir və əbədiyyətə daşınır.

Heç şübhəsiz, yüz illər sonra da xalqlarımız bir-birilərinə göstərdikləri dayaq və dəstəklə fəxr edəcək, Azərbaycan və Türkiyənin misilsiz həmrəyliyi, qardaşlığı ilə qürur duyacaqlar.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Azərbaycana qarşı dezinformasiya kampaniyası aparılır

## Həqiqətləri beynəlxalq ictimaiyyətə sürətli və intensiv şəkildə çatdırmaq lazımdır

**Regionda vəziyyətin gərgin olduğu bir vaxtda Ermənistan Azərbaycana qarşı yenidən dezinformasiya kampaniyasına başlayıb. Hər fürsətdə ölkəmiz əleyhinə böhtan, qarayaxma kampaniyaları təşkil edən ermənilər və ermənipərəst dairələr Azərbaycanı gözdən salmağa, dost ölkələrlə arasını vurmağa və beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışırlar. Hazırda davam edən hibrid təhdidlərin də əsas məqsədi budur.**



Milli Məclisin deputatı Elman Nəsirov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, haqlı olaraq XXI əsri informasiya əsri adlandırırlar. İnformasiya əsri həm də informasiya müharibəsi anlamında qarşılanır: "İnformasiya müharibəsinin bütün müasir silahları var. İnformasiya müharibəsində gözləmə mövqeyində dayanmaq, müşahidəçi statusu daşımaq məğlubiyyətə aparan yoldur. Ona görə də informasiya savaşında öncül mövqedə dayanmaq və həqiqətləri beynəlxalq ictimaiyyətə sürətli və intensiv şəkildə çatdırmaq lazımdır. İnformasiya müharibəsinin mühüm tərkib hissələrindən biri də dezinformasiyadır. Azərbaycana münasibətdə bunun hər zaman şahidi oluruq. Ermənistan, dünyadakı ermənipərəst dairələr, erməni lobbisi və diasporu, onların nəzarətində olan müəyyən qüvvələr, qruplaşmalar ölkəmizə qarşı tez-tez belə dezinformasiya savaşı aparır, təhrif olunmuş məlumatlar yayırlar. Bu baxımdan Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının qeyd edilən hadisələrlə bağlı son açıqlaması diqqət çəkir. Faktlarla, dəqiq ünvanlarla göstərilir ki, bu gün Ermənistan tərəfindən Azərbaycana qarşı yenidən dezinformasiya savaşı başlanılıb".

Deputat qeyd edib ki, xüsusilə bölgəmizdə baş verən son proseslər fonunda bu məsələ diqqətdən yayınmır. İsrail-İran arasında qarşıdurma fonunda Azərbaycana qarşı saxta xəbərlər tirajlanır və bu, qəbuledilməzdir. Azərbaycan dövləti və ictimaiyyəti də haqlı olaraq buna öz etirazını bildirir. Bu prosesdə fəal olmalı, haqq səsimizi ucaltmalıyıq. Elə şərhlər, dezinformasiyalar, saxta məlumatlar yayılır ki, bununla həm Azərbaycanla İran, həm də Azərbaycanla İsrail münasibətlərinə xələl gətirmək hədəflənir. Müəyyən qüvvələr cidd-cəhdlə Azərbaycanı bu prosesdə tərəfə çevirməyə çalışırlar. Bu isə qeyri-mümkündür. Azərbaycan dövlətinin mövqeyi bəllidir, Xarici İşlər Nazirliyi İsrail-İran qarşıdurması ilə bağlı dövlətimizin rəsmi mövqeyini bəyan edib. Biz münaqişənin dinc, diplomatik yollarla, danışıqlar masası arxasında həlli ideyasını müdafiə edirik. Eyni zamanda Azərbaycanın mövqeyi odur ki, mülki insanlar və mülki obyektlər hədəf seçilməsin.

E.Nəsirov vurğulayıb ki, eskalasiyanın mümkün qədər qarşısının alınması və tezliklə qarşıdurma mühitinin aradan qaldırılması Azərbaycanın əsas istəyidir: "Hesab edirəm ki, Azərbaycan cəmiyyəti, həmçinin KİV bu prosesdə fəal olmalı, rəsmi dövlət mövqeyinə söykənən informasiyaları yaymalı və ölkəmiz əleyhinə aparılan qarayaxma kampaniyasına qarşı mübarizə aparmalıdır. Bu bir çox hallarda qabaqlıyıcı addımlarla müşahidə olunmalıdır".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Azərbaycana qarşı aparılan böhtan kampaniyası iflasa məhkumdur

**Azərbaycanın ərazi bütövlüyünü qəbul etməsi beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilir. Amma qələbəmizi həzm edə bilməyənlər də var. Ermənistandakı revanşistlərin, Fransa başda olmaqla dünya erməniliyinin, onların maraqlarına xidmət edən Avropa Parlamenti kimi təşkilatların fəaliyyətləri bunu təsdiq edir. Əlbəttə, onların nə demələrinin, nə qərarlar qəbul etməsinin heç bir əhəmiyyəti yoxdur və olmayacaq da.**

## Riyakar fəaliyyətin bir mərkəzdən koordinasiya olunduğu şübhə doğurmur

Məsələ həm də ondadır ki, Azərbaycanın qələbəsi, torpaqlarını işğaldan azad etməsi, habelə uğurları ilə barışa bilməyənlər ölkəmizə qarşı qarayaxma kampaniyalarını hibrid formada həyata keçirməyə başlayıblar. Azərbaycana qarşı xüsusən sosial şəbəkələrin imkanlarından istifadə edərək informasiya müharibəsi aparır, dövlətimizə və uğurlarımıza qara yaxmağa cəhd göstərirlər.

Sözügedən kəsim həm də müxtəlif hadisələrə fürsət kimi baxaraq ölkəmizlə bağlı saxta, həqiqətə uyğun olmayan məlumatlar yayırlar. Son günlərdə İran-İsrail qarşıdurması fonunda bu özünü büruzə verməkdədir. Artıq günlərdir ki, sosial şəbəkələrin erməni seqmentində, xüsusən teleqram kanallarında kütləvi şəkildə İsrailin İrana qarşı hərbi əməliyyatlarda guya Azərbaycan ərazilərindən istifadə etməsi barədə dezinformasiyalar tirajlanır. Bu böhtan kampaniyasının respublikamıza qarşı aparılan hibrid müharibənin tərkib hissəsi kimi bir mərkəzdən koordinasiya olunduğu şübhə doğurmur. Lakin bu cür xəbərlərin heç biri rəsmi mənbələr tərəfindən təsdiqini tapmır və tapa da bilməz. Çünki olmayan hadisənin təsdiqlənməsi mümkün deyil.

## Erməni yalanları ayaq tutub yeriyə bilməz

Son günlər ölkəmizi ləkələyən saxta xəbərlərlə bağlı Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası da açıqlama verib. Açıqlamada bildirilir ki, regionda baş verən son hadisələr fonunda Azərbaycan Respublikası hibrid təhdidlərin geniş yayılmış növlərindən olan dezinformasiya kampaniyasının yeni dalğası ilə qarşılaşıb: "Aparılan monitorinqlərin təhlili nəticəsində müəyyən edilib ki, qonşu dövlətlərin ərazisində fəaliyyət göstərən, müxtəlif dairələrə və maraqlara xidmət edən qruplar tərəfindən sosial media platformaları vasitəsilə dövlətimizə qarşı informasiya kampaniyaları təşkil edilir.

Cərəyan edən proseslərlə bağlı Azərbaycan Respublikasının rəsmi mövqeyinin Xarici İşlər Nazirliyi və dövlət rəsmiləri tərəfindən səsləndirilməsinə baxmayaraq, "Teleqram", "Feysbuk", "X", "TikTok" və "Yutub" kimi platformalar üzərindən aparılan fəaliyyətlərdə təhrif olunmuş, saxta məlumatlar yayılır. Münaqişə tərəflərini, eləcə də beynəlxalq ictimaiyyəti çaşdırmağa yönəlmiş bu hərəkətlərin məqsədi ölkəmizin artan nüfuzuna xələl gətirmək, dost və qardaş ölkələrlə münasibətlərini pozmaqdır.

Xatırladaq ki, Azərbaycan Xarici İşlər Nazirliyinin iyunun 13-də yaydığı bəyanatda İsrail və İran arasındakı hərbi qarşıdurmadan narahatlıq ifadə olunub. Azərbaycan XİN vəziyyətin gərginləşdirilməsini qəti şəkildə pisləyərək, tərəfləri mövcud fikir ayrılıqlarını yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll etməyə çağırıb. İyunun 14-də isə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla İranın xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığı baş tutub. Telefon danışığında respublikamızın ərazisinin hər hansı bir ölkə tərəfindən üçüncü ölkəyə, o cümlədən qonşu İrana qarşı istifadə edilməsinin mümkün olmadığı da vurğulanıb.

İran-İsrail qarşıdurması ilə bağlı Azərbaycanın mövqeyi aydındır. İranın rəsmi dairələri bunu bilirlər. Ona görə sosial şəbəkələrin erməni seqmentinin yaydığı yalanlar ayaq tutub yeriyə bilməz və bütövlükdə ölkəmizə qarşı aparılan böhtan kampaniyası iflasa məhkumdur.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***



# Azərbaycan - Türkiyə qardaşlığının növbəti təzahürü

# Kahramanmaraşda Azərbaycan ünvanı

**Kahramanmaraş... Bir zamanlar dağıntılar altında sükuta qərq olan şəhər. Amma indi burada sükut pozulub. İnsanların sevinc göz yaşları, gülüş səsləri yeni bir həyat kitabı yazır. Dünən matəm içində olan küçələr bu gün ümidlə nəfəs alır, uşaq səsləri yıxılmış divarların yerində ucalan binaların pəncərəsindən ətrafa yayılır. Burada qardaşlıqdan, ümiddən və insanlıqdan yoğrulan yeni bir ünvan doğulub: "Azərbaycan məhəlləsi".**

2023-cü ilin qaranlıq fevral səhərində Kahramanmaraşda həyat donmuş, fəlakətdən doğan hönkürtü, ah-nalə səsi torpağın damarlarına hopmuşdu. Divarlar çökmüş, yollar parçalanmış, insanların göz yaşı uçqunlara qarışmışdı. Bir vaxtlar isti ocaqları olan evlərin, uca binaların yerində səssizlik və toz-duman vardı. Və bütün bunlar dəhşətli bir sükutla əhatə olunmuşdu.

Çox keçmədi ki, o sükutu ilk pozan Azərbaycan oldu, "yanındayam!" səsi səssizliyin içində yüksəldi - təyyarələrin uğultusu, yardımların axını, dillərin duası, əllərin Tanrıya uzanışı ilə birlikdə. Qardaş əli, qardaş nəfəsi fəlakətdən doğan ağrılara-acılara məlhəm oldu. Azərbaycan yalnız yardım göndərmədi, ürəyini apardı, nəfəsini gətirdi bu yaralı şəhərə. Dağılmış ümidləri tikdi, uşaq baxışlarına sevinc qaytardı.

Və bu gün Kahramanmaraşda yenidən doğulan həyat başqa cür nəfəs alır. Burada ucalan "Azərbaycan" məhəlləsi təkcə beton və daşdan ibarət deyil, həm də candan yazılan bir məktub, qardaşlıqla qurulan yuvadır. Bu yuva sevgi, şəfqət, mərhəmət və doğmalıqdan tikilib. Burada ucalan hər bina, əllə qoyulan hər daş Azərbaycanın ürəyindən qopan səmimi dəstəyi əks etdirir. Məhəllə sadəcə yaşayış binaları, infrastrukturlar deyil, qardaşlığın daşla həkk olunmuş tarixidir. Həmin tarix iki gün öncə - iyunun 19-da rəsmən dünyaya elan olundu. Məhəllənin açılış lentini Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezident Rəcəb Tayyib Ərdoğan birlikdə kəsdilər.

Qeyd edək ki, ərazisi 27,6 hektar olan məhəllədə 1194 mənzildən ibarət 68 yaşayış binası, Heydər Əliyev adına ibtidai məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və digər sosial obyektlər inşa olunub. Həmçinin burada məskunlaşacaq ailələr üçün qarşıdakı illərdə 1595 ticarət obyekti yaradılması da nəzərdə tutulub. "Azərbaycan" məhəlləsinin baş planı üzrə 7, 8, 11 və 12-ci kvartalların tikintisi artıq tamamlanıb. 4 kvartalda 26 yaşayış binası yerləşir. Binalar hamısı 4 mərtəbəlidir. Bu binalarda ümumilikdə 456 mənzil, 328 qeyri-yaşayış obyekti inşa edilib. Layihənin dizayn və memarlıq işlərində həm Azərbaycan, həm də Türkiyə elementləri, milli motivlər və müasir yanaşma harmonik şəkildə birləşdirilib.

Rəsmi açılış mərasimində çıxış edən Prezident İlham Əliyev qardaş Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu xatırladaraq, bu məhəllənin Azərbaycan xalqının sevgi və ehtiramının rəmzi olduğunu vurğuladı: "Kahramanmaraşda ucaldılan bu məhəllə təkcə tikinti layihəsi deyil, iki qardaş xalq arasında dəyişməz və sarsılmaz dostluğun, birlik və etimadın simvoludur. Biz yaxşı gündə də, çətin gündə də bir yerdəyik, bir-birimizin gücünü artırırıq. Bu gün Türkiyə-Azərbaycan qardaşlığı, birliyi nəinki bölgəmiz üçün, dünya miqyasında önəmli amildir, təhlükəsizlik, işbirliyi, inkişaf və qardaşlıq rəmzidir". Prezident Rəcəb Tayyib Ərdoğan isə Azərbaycanın göstərdiyi fədakar dəstəyi belə qiymətləndirdi: "Azərbaycan ilk dəqiqələrdən yanımızda idi. Bu məhəllə o qardaşlığın unudulmaz nişanəsidir. Biz bu mənəvi dəstəyi heç vaxt unutmayacağıq. Prezident Əliyevə və Azərbaycan xalqına təşəkkür edirəm".

"Azərbaycan" məhəlləsinin inşası Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlığın və "Bir millət, iki dövlət" fəlsəfəsinin real həyata keçən nümunələrindəndir. Təkcə siyasi və iqtisadi deyil, həm də humanitar və mədəni sahədə həyata keçirilən bu cür layihələr iki ölkənin ortaq gələcəyinə verilən dəyərin göstəricisidir. Azərbaycan verdiyi vədin ağası olduğunu sübut etdi. Dövlətimiz söz vermişdi ki, bu torpaqlarda həyat yenidən qurulacaq. "Azərbaycan" məhəlləsinin tikintisi rekord müddətdə başa çatdı. Hər daşında, divarında, qapısında, pəncərəsində bir qayğı, bir vəfa var. Bu binalar Azərbaycan xalqının qardaş türk xalqına olan bağlılığının simvoludur.

Əslində, Azərbaycan özü də eyni ağrını yaşamış ölkədir. Düşmən raketlərinə tuş gələn Gəncə, Bərdə, Tərtər kimi şəhərlərdə dağıntıların nə demək olduğunu, yaraların necə qanadığını xalqımız yaxşı bilir. Məhz buna görə Kahramanmaraşın acısını öz acımız bildik, gecə-gündüz çalışdıq, orada bir "kiçik Azərbaycan" qurduq, amma ruhən böyük bir dəyər yaratdıq. Bu həm də dünyaya bir mesajdı: biz təkcə savaşda deyil, quruculuqda da qardaşıq. Biz təkcə ağrıda deyil, sevincli sabahlarda da yanyanayıq.



Halbuki Azərbaycanın bir parçası olan Qarabağ və Şərqi Zəngəzur özü 4 ildən çoxdur nəhəng tikinti meydançasına çevrilib. 30 il işğal altında olan bu torpaqlarda da həyat yenidən doğulur. Şuşada azan səsi eşidilir, Füzulidə məktəblər, xəstəxanalar ucalır, Zəngilanda kəndlər yenidən qurulur, Ağdamda mədəniyyət ocağında musiqi sədaları ucalır. Azərbaycan dövləti öz gücü, iradəsi və xalqının dəstəyi ilə Qarabağı və Şərqi Zəngəzuru dirçəldir, dağıdılmış şəhərləri, yandırılmış kəndləri bərpa edir. Və bütün bu böyük işlərin fonunda ölkəmiz Türkiyənin dərdini də öz dərdi sayır, qardaş ölkənin yaralarını özünün hesab edir. O üzdən Azərbaycan bütün tikinti resurslarını Qarabağa yönəltdiyi bir vaxtda da Türkiyəyə yardım etməyi özünə borc bildi. Çünki bu münasibətin adı artıq siyasət deyil, qan qohumluğudur, qardaşlıqdır.

Əslində, belə sarsılmaz və dönməz münasibətin təməli Qarabağ savaşında qoyulub. 2020-ci ildə aparılan Vətən müharibəsi zamanı Türkiyə Azərbaycanın yanında təkcə siyasi yox, mənəvi bir dağ kimi dayandı. Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil" mesajı, türk xalqının duaları, dəstəyi, ürəkdən gələn qardaşlıq çağırışları hər bir azərbaycanlının yaddaşına həkk olundu. Müharibədən sonra Türkiyə bu dəstəyi real layihələrlə davam etdirdi. Qarabağda yolların çəkilişi, hava limanlarının tikintisində türk şirkətlərinin fəal iştirakı, təhsil və texnologiya sahəsində təklif olunan əməkdaşlıqların hər biri Türkiyənin "Biz buradayıq!" deməyinin real sübutudur.

Bu gün Kahramanmaraşda salınan "Azərbaycan" məhəlləsi ilə Qarabağda tikilməsi nəzərdə tutulan türk məktəbi arasında görünməz bir körpü var. Bu körpünün adı qardaşlıqdır. Və bu körpü hər gün bir az da möhkəmlənir. Onu nə məsafə, nə zaman, nə də gözü götürməyənlərin siyasi oyunları dağıda bilər. Çünki onun təməli Çanaqqalada, Sarıqamışda, Kəlbəcərdə, Laçında, Şuşada qoyulub, dayaqları Anadolunun və Qarabağın şəhid qanı ilə yoğrulub.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

---

# Türkiyədəki "Azərbaycan" məhəlləsi dostluq, qardaşlıq abidəsidir



**Ortaq tarix, mədəniyyət, dil və dini dəyərlər əsasında formalaşmış Azərbaycan-Türkiyə münasibətləri tarixin bütün sınaqlarından uğurla çıxaraq dünyaya qardaşlıq nümunəsini təqdim edir. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" çağırışı bütün dövrlərdə aktuallığını qorumaqla bərabər, bu əlaqələrin hər sahədə uğurlu inkişafına bələdçilik edir.**

Milli Məclisin deputatı Vüqar Rəhimzadə bildirib ki, bu günlərdə imzalanmasının 4 illiyini böyük qürur və coşqu hissi ilə qeyd etdiyimiz Şuşa Bəyannaməsi iki dost, qardaş, müttəfiq ölkənin münasibətlərinin dünəni, bu günü və gələcəyi barədə aydın təsəvvür yaradır. Bu bəyannamənin qəbulundan sonra hər il sənədin imzalanması günündə Qarabağın tacı Şuşanın evsahibliyi ilə keçirilən beynəlxalq konfranslar günümüzün əsas çağırışlarını özündə ehtiva etməklə yanaşı, iki dost ölkənin həmin məsələlərə birgə yanaşmasını, qarşıya qoyduğu hədəfləri açıqlayır.

Deputat qeyd edib ki, Azərbaycan-Türkiyə birliyi, həmrəyliyi regionda sabitliyin, təhlükəsizliyin qarantı kimi dəyərləndirilir. Hazırda dünya bu birliyin fonunda ümumilikdə türk dünyasının həmrəyliyinin şahididir. Yeni dünya düzəninin formalaşdığı hazırkı dövrdə bu birliyin daha da möhkəmləndirilməsinə, Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunun artmasına böyük ehtiyac var. Bu gün Türkiyə-Azərbaycan birliyi təkcə bölgə deyil, bütövlükdə Avrasiya üçün önəmli amilə çevrilib. Dövlət başçısı İlham Əliyevin çıxışlarında qeyd etdiyi kimi, Türkiyə bu gün dünya çapında söz sahibidir. Təkcə bölgəmizdə deyil, dünya çapında bir çox məsələlərin necə həll edilməsi Türkiyənin mövqeyindən asılıdır. Türkiyə regionda əmin-amanlığın, sülhün və işbirliyinin qarantıdır. Qardaş ölkənin güclü sənaye potensialı, güclü iqtisadiyyatı, o cümlədən hərbi gücü türk dünyasına mənsub olan hər bir insanı sevindirir. Təbii ki, Azərbaycan dost ölkənin nailiyyətlərinə öz uğurları kimi sevinir. İkinci Qarabağ müharibəsi zamanı da Türkiyə Azərbaycanın yanında idi. Bu, siyasi və mənəvi dəstək Azərbaycana yetərli oldu və 30 il ərzində danışıqlar vasitəsilə həll edə bilmədiyimiz tarixi məsələmizi savaş meydanında cəmi 44 gün ərzində həll etdik.

Deputat söyləyib ki, iki dost, qardaş ölkənin birgə siyasi iradəsi əsasında reallığa çevrilən enerji layihələri dünya ölkələrini, xalqlarını birləşdirir, yeni əməkdaşlıq formatlarının yaradılmasına stimul verir. Ölkəmiz Cənubi Qafqazın ən böyük enerji ixracatçısı kimi Türkiyə ərazisindən Avropa bazarına enerji tədarükündə mühüm mövqeyə malikdir. Xüsusilə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi layihələr iki ölkə arasında enerji sahəsində əməkdaşlığın təməl sütunlarına çevrildi. Bu layihələr təkcə iqtisadi baxımdan deyil, həm də regional siyasi sabitlik və enerji təhlükəsizliyi üçün strateji əhəmiyyət kəsb edir. 2020-ci ildən tam fəaliyyətə başlayan Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) isə Azərbaycanın təbii qazını Türkiyə vasitəsilə Avropaya çatdırmaqla Cənubi Qafqazı Avropa enerji bazarına birləşdirən əsas dəhlizə çevrilib. TANAP yalnız iqtisadi tərəfdaşlığı gücləndirməklə kifayətlənmir, həm də Avropanın enerji təhlükəsizliyi siyasətində Azərbaycanın və Türkiyənin rolunu əhəmiyyətli dərəcədə artırır. Bu tərəfdaşlığın daha bir nümunəsi isə İğdır-Naxçıvan qaz kəməri layihəsidir. Uzun illər Ermənistanın blokadada saxladığı Naxçıvan Muxtar Respublikası üçün bu kəmər həyati əhəmiyyət daşıyır. Azərbaycan və Türkiyə prezidentlərinin uzaqgörən siyasəti nəticəsində ərsəyə gələn bu layihə Naxçıvanın enerji təminatında yeni mərhələ açıb.

Deputat qeyd edib ki, Azərbaycan və Türkiyə şad günlərdə də, dar günlərdə də bir-birinin yanında olub. 2023-cü il fevralın 6-da Türkiyənin Kahramanmaraş şəhərində baş vermiş dəhşətli zəlzələ qardaş ölkə üçün növbəti sınaq oldu. Bu fəlakət Azərbaycanı da dərindən sarsıtdı. Xalqımız həmin ağır günlərdə qardaş Türkiyə xalqı ilə birgə faciənin ağrı-acısını bölüşdü, sonsuz kədərini birlikdə yaşadı. Bu dəhşətli zəlzələnin ilk dəqiqələrindən Azərbaycan xalqı və dövləti öz qardaşlıq borcunu yerinə yetirmək üçün bütün imkanlarını səfərbər etdi. Rəsmi Ankara qardaş dəstəyini yüksək dəyərləndirdi. Zəlzələnin bütün mənfi təsirlərinə, çətinliklərə baxmayaraq, Türkiyə bu problemin də öhdəsindən gəldi. Kahramanmaraşda yenidənqurma işləri başlandı. Azərbaycan dağıdıcı zəlzələnin nəticələrinin aradan qaldırılmasında da fəal iştirak etdi. Prezident İlham Əliyevin xüsusi tapşırığı ilə Azərbaycanın qardaş ölkəyə uzunmüddətli dəstəyi üçün Kahramanmaraşda "Azərbaycan məhəlləsi"nin inşasına start verildi. İyunun 19-da isə bu möhtəşəm layihənin açılış mərasimi keçirildi. İki qardaş prezidentin - cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilən mərasimdə böyük sevinc və qürur hissləri yaşandı: "İyunun 19-da Kahramanmaraşda ucaldılan Azərbaycan-Türkiyə dostluq abidəsi bu sarsılmaz qardaşlığın rəmzinə çevriləcək. Bu layihə təkcə bir tikinti layihəsi deyil, eyni zamanda Azərbaycan və Türkiyə qardaşlığının, ağır günlərdə bir-birinə dayaq olmağın, dostluq və həmrəyliyin əyani nümunəsidir. Azərbaycan-Türkiyə qardaşlığının əyani nümunəsi olan "Azərbaycan" məhəlləsi artıq ilk sakinlərini qəbul etdi. Azərbaycan və Türkiyə bu gün regionda və beynəlxalq müstəvidə bir-birinin ən etibarlı tərəfdaşı kimi çıxış edir. Gələcəkdə də bu strateji müttəfiqliyin daha da güclənəcəyini, ölkələrimizin türk dünyasının və regionun rifahı, sabitliyi və inkişafı naminə mühüm layihələrə imza atacaqlarını əminliklə söyləyə bilərik".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

---

# Azərbaycan-Türkiyə həmrəyliyinin yeni səhifəsi

## Birliyimiz 90 milyondan çox azərbaycanlı və türkün gücüdür

**"Dost çətin gündə tanınar. Yaxşı günlərdə özünü dost və qardaş kimi göstərən ölkələr bəzən biri bir az çətinliyə düşəndə kənara çəkildiyini görmüşük. Amma bundan fərqli olaraq Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı tarixin sınaqlarından çıxıb, özünü təsdiq edib. Bu, yüz illər əvvəl də belə olub. Hazırda dövlət başçılarımızın şəxsi dostluq və qardaşlıq münasibətləri üzərində belə davam etməkdədir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, yüz il əvvəl baş vermiş müharibədə Azərbaycan Türkiyənin yanında olub, Türkiyə də 107 il əvvəl ölkəmizə qardaşlıq dəstəyini göstərib. Mustafa Kamal Atatürkün "Azərbaycanın acısı acımız, sevinci sevincimizdir" müdrik kəlamı dillər əzbəri olub. Bu münasibətlərimizi yaşadığımız tarix daha da möhkəmləndirdi. İkinci dəfə müstəqilliyə qovuşmuş Azərbaycanın çətin günündə Türkiyə yenə də yanında oldu. 28 may 1992-ci ildə Azərbaycan və Türkiyənin sərhədində Araz çayı üzərində Ümummilli Lider Heydər Əliyev və Türkiyənin keçmiş baş naziri Süleyman Dəmirəlin açılış etdiyi "Ümid körpüsü" çətin dövrünü yaşayan naxıçıvanlıların ümid yerinə çevrildi. "Ümid körpüsu"nün açılışını gerçəkləşdirmək üçün Naxçıvana gələn Süleyman Dəmirəl bütün dünyanın diqqətini Türkiyə-Azərbaycan birliyinin sarsılmazlığına yönəldərək dedi: "Azərbaycan özünün ədalətli mübarizəsində tək deyil. Biz dünyanın Azərbaycan haqqında həqiqətləri bilməsi üçün özümüzdən asılı olan hər şeyi edirik və edəcəyik. Sizi əmin etmək istəyirəm ki, Türkiyə həmişə Azərbaycanla birlikdə olub və olacaq. Biz kədəri və sevinci birlikdə bölüşəcəyik".

Deputat qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı həyatda təsdiqləndi. Yenicə müstəqilliyə qovuşmuş Azərbaycanın karbohidrogen resurslarının dünya bazarlarına çıxarılmasında dostluq və qardaşlığımız yenə özünü göstərdi. Bakı-Tiblisi-Ceyhan neft və Bakı-Tiblisi-Ərzurum qaz kəmərləri Azərbaycanın müstəqilliyini möhkəmlətməklə yanaşı, Türkiyəyə də böyük gəlirlər gətirməyə başladı.

"27 sentyabr 2020-ci ildə başladığımız Vətən müharibəsində Türkiyənin ölkəmizin yanında olduğunu bəyan etməsi respublikamıza zillənən mənfur qüvvələrin müdaxiləsindən bizi qorudu. Türkiyə ölkəmizə mənəvi və siyasi dəstək verdi. Bu, haqq işimizi qısa zamanda görməyimizdə, Şuşada üçrəngli dövlət bayrağımızı dalğalandırmağımızda müəyyən rol oynadı. Qələbəmizi Bakıda qeyd edəndə sevincimizə şərik olan Türkiyə Prezidenti qələbə paradındakı çıxışında Bəxtiyar Vahabzadənin şeirini səsləndirərək Azərbaycan və Türkiyənin bir bədənin iki qolu olduğunu bəyan etdi", - deyə deputat bildirib.

A.Badamov xatırladıb ki, Qarabağda erməni separatçılarının yuvası hələ də qalmaqda davam etdiyi vaxtda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşaya səfər etdi və iki ölkə arasında müttəfiqlik haqqında tarixi Şuşa Bəyannaməsi imzalandı. Dövlət başçıları bu bəyannaməni imzalamaqla Azərbaycanla Türkiyənin hərtərəfli müttəfiq olduğunu dünyaya rəsmən bəyan etmiş oldu. Bu da Qarbağda separatçıların yuvasını darmadağın etməyimizdə bizə böyük mənəvi güc verdi.

Azərbaycanın torpaqlarını işğaldan azad etdikdən dərhal sonra yenidənqurma və bərpa işlərinə başladığını xatırladan deputat vurğulayıb ki, təbii ki, bu işlərin görülməsi üçün böyük maliyyə, güc və texniki imkanlar vacib idi: "Hətta maliyyə gücü olsa belə texniki imkanlara malik olmadan böyükhəcmli işləri görmək çox çətin idi. Türkiyə işğaldan azad olunmuş ərazilərin yenidən qurulub bərpası prosesində də yanımızda oildu. 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verildi və bu limanın açılışında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak etdi. Sonradan Zəngilan və Laçın hava limanlarının açılışlarını da dövlət başçıları bir yerdə etdilər. Bu il 28 May Müstəqillik Günümüzdə Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şəriflə bir yerdə Laçında keçirilən tədbirlərdə iştirak edən Prezident Ərdoğan çıxışında Səməd Vurğunun "Azərbaycan" şeirini səsləndirərək "Ayrılarmı könül candan, Azərbaycan-Türkiyə" deməklə bir daha dünyaya yeni bir mesaj səsləndirdi".

Deputat qeyd etdi ki, Türkiyədə faciəvi zəlzələ baş verəndə Azərbaycan "qardaş qardaşdan soruşmadan çətin gündə yanında olmalıdır", - deyib ilk yardım göstərən ölkə oldu. Xalqımız zəlzələdən əziyyət çəkənlərə yardım göndərilməsi üçün gücünü səfərbər etdi. Hətta bir kişi öz köhnə avtomobilinə evindəki yorğan-döşəyi yükləyərək yardım göstərməyə tələsdi. Bu məsələni Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin açılışında çıxış edən Prezident Ərdoğan bir daha dilə gətirdi. Zəlzələ dönəmində Prezident İlham Əliyevin tapşırığı ilə Fövqəladə Hallar Nazirliyi Türkiyəyə yardım edilməsi üçün dərhal hərəkətə keçdi. Fövqəladə Hallar Nazirliyinin əməkdaşları dağıntıların altından 53 nəfəri sağ çıxartdı, həkimlərimiz səhra hospitallarında 3200 insana tibbi yardım göstərdi. Azərbaycan bu faciəni öz acısı kimi qəbul edərək xilasetmə və bərpa işlərində yaxından iştirak etdi.

A.Badamov bildirib ki, Azərbaycan qarşısında işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması kimi vacib bir vəzifə dayanmasına baxmayaraq, Türkiyədə zəlzələ nəticəsində dağılmış Kahramanmaraş şəhərinin yenidən qurulmasında da yaxından iştirak etməyi özünə borc bildi. "İyunun 19-da Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan zəlzələ nəticəsində dağılmış şəhərlərin açılışı mərasimində iştirak etdilər. O cümlədən "Azərbaycan" məhəlləsində tikilmiş mənzillərin açarları da sakinlərə təqdim olundu. Azərbaycan qısa zaman kəsiyində Kahramanmaraşda 1200-dən çox türkiyəli bacı-qardaşlarımızın yaşaması üçün müasir binalardan ibarət məhəllə saldı. Bu məhəllədə bütün sosial infrastruktur yaradıldı ki, bu da zəlzələdən əziyyət çəkmiş insanların firavan yaşamaları üçün qardaş yardımımız oldu", - deyə deputat əlavə edib.

Onun sözlərinə görə, 19 iyun Azərbaycan-Türkiyə qardaşlığının yeni bir səhifəsidir: "Biz bir daha dünyaya sübut etdik ki, "Bir millət, iki dövlət" olaraq kədərli və sevincli günlərdə bir yerdəyik. Gücümüz 90 milyondan çox azərbaycanlı və türkün gücüdür. Gücümüz Türkiyənin və Azərbaycanın siyasi, iqtisadi və hərbi gücüdür. Biz bir yumruq olaraq gələcəkdə də haqqı müdafiə etməyə, regionda sabitlik və əməkdaşlığın yaradılmasına və daha çox məsələləri həll etməyə qadirik. Dövlət başçılarının davam etdirdiyi bu yol gələcək nəsillər üçün bir örnəkdir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Mərkəzi Seçki Komissiyasında

# Növbəti iclas



**İyunun 20-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə komissiyanın mayın 30-da keçirilən iclasının protokolu təsdiq olunub.

Sonra bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi məsələsinə baxılıb. Aparılan müzakirələrin ardınca 46 saylı Sumqayıt beşinci, 47 saylı Sumqayıt-Abşeron-Qaradağ, 65 saylı Salyan-Biləsuvar-Saatlı, 102 saylı Şəmkir şəhər, 108 saylı Ağstafa və 118 saylı Ağdam-Xocalı seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunmasına qərar verilib.

Media nümayəndələri tərəfindən geniş işıqlandırılan iclasda, həmçinin cari məsələlərə də baxılıb.

### QƏRAR № 17/74

## Mərkəzi Seçki Komissiyasının 2025-ci il 30 may tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2025-ci il 30 may tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*20.06.2025*

### QƏRAR № 17/75

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Həsən Hüseyn oğlu İsmayılov 102 saylı Şəmkir şəhər, Yusifəli Məhəmmədəli oğlu Kərimov 108 saylı Ağstafa seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.
2. Elman Ağamalı oğlu İlyasov 46 saylı Sumqayıt beşinci, Elçin Balakişi oğlu Yarıyev 47 saylı Sumqayıt – Abşeron – Qaradağ, Vüqar Tofiq oğlu Hacıyev və Yusif İsmayıl oğlu Nəsibov 108 saylı Ağstafa, Zeynal Xəlil oğlu Zeynalov 118 saylı Ağdam – Xocalı seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*20.06.2025*

# Sankt-Peterburqda MDB xəbər agentliklərinin iclası keçirilib



**Sankt-Peterburqda MDB Dövlət Xəbər Agentlikləri Rəhbərləri Şurasının (İnformşura) 33-cü iclası keçirilib.**

Görüşdə AZƏRTAC, TASS (Rusiya), Belta (Belarus), Kabar (Qırğızıstan), Kazinform (Qazaxıstan), UzA (Özbəkistan) və Xovar (Tacikistan) agentliklərinin rəhbərləri və nümayəndələri iştirak ediblər.

Rusiyanın TASS xəbər agentliyinin təşkilatçılığı ilə keçirilən toplantıda faşizm üzərində Qələbənin 80 illiyi, turizm və xəbər mübadiləsi ilə bağlı informasiya layihələri nəzərdən keçirilib.

Görüşdə bu il Azərbaycanda keçiriləcək III MDB Oyunlarına hazırlıq barədə iştirakçılara ətraflı məlumat verilib. Bildirilib ki, oyunların keçiriləcəyi Gəncə və digər şəhərlərdə media nümayəndələri üçün lazımi şərait yaradılıb. AZƏRTAC tərəfindən də geniş işıqlandırılacaq idman yarışlarından informasiyaların tərəfdaş agentliklərə təqdim ediləcəyi qeyd olunub.

# Baş prokuror Gədəbəy rayonunda vətəndaşları qəbul edib



İyunun 20-də baş prokuror Kamran Əliyev Gədəbəy Rayon Prokurorluğunun inzibati binasında Gədəbəy, Daşkəsən, Şəmkir, Tovuz, Ağstafa, Qazax rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib. Qəbulda iştirak edən 57 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

# Əmək və əhalinin sosial müdafiəsi naziri Zaqatalada vətəndaşların müraciətlərini dinləyib

**Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Zaqatala rayonunda Zaqatala və Balakən rayonları sakinlərinin müraciətlərini dinləyib.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə Anar Əliyev və Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Həmin gün vətəndaşlar məşğulluq, əlillik, reabilitasiya, mənzil təminatı, ünvanlı sosial yardım və digər məsələlərlə bağlı müraciət ediblər. Müraciət edənlər sırasında şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları da olub.

Hər bir müraciət fərdi qaydada araşdırılıb və nəticəsinə uyğun tədbirlər görülüb.

Sorğu xarakterli müraciətlərlə bağlı qanunvericiliyə uyğun izahatlar verilib. Vətəndaşlar müraciətləri əsasında aktiv məşğulluq proqramlarına, habelə özünüməşğulluq proqramına cəlb edilmələri üçün qeydiyyata alınıblar.

# Vaxtilə işğalda olan Azərbaycan ərazilərinin “Ermənistana birləşdirilməsi” niyyəti məhkəmədə ifşa olunub

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyunun 20-də davam etdirilib.**



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə iclasında 2007-2020-ci illərdə vaxtilə Ermənistan tərəfindən işğal edilmiş Azərbaycanın suveren ərazilərində yaradılmış qondarma qurumun “rəhbəri” olmuş Bako Sahakyan dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandırıb.

Təqsirləndirilən şəxs bildirib ki, 2007-ci ildə qondarma rejimin “müdafiə naziri” Seyran Ohanyan olub. O, daha sonra Ermənistan Respublikası silahlı qüvvələrinin baş qərargah rəisi təyin edilib. Onu qondarma rejimdə general Movses Akopyan əvəzləyib. Daha sonra M.Akopyan Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi vəzifəsinə təyin edilib. Bu dəfə qondarma rejimdə “müdafiə naziri vəzifəsi”ni Levon Mnatsakanyan tutub. Ondan sonrakı ardıcıllıq belə olub: Karen Abrahamyan, Cəlal Harutyunyan və Mikael Arzumanyan.

Təqsirləndirilən şəxs deyib ki, qondarma rejimdə “müdafiə naziri” və “ordunun komandanı” “vəzifələri” eyni olub və onu bir şəxs tutub.

B.Sahakyan bildirib ki, qondarma qurumun “rəhbərliyinin” “silahlı qüvvələr” üzərində səlahiyyəti olmayıb.

O, qondarma rejimin “rəhbəri” olduğu dövrdə Ermənistan müdafiə nazirlərinin, silahlı qüvvələrin baş qərargah rəislərinin Azərbaycanın vaxtilə işğalda olan suveren ərazilərinə səfərlər etdiklərini və onunla görüşdüklərini bildirib.

Məhkəmədə B.Sahakyanın 2015-ci ildə səsləndirdiyi və Ermənistan mətbuatında dərc edilmiş fikirləri elan olunub. Tədqiq olunan sənədə əsasən, B.Sahakyan bildirir: “Biz sonda Ermənistanla birləşməyə can atırıq. Biz bu böyük istəklə yaşayırıq, lakin vaxt hələ çatmayıb”.

Tədqiq olunan sənədlə bağlı təqsirləndirilən şəxs prokurorun sualına cavabında bu cür ifadələr işlətdiyini təsdiqləyib. O deyib: “Mən onu bildirmişəm ki, vaxt gələcək daha əlverişli şərait olanda biz bu biri məqsədimizi (Azərbaycanın vaxtilə işğalda olan ərazilərinin Ermənistana birləşdirilməsi ideyasını nəzərdə tutur – red.) də həyata keçirəcəyik”.

Əsir və girov götürülmüş azərbaycanlılarla bağlı sualları cavablandıran B.Sahakyan bildirib ki, müharibənin ilk illərində - 1994-cü ilədək həmin şəxslərin bir hissəsi erməni komandirlərin yanında saxlanılırdı. O iddia edib ki, qondarma rejimdə “qurumlar” formalaşdırıldıqdan sonra əsir və girovlara işgəncə verilməsi, qeyri-insani rəftar edilməsi hallarının sayı azalıb və sonra, ümumiyyətlə, olmayıb.

O, qondarma rejim üçün silahların Ermənistan silahlı qüvvələri tərəfindən təmin edildiyini bildirib və qondarma rejimin “ordusunun” arsenalında “İsgəndər M”, “Toçka U” və digər bu kimi dağıdıcı raketlərin olmadığını söyləyib.

Təqsirləndirilən şəxs Şuşada hava hücumundan müdafiə hərbi hissələrindən birinin, o cümlədən “S-300” raket kompleksinin yerləşdirildiyini etiraf edib. O deyib ki, həmin raketlərin yerləşdirilməsi üçün onun razılığının alınması tələb olunmayıb, sadəcə, “yerli idarəetmə orqanları” bu məsələ ilə bağlı razılıq veriblər.

B.Sahakyan ifadəsində 2016-cı ildə baş vermiş, şərti olaraq Aprel döyüşləri adlandırılan hadisələr barədə suallara cavabında həmin vaxt əməliyyatlara kimlərin rəhbərlik etdiyini açıqlayıb. Məlum olub ki, həmin vaxt Ermənistan tərəfdən əməliyyatlara Ermənistanın müdafiə naziri general-polkovnik Seyran Ohanyan, Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi general-polkovnik Yuri Xaçaturov və Ermənistan silahlı qüvvələrinin ən böyük silahlı birləşməsinin - qondarma rejimin “ordusunun komandanı” general-leytenant Levon Mnatsakanyan rəhbərlik edib.

O, hadisə baş verən vaxt onunla ilk əlaqə saxlayanlardan birinin Ermənistanın müdafiə naziri Seyran Ohanyan olduğunu deyib və əlavə edib: “Eləcə də onların “müdafiə ordusu”ndan (Ermənistan silahlı qüvvələrinin ən böyük silahlı birləşməsi, yəni qondarma rejimin “ordusu” nəzərdə tutulur – red.) operativ məlumatlar alırdım. Həmin dövrdə yaranmış bir neçə məsələni qeyd etdim. Eyni zamanda ərazidəki vəziyyətlə bağlı təcili tibbi yardım məsələsini gündəmə gətirdim. Bildirdim ki, çox sayda yaralılar var və əlavə tibbi yardım maşınlarına ehtiyacımız var. O, (Seyran Ohanyan – red.) mənə telefon vasitəsilə bildirdi ki, az sonra səninlə Ermənistan Respublikasının baş naziri əlaqə saxlayacaq”.

Təqsirləndirilən şəxs bir qədər sonra Ermənistanın baş naziri Ovik Abraamyanla, ardınca digər vəzifəli şəxslərlə danışdığını deyib və əlavə edib: “Daha sonra müxtəlif nazirlərdən və səlahiyyətli şəxslərdən məlumatları almışdım. Müəyyənləşdirmişdik ki, bizim üçün hansı ilkin zərurət malları lazımdır. Bir qayda olaraq onlar mənim xahişlərimi təmin edirdilər”.

B.Sahakyan Aprel döyüşləri zamanı Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Yuri Xaçaturovla da danışdığını söyləyib.

Təqsirləndirilən şəxs Aprel döyüşlərinin nəticələri ilə bağlı Ermənistanın və qondarma rejimin birgə müzakirələr apardığını deyib.

Məhkəmədə tədqiq olunan növbəti sənəd mediada paylaşılmış məlumatla bağlı olub. Həmin məlumatda bildirilir ki, Bako Sahakyan Aprel döyüşləri ilə bağlı Ermənistan Milli Assambleyasında yaradılmış istintaq komissiyasının iclasında iştirak etməyə razılıq verib.

Dövlət ittihamını müdafiə edən prokurorun sualını cavablandıran təqsirləndirilən şəxs məlumatı təsdiqləyib. O bildirib ki, Aprel döyüşlərindən sonra Ermənistanda istintaq komissiyası yaradılıb. Komissiyanın sədri Ermənistan parlamentinin Müdafiə və təhlükəsizlik məsələləri daimi komissiyasının sədri Andranik Koçaryan olub: “Bu komissiyanın iclasında müxtəlif suallara hərbçilər və qeyri-hərbçilər cavab veriblər. O komissiya mənə təklif göndərdi. Çünki onlar məni komissiyanın iclasında iştiraka məcbur edə bilməzdilər”.

Təqsirləndirilən şəxs istintaq komissiyasının suallarını əhatəli şəkildə cavablandırdığını bildirib.

B.Sahakyan Azərbaycan ərazilərində baş vermiş döyüşlərlə bağlı istintaq komissiyasının niyə Ermənistanda təşkil olunmasının səbəbini belə izah edib: “İstintaq komissiyasının Ermənistan Milli Assambleyasında yaradılması normal idi. Çünki söhbət Ermənistan silahlı qüvvələrinin keçirdiyi əməliyyatdan gedirdi”.

Məhkəmədə tədqiq edilən növbəti sənəd B.Sahakyanın 2019-cu ilin dekabr ayında Ermənistanın baş naziri Nikol Paşinyanla birlikdə həmin vaxt Azərbaycanın işğalda olan ərazilərində qoşunlara baş çəkməsi, hərbçilərlə görüşü, onların məişət şəraiti ilə tanış olması barədə olub.

Təqsirləndirilən şəxs prokurorun sualına cavabında N.Paşinyanın Azərbaycanın həmin vaxt işğalda olan ərazilərində hərbçilərlə görüşünü Ermənistan baş nazirinin Ermənistan silahlı qüvvələrinin əsas şəxsi olması ilə izah edib və deyib: “Bu cür səfərlərin böyük əksəriyyətində silahlı birləşmələrə də səfərlər olurdu”.

B.Sahakyan ifadəsində Azərbaycana qarşı döyüşənlər arasında xarici vətəndaşların olduğunu təsdiqləsə də, onların muzdlu olmadığını iddia edib. O əlavə edib ki, həmin şəxslər Azərbaycanın həmin vaxt işğalda olan ərazilərinə Ermənistan vasitəsilə gəliblər. Həmin şəxslərin hansı ölkə vətəndaşları olması barədə suala isə B.Sahakyan belə cavab verib: “Onların ölkələrinin coğrafiyası geniş idi, Yaxın Şərqdən Kanadaya qədər”.

Təqsirləndirilən şəxs qondarma qurumun “rəhbəri” olduğu dövrdə ərazilərin minalanması barədə sualı da cavablandırıb. Deyib ki, minalanma işləri aparanlar bununla bağlı ona məlumat verməyə borclu olmayıblar.

“Onların borcu deyildi ki, bu işləri görməzdən əvvəl və ya sonra mənə məlumat versinlər. Çünki bu, təsdiqlənmiş işlər planı çərçivəsində həyata keçirilirdi”, - deyə o əlavə edib.

Təqsirləndirilən şəxs Azərbaycanın Ermənistan tərəfindən işğalda olmuş ərazilərində təbii sərvətlərin qanunsuz istismarı ilə bağlı sualları da cavablandırıb.

Bildirib ki, Kəlbəcərdə qızıl yatağının istismarı ilə məşğul olan şirkətlə münasibətləri olmayıb: “Biz bilirdik ki, orada Ermənistanda qeydiyyatdan keçmiş şirkət fəaliyyət göstərir”.

Təqsirləndirilən şəxs dağ-mədən sənayesi üzrə şirkətin fəaliyyətə başlaması barədə təklifin onlarda böyük ruh yüksəkliyi yaratdığını söyləyib: “Çünki söhbət genişmiqyaslı sərmayələrdən gedirdi”.

B.Sahakyan “Qarabağ Telekom” şirkətinin livanlı iş adamının ayırdığı böyük sərmayələr hesabına yaradıldığını söyləyib.

O, 2020-ci il iyulun 12-də baş vermiş Tovuz döyüşləri barədə səthi məlumatı olduğunu bildirib.

Həmin il sentyabrın 27-də başlamış 44 günlük müharibə zamanı “sabiq rəhbər” kimi “hərbi əməliyyatların dayandırılması” istiqamətində müxtəlif müzakirələrdə iştirak etdiyini bildirib: “İmkanlarım daxilində çalışırdım ki, faydalı olum. Bu cür müzakirələr çərçivəsində Arayik Harutyunyanla görüşürdük”.

Bu zaman məhkəmədə növbəti sübut tədqiq edilib. Sənədə əsasən, qondarma rejimin və Ermənistanın keçmiş prezidentləri görüşüblər. Görüşən şəxslərə Levon Ter-Petrosyan, Robert Köçəryan, Serj Sarkisyan, Arkadi Qukasyan və Bako Sahakyan daxildir.

Bako Sahakyan prokurorun sualına cavabında deyib: “Bizim (özünü və Arkadi Qukasyanı nəzərdə tutur – red.) Qarabağda Ermənistanda sabiq prezidentlər Robert Köçəryan və Serj Sarkisyanla görüşümüz olub. Biz Nikol Paşinyanla da görüşmüşük. Bu görüş 2021-ci ilin mart ayında olub”.

Məhkəmədə növbəti sənədin tədqiqi 2022-ci il sentyabrın 20-də Ermənistan vətəndaşı, hazırda Azərbaycanda çoxsaylı cinayətlərə görə təqsirləndirilən Ruben Vardanyanın Arkadi Qukasyan və Bako Sahakyanla görüşü ilə bağlı olub. Görüşdə bir sıra məsələlər, o cümlədən qondarma rejimin “təhlükəsizliyi”, “Qarabağın erməni torpağı kimi qalması” və “inkişafı” müzakirə olunub.

B.Sahakyan prokurorun “qondarma rejimin erməni torpağı kimi qalması” ilə bağlı sualını da cavablandırıb. O deyib ki, “bu məsələ müxtəlif dövrlərdə strateji məqsədlərimizdən biri olub”. Əlavə edib ki, “erməni torpağı kimi qalması” deyərkən qondarma rejimin “öz mövcudluğunu davam etdirməsi”, növbəti dövrdə isə “Ermənistana birləşdirilməsi” nəzərdə tutulub.

Məhkəmə prosesi iyunun 21-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə ermənisilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# İqtisadiyyat və sosial həyat

## Azərbaycana Çinin Çjentszyan əyalətindən tranzitlə Türkmənistandan keçən yükdaşıma marşrutu açılıb

**Çinin şərqində yerləşən Çjentszyan əyalətinin Tszinxua şəhərindən Türkmənistanın Türkmənbaşı limanına ilk yük qatarı yola salınıb.**

AZƏRTAC Türkmənistan Nazirlər Kabineti yanında Nəqliyyat və Rabitə Agentliyinə istinadla xəbər verir ki, geyim, aksesuarlar, metal hissələr və digər malların olduğu 100 standart konteynerlə yüklənmiş qatar Türkmənbaşı limanına gələcək.

Qatar Çin-Qazaxıstan sərhədini Xorqos keçid məntəqəsindən, daha sonra Almatı, Daşkənd və Aşqabad kimi iri şəhərlərdən keçəcək.

Konteynerlər daha sonra su yolu ilə Xəzər dənizi vasitəsilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanına çatdırılacaq.

Gözlənilir ki, yeni nəqliyyat marşrutu Aktau limanından Bakıya qədər logistika xəttində yükü azaldacaq və Çin mallarının Mərkəzi Asiya, Mərkəzi və Şərqi Avropa bazarlarına tədarükünü sürətləndirəcək.

## Taxıl zəmilərindən 900 min tondan artıq məhsul yığılıb

### Ölkə üzrə arpa sahələrinin 55 faizində biçin yekunlaşıb

**Kənd Təsərrüfatı Nazirliyində biçinin mütəşəkkil təşkilinə dair yaradılmış Operativ Qərargahın məlumatına görə, ölkə üzrə taxıl sahələrinin 30 faizində biçin prosesi başa çatıb.**



Buğda sahələrinin 8,6 faizi, arpa sahələrinin isə 55,3 faizi biçilib. Buğda üzrə orta məhsuldarlıq 34.7 sent/ha, arpa üzrə orta məhsuldarlıq isə 32 sent/ha təşkil edir. Taxıl üzrə orta məhsuldarlıq göstəricisi ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,2 sent/ha çoxdur.

Bu günədək sahələrdən 904 min ton məhsul yığılıb. Hazırda respublikanın 50 rayonunda aktiv biçin prosesi gedir. Biçinə 1534 kombayn cəlb olunub. Kombaynlardan 585-i "Aqroservis" ASC-nin, 949-u isə fiziki və hüquqi şəxslərə məxsus texnikalardır.

Artıq Ağdam, Bərdə, Füzuli, Cəlilabad, Lənkəran, Neftçala, Saatlı, Sabirabad, Salyan və Yevlax rayonlarında arpa biçini tam yekunlaşmaq üzrədir. Bu rayonlar üzrə arpa sahələrinin 90 faizindən çoxunda biçin başa çatıb. Bir çox rayonlarda isə arpa biçini ilə paralel buğda biçininə də start verilib. Hazırda ən çox buğda biçini Yevlax (86%) və Masallı (33%) rayonlarında aparılıb.

Qeyd edək ki, biçin prosesi növbəlilik prinsipi əsasında aparılır. Biçin prosesinin başlamadığı rayonlarda olan kombaynlar əvvəlcədən tələbata uyğun olaraq hazırlanmış dislokasiya planı əsasında aktiv biçin bölgələrinə göndərilir. Bu mexanizm kombayna olan tələbatın ödənilməsini, məhsulun vaxtında və itkisiz yığımını təmin edir.

Respublikada gələn həftədən başlayaraq buğda sahələrində kütləvi biçinə start veriləcək. Ümumilikdə biçin prosesinin optimal müddətdə başa çatdırılması proqnozlaşdırılır.

## Dünya birjalarında neft ucuzlaşıb

### Azərbaycan neftinin qiyməti isə 82 dolları ötüb

**Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 2,14 dollar azalaraq 76,71 dollar olub.**



Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,14 dollar azalaraq 75 dollar təşkil edib.

"Azeri Light" markalı neftin bir barelinin qiyməti isə 3,41 dollar və ya 4,31 faiz artaraq 82,58 dollar olub. Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

## Yerli şirkətlərin tanıtım sərgisi: milli iqtisadiyyatın inkişafı üçün əlavə vasitə

**Azərbaycanda sahibkarlığın inkişafı istiqamətində görülən tədbirlər çərçivəsində yerli məhsulların tanıdılması üçün atılan addımlar son illər daha da güclənmişdir. Bu təşəbbüslərin ən önəmlilərindən biri də artıq 6-cı ildir keçirilən "Yerli şirkətlərin tanıtım sərgisi"dir. Hər il yüzlərlə yerli şirkəti bir araya gətirən bu platforma həm milli iqtisadiyyatın güclənməsində müəyyən rol oynayır, həm də yerli brendlərin tanıdılmasına mühüm töhfə verir.**




Yerli məhsul və xidmətlərin geniş auditoriyaya təqdim olunmasına şərait yaradan bu platforma ölkədə istehlak mədəniyyətinin formalaşması və "Made in Azerbaijan" brendinin gücləndirilməsi yönümündən də əhəmiyyətlidir. Danılmaz faktdır ki, sahibkarlıq zəhmətin, innovasiyanın və milli iqtisadiyyatın dayağıdır. Bu baxımdan "Bakı-Ekspo" Mərkəzində keçirilən növbəti sərgi yerli şirkətlərin məhsul və xidmətlərini geniş ictimaiyyətə tanıdılmasından dolayı, istehlakçılar və iş adamları üçün lazımlı tədbirdir.

Sərgi Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Marsol Group tərəfindən təşkil olunub. Bu il sərgidə ölkənin müxtəlif bölgələrindən olan təqribən 300 yerli şirkət iştirak edir. Təqdim edilən məhsul və xidmətlərə qida sənayesi, kənd təsərrüfatı, tikinti və inşaat, tekstil, informasiya texnologiyaları, logistika, təhsil, gözəllik, kosmetika brendləri və digər sahələr daxildir. İKT və texnologiya şirkətləri, tikinti və inşaat materialları istehsalçıları, eləcə də yerli startaplar və innovativ təşəbbüslərə daxil olan kiçik, orta və böyük müəssisələrin sərgilənməsi sərginin zənginliyindən xəbər verir. Bu müxtəliflik Azərbaycanda sahibkarlıq sisteminin dinamikliyini və inkişaf potensialını nümayiş etdirir.

Sərgi çərçivəsində şirkətlər yalnız məhsullarını nümayiş etdirməklə kifayətlənmir, həmçinin bir sıra yeni müqavilələr imzalayır və tərəfdaşlıqlar qururlar. Tədbirdə keçirilən müxtəlif seminarları, təqdimatları və təlim sessiyalarını da əlavə etsək, mənzərə aydın olur. Çox sayda yerli şirkətin iştirak etdiyi sərgi həm də dövlət qurumları, investorlar və biznes assosiasiyaları üçün yerli sahibkarlığın real mənzərəsini görmək və yeni layihələrə dəstək vermək üçün fürsət yaradır. Çünki bu tədbir sadəcə sərgi deyil, həm də yerli iqtisadi inkişafın simvolu və sahibkarların uğur platforması kimi tanınır.

Əvvəlkilərdən fərqli olaraq budəfəki sərgidə texnoloji yenilikləri, yeni brendləri, ekoloji təmiz və dayanıqlı istehsalı özündə əks etdirən şirkətlərin iştirakına daha çox üstünlük verilib. Bu da sərginin daha müasir tendensiyalara uyğun təşkil olunmasına, həmçinin innovativ texnologiyaların geniş auditoriyaya tanıdılmasına imkan yaradıb. Sərgidə ziyarətçilər texnologiya sahəsindəki son nailiyyətlərlə tanış olmaqla yanaşı, yerli istehsalın keyfiyyət və rəqabət qabiliyyətini də yaxından müşahidə edə bilirlər. Sərgi çərçivəsində ilk dəfə olaraq mikro və kiçik sahibkarların iri şirkətlərlə əlaqələrinin genişləndirilməsi, onların təchizat zəncirində iştirakının artırılması üçün KOB-ların iri şirkətlərin rəhbərləri ilə B2B formatlı görüşlərinin təşkili həyata keçirilib.

İlk növbədə yerli brendlərin tanıdılmasına və inkişafına şərait yaradan sərgidə istehsalçı şirkətlər öz məhsullarını nümayiş etdirməklə yanaşı, müştəri rəylərini birbaşa almaq imkanı da qazanırlar ki, bu da onları fəaliyyətlərində keyfiyyəti artırmağa sövq edir. Sərgi həmçinin investorlar üçün maraqlı platforma rolunu oynayır. "Bakı-Ekspo" Mərkəzinə məhsul və xidmətlərini çıxaran yerli şirkətlərin potensialı və bazardakı mövqeyi xarici investorların da diqqətini cəlb edir. Bütün bunlar o deməkdir ki, sərgi təkcə tanıtım məqsədi daşımır, o həm də iqtisadi əməkdaşlıq və investisiya imkanlarının müzakirə olunduğu məkandır.

Son illər keçirilən sərgilərdə ekoloji təmiz, dayanıqlı və sosial məsuliyyətli istehsala üstünlük verilməsi bu tədbirlərin cəmiyyətə və ətraf mühitə olan töhfəsi ilə yanaşı, həm də ölkədə "yaşıl iqtisadiyyat" prinsiplərinin təşviqinə xidmət deməkdir. Bəllidir ki, iqlim dəyişmələri, təbii resursların tükənməsi və ətraf mühitin çirklənməsi XXI əsrin əsas problemlərindəndir. Belə problemlərin qarşısını almaq üçün bir çox ölkələr "yaşıl iqtisadiyyat" modelinə keçidi prioritet hesab edir. Bu yöndən ekoloji cəhətdən təmiz məhsul və texnologiyaların nümayiş olunması üçün sərgi əla platformadır. Ziyarətçilər üçün şirkətlər sərgidə enerji cəhətdən səmərəli qurğular, bərpaolunan enerji mənbələri ilə işləyən texnologiyalar, təkrar emal prosesləri, "yaşıl qablaşdırma" və istehsal üsulları ilə tanışlıq imkanı yaradırlar. İctimai maarifləndirmə baxımından da əhəmiyyətli olan sərgidə ziyarətçilər "yaşıl texnologiyalar"la tanış olur, ekoloji təmiz məhsulların gündəlik həyatda tətbiqi haqqında məlumat əldə edir və ətraf mühitə zərəri az olan alternativ məhsulları tanıyırlar. Bu isə bütövlükdə cəmiyyətin "yaşıl iqtisadiyyat"a keçid prosesinə adaptasiyasını asanlaşdırır.

Yerli şirkətlərin 6-cı tanıtım sərgisi əvvəlkilərlə müqayisədə həm iştirakçıların sayı, həm də əhatə dairəsindən dolayı üstündür. Bu da qarşıdakı illərdə iştirakçıların sayının artmasına yol açır. Məsələn, gələn il iştirakçı şirkətlərin sayı 500-ə çata bilər. "Made in Azerbaijan" brendinin təşviqi çərçivəsində xarici investorlar və beynəlxalq distribüterlər dəvət olunarsa, sərgi əhəmiyyətli dərəcədə diqqət çəkər. Gələcəkdə sərginin həm canlı, həm də onlayn platformalarda keçirilməsi də yaxşı nümunə olardı.

Bundan başqa, KOBİA və digər təşkilatların dəstəyi ilə regionlarda da analoji tədbirlər keçirmək mümkündür. Məsələn, Gəncə, Lənkəran, Mingəçevir, Şəki, İsmayıllı və Sumqayıtda yerli istehsal yarmarkaları, mikro və kiçik sahibkarlar üçün tanıtım günlərinin keçirilməsi biznesmenlərə böyük stimul verər. Bütün bunlar imkan verər ki, yaxın gələcəkdə "Yerli şirkətlərin tanıtım sərgisi" ölkə üzrə yayılmış biznes platformasına çevrilsin.

Amma elə indi də bu platforma sahibkarlığın güclənməsinə, yeni bazarların açılmasına və ölkə daxilində istehsal mədəniyyətinin təşviqinə mühüm dəstək verir. Sərginin davamlı şəkildə keçirilməsi onun həm biznes strukturları, həm də ümumilikdə milli iqtisadiyyat üçün əvəzolunmaz əhəmiyyət daşıdığını təsdiqləyir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Orta dəhliz İsrail-İran müharibəsi fonunda

### Yaxın Şərqdəki gərginlik bu marşrutun əhəmiyyətini bir daha göstərdi

**İsrail-İran müharibəsi dünya enerji bazarında onsuz da mürəkkəb olan vəziyyəti daha da gərginləşdirib. Dünya üzrə hasil olunan neftin 20 faizinin daşındığı Fars körfəzi təhlükəli əraziyə çevrilib. İran başqa dövlətlərin də İsrail tərəfindən müharibəyə qoşulacağı halda Hörmüz boğazını minalayaraq bağlayacağını gizlətmir. Xatırladaq ki, Hörmüz boğazı Fars körfəzindən Omma körfəzinə keçən ən dar keçiddir.**




Üstəlik, bu müharibə uzanarsa, regiondan keçməsi nəzərdə tutulan iki ticarət marşrutunun tikintisi də əngəllənə bilər. O ticarət marşrutları ki, indiki çətin geosiyasi zamanda iri ticarət ölkələrinə hava və su kimi lazımdır. Çünki Amerika bu gün bütün dəniz ticarətinə nəzarət edir. Belə vəziyyət ilk növbədə Çini qane etmir - Amerika istədiyi vaxt ÇXR-in dəniz ticarətinə əngəl yarada bilər. O üzdən Çin özünün məşhur "Bir kəmər, bir yol" layihəsini irəli sürüb. Bu nəhəng marşrutun əsas qolu indi Orta dəhliz adlanır. Hazırda bu marşrut dünya ticarətində getdikcə önəmli rol oynamağa başlayıb. Burada əsl sıçrayışın 2030-cu ildə olacağı gözlənilir. Həmin dövrdə dəhliz vasitəsilə yüklərin daşınmasının 25-30 milyon tona çatdırılması planlaşdırılır.

Ancaq ABŞ də dinc durmur, Orta dəhlizə nəzarət edə bilmədiyi üçün nəzarətində olacaq yeni marşrutların yaradılmasına çalışır. Belə layihələrdən biri Hindistan, BƏƏ, Səudiyyə Ərəbistanı, İordaniya və İsrail üzərindən keçən (IMEC) marşrutdur. Məlum olduğu kimi, son dövrlər Hindistan iqtisadiyyatı sürətlə böyüyür. Hazırda bu ölkə məhsul istehsalına görə dünyada 5-cidir. Təbii ki, istehsal artdıqca ixracın coğrafiyası və həcmi də genişlənir. Hindistanla Çinin münasibətləri isə heç də ürəkaçan deyil. Aralarında ərazi mübahisəsi və bir çox anlaşılmazlıqlar var. O səbəbdən Hindistan beynəlxalq bazara, xüsusən alıcılıq qabiliyyəti yüksək olan Avropaya çıxışını Çindən asılı vəziyyətə salmaq istəmir və alternativ marşrutların axtarışındadır. Bu marşrutlardan biri də Amerikanın nəzarətində olacaq İMEC layihəsidir. Amma bir iş də var ki, İsrail-İran müharibəsi uzanarsa, bu yeni qlobal ticarət dəhlizinin yaranması təhlükə altında olacaq.

Politoloq Şahin Cəfərli deyir: "İMEC-in iki ayrı dəhlizdən ibarət olması nəzərdə tutulur - Hindistanı Fars Körfəzi ilə birləşdirəcək Şərq dəhlizi və Fars Körfəzini Avropa ilə birləşdirəcək Şimal dəhlizi. İdeya bundan ibarətdir ki, mövcud dəniz və avtomobil nəqliyyatı marşrutlarını tamamlayacaq transsərhəd gəmi-dəmir yolu tranzit şəbəkəsi yaradılsın, dəmir yolu marşrutu boyunca elektrik enerjisi və internet kabelləri, eləcə də təmiz hidrogen ixracı üçün borular çəkilsin".

İsrail-İran müharibəsi daha bir əhəmiyyətli ticarət marşrutunun yaranmasını əngəlləyəcək. Bu, qardaş Türkiyənin İraqla birlikdə həyata keçirmək istədiyi "Qalxınma yolu" layihəsidir. Asiya ilə Avropa arasında ticarətin həyata keçirilməsinə böyük töhfə verə biləcək bu marşrut da İsrail-İran müharibəsi üzündən ləngiyə bilər. Belə ki, nəzərdə tutulan bu marşrut Fars körfəzi ilə bağlıdır, yəni müharibənin getdiyi bir ərazi ilə.

Dünya ticarətində önəmli olan Qırmızı dəniz - Süveyş kanalı marşrutu da özünün çətin günlərini yaşayır. Hüsilərin ölkələri dost-düşmənə ayırması, üstəlik, bu ərazidən İsrailə vaxtaşırı raketlərin atılması marşrutu təhlükəli həddə çatdırıb. Bu üzdən həmin marşrutdan istifadə ən aşağı səviyyəyə enib. Məlum olduğu kimi, Qırmızı dəniz - Süveyş kanalı marşrutu dəniz nəqliyyatı ilə həyata keçirilən səmərəli ticarət marşrutudur və o, qlobal ticarətdə vacib rol oynayır. Odur ki, dünya ticarətində malların vaxtında ünvana çatdırılmasında ciddi ləngimələr var.

Beləliklə, hazırkı vəziyyətdə dünya üzrə ən təhlükəsiz marşrut Orta dəhlizdir. Bu yol münaqişələr və sanksiyalardan hələlik uzaq olan bir qlobal ticarət marşrutudur və buna görə layihəyə qoşulan ölkələrin sayı da durmadan artır. Üstəlik, dünyanın nəhəng maliyyə gücləri Orta dəhlizi daha çox ölkənin seçməsi üçün səxavətlə investisiya ayırır. Çünki bu marşrut təhlükəsiz olduğu qədər də gəlir gətiricidir.

Hazırda Orta dəhliz üzərindən daşıma həcmlərində nəzərəçarpan artım müşahidə olunur. Məsələn, 2021-ci ildə dəhliz üzərindən daşımaların həcmi təxminən 840 min ton təşkil etmişsə, 2024-cü ildə bu rəqəm 435 faiz artımla 4,5 milyon tona çatıb. Cari ildə bu rəqəmin daha yüksək olması gözlənilir.

Orta dəhliz Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçən strateji əhəmiyyətli multimodal marşrutdur və həm Avropa İttifaqının "Global Gateway" strategiyasının həyata keçirilməsində, həm də Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün optimallaşdırılmasında aparıcı rol oynayır. Son illər ərzində marşrutla yüklərin çatdırılma müddəti 38-53 gündən 19-23 günə qədər azaldılıb. Hədəf bu göstəricini 15 günə endirməkdir.

İsrail-İran müharibəsi bir daha sübut etdi ki, dünyada ən təhlükəsiz qlobal ticarət marşrutu Orta dəhlizdir. Üstəlik, Asiya ilə Avropa arasında ticarətin aparılmasında həm də iqtisadi səmərəlik baxımından ən sərfəli marşrutdur. Zəngəzur dəhlizinin açılması isə bu marşrutun imkanlarını daha da genişləndirəcək.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Gerçəkləşən möcüzə - Neft Daşları

**Suların sinəsini yara-yara irəliyə doğru hərəkət edən gəminin arxasınca qoyduğu iz dəqiqələr ötdükcə "silinib" yox olurdu. Dünya yaranandan bu belədir, su üzərində nə yazı yazmaq mümkündür, nə də bir iz qoymaq. Əfsanəvi Neft Daşlarını görənə, burda çalışan əsl əmək qəhrəmanları ilə tanış olanadək biz də belə düşünürdük. Sən demə, su üzərində iz salmaq da, üstəlik, qəhrəmanlıq dastanı yazmaq da olurmuş.**




Görməyənin inanması, görənin isə təəccüblənməməsi mümkün deyil. Bura insan zəkası ilə insan əməyinin yaratdığı əsl möcüzələr adası, xariqələr meydanıdır. Neft Daşları haqqında yalnız bir neft sənaye müəssisəsi kimi düşünmək olduqca bəsit olar. Adamı yalnız estakadalar üzərində salınan ucu-bucağı görünməyən yollar, neftin, qazın çıxarılması üçün quraşdırılmış nəhəng qurğular yox, həm də Xəzərin dəli sularını ram edib dəryada möcüzələr yaradan insanların peşəkar davranışları, əxlaqi keyfiyyətləri, vətənpərvərlik hisslərinin yüksəkliyi və əməksevərliyi təəccübləndirir.

İnsan soyuq, küləkli havalarda məcbur olmasa, başını evindən bayıra çıxarmaq belə istəmir. Sual oluna bilər, bəs onda ömrünü Neft Daşlarına həsr edən insanları Xəzərin şıltaqlığına, sərt soyuğuna, tufanına dözməyə vadar edən nədir? Bu insanları ora çəkib aparan hansı hisslərdir? Heç çəkinmədən, tərəddüd etmədən deyə bilərik ki, bu gün Neft Daşlarında çalışan insanlar bura, sadəcə qazanc, dolanışıq dalınca gəlməyiblər. Onları bu möcüzələr adasına gətirən yüksək peşəyə bağlılıq, vətən sevgisi, qəhrəmanlıq duyğusu, həm də fərqlənmək arzusudur.

İstər gəmi ilə olsun, istərsə də helikopterlə, bura gələn insanlar ilk olaraq, Ulu Öndərin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" məşhur kəlamı ilə qarşılaşırlar. Sözsüz ki, bu, təsadüfü deyil. Bu, qüdrətli, əbədiyaşar dövlət quruculuğunun fundamental nəzəriyyəsi, ömrünü vətənin inkişafına həsr edən insanların fəaliyyətinin əsas proqramıdır.

Tarixən belə olub. İqtisadiyyatı güclü olan dövlətlərin sözü keçərli olub. İqtisadiyyatı güclü olan dövlətə şərt diktə edilmir, qaydaları o müəyyənləşdirir. Heç çəkinmədən deyə bilərik ki, dövlətimizin siyasi, hərbi qüdrətinə, dünyadakı sarsılmaz, mətin mövqeyinə görə bu gün biz, xüsusilə neft-qaz sektorunda çalışan, can qoyan fədakar insanlara borcluyuq. Bir ömür onlara minnətdar olmağı unutmamalıyıq.

Neft Daşları böyük bir qəhrəmanlıq meydanı, vətənpərvərlik və kişilik məktəbidir. Neft Daşları dövlətimizin iqtisadi gücünün, qüdrətinin, insanların əməyə olan münasibətinin rəmzi, Azərbaycanın dünəni, bu günü və gələcəyini təcəlla edən möhtəşəm bir abidədir.

Təsadüfü deyil ki, Ulu Öndər Heydər Əliyev bu möcüzəvi adanı "XX əsrdən XXI əsrə atılmış körpü" adlandırıb. Heydər Əliyevin neft strategiyası da Neft Daşları ilə bağlıdır. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi və bu kəmərin dünya "arteriyası" olaraq qəbul edilməsi Heydər Əliyevin böyük siyasi təsirinin bir nümunəsidir.

Neft Daşları Bakının Pirallahı rayonunun ərazisində yerləşən şəhər tipli qəsəbədir. Buranın strateji əhəmiyyəti maddi sərvətindən başqa yaşayış sahəsi olmasındadır. Abşeron yarımadasından 42 kilometr cənub-şərqdə, Bakıdan 90 kilometr aralıda yerləşən bu qəsəbə dənizin dibinə bərkidilmiş metal dirəklərin üstündəki estakadalar üzərində dəniz səthindən bir neçə metr hündürlükdə Xəzər dənizi səthində qismən görünən "Qara qayaların" ətrafında salınıb.

Xəzərin dibində neftin olması hələ qədim zamanlardan məlum idi. Bir çox tarixçilərin, səyyahların əsərlərində dəniz səthi üzərində mazutlu daşların görünməsi, sudan qaz qabarcıqlarının çıxması təsvir edilmişdi. Dənizin həmin hissəsinin "Qara daşlar" adlandırılması da məhz bununla əlaqədar idi. 1949-cu il noyabrın 7-də 942 metr dərinlikdə qazılan quyudan neft fontan vurduqdan sonra bura "Neft Daşları" adlandırılıb və o, dünyada dənizdən ilk neft çıxarılan dəniz platforması kimi Ginnesin Rekordlar kitabına düşüb.

1948-ci il noyabrın 14-də şəraiti öyrənmək məqsədilə ilk dəfə Sabit Ata oğlu Bağırov başda olmaqla görkəmli geoloq Ağa Qurban oğlu Əliyev, qazma işlərinin peşəkar ustası və təşkilatçısı Yusif Əliqulu oğlu Səfərov, inşaatçı və buruq quraşdırıcılar V.Raqozin, İ.Busalayev, iş icraçısı F.Bloxin, çilingər-quraşdırıcı Ş.Cabbarov, fəhlə A.Melişina, xarrat F.Kulikov, radist A.Kuntov, qazmaçı mühəndislər M.Salamov, X.Xadıkov "Qələbə" ("Pobeda") gəmisi ilə adaya yollanırlar. İlk iş qazmaçılar briqadası üçün 14 kvadratmetr ev tikmək olub. Eyni zamanda bu ev sahillə aramsız əlaqəni təmin etmək məqsədilə radiostansiyanın yerləşdirilməsi üçün çox vacib idi. İlk kəşfiyyat quyusunun qazılması Mixail Pavloviç Kaveroçkinə tapşırılır. 1949-cu il noyabrın 7-də ilk qazılan quyudan neft fontan vurur. Quyunun debiti 100 tona yaxın yüksəkkeyfiyyətli neft olur.

## "Yeddi gəmi adası"

Neft Daşlarında qazma işləri, neft hasilatının təşkili bir sıra mürəkkəb məsələlərin təcili və səmərəli həllini tələb edirdi. Açıq, küləkli dənizdə avadanlıq, ərzaq, inşaat materialları və fəhlələri gətirən gəmilər kiçik meydançaya yan ala bilmirdilər. O zaman belə qərara gəlinib ki, istismar müddəti başa çatmış, köhnə, yararsız yeddi gəmi - "Çvanov", "Qubanov", "Sovet vodnikov", "Rza Lüksenbruq", "Klara Setkin", "Qaliley", "Zoroastr" gəmiləri aypara şəklində sulara çökdürülüb "ada" yaradılsın. Beləliklə, gəmiləri suya batırmaqla "Yedd gəmi adası" adlanan süni körfəz yaradılıb.



Bu gün bu əfsanəvi şəhər halal zəhmətin, mənəvi saflığın, fədakarlığın və vətənpərvərliyin rəmzidir. Bu şəhərin əsas sərvəti onu yaradan, orada çalışan və hələ uzun illər çalışacaq zəhmətsevər insanlar, hünərpərvər dəniz neftçiləridir.

Neft Daşları ilə tanışlığımız qəsəbənin inzibati ərazisinə səyahətlə başlayır. Bir zamanlar "Yeddi gəmi adası" adlanan süni körfəz indi əsl cənnəti xatırladır. Buradakı səliqə-sahman, gül-çiçəyin xoş rayihəsi adamı heyran edir. Ulu Öndər Heydər Əliyevin parkın mərkəzində ucaldılmış möhtəşəm, əzəmətli abidəsi müqəddəs ziyarətgahı xatırladır.

## Heç kim unudulmur, heç nə yaddan çıxmır

Neft Daşlarının hər daşı, hər dirəyi bir tarixdir. Önünə tər çiçəklər düzülmüş xatirə lövhəsi əzəməti ilə diqqəti çəkir. 1957-ci il noyabrın 21-də Xəzər dənizində dəhşətli, bəlkə də Xəzərin minillik tarixində ən güclü fırtına baş verib. Küləyin sürəti saniyədə 44, dalğanın hündürlüyü 13 metrə çatıb. Fırtınanın gücü Bofort şkalası üzrə 12 bal ölçüsünə çatıb. İki gün, iki gecə davam edən fırtınada dalğalar 4 kilometr estakadanı və 8 buruq meydançasını dağıdaraq tamamilə məhv edib. Qasırğa 21 nəfər neftçinin həyatına son qoyub. Həlak olanlar Süleyman Bağırov və Mixail Kaveroçkinin briqadasının neftçiləri idi. Bələdçimiz, SOCAR-ın "Azneft" İstehsalat Birliyinin Sosial inkişaf şöbəsinin böyük mühəndisi Əhməd Musayev deyir ki, şəhid olan neftçilərimizin xatirə lövhəsi ucaldılanadək, gələn qonaqlar, neftçilərimiz ən əziz günlərdə onların həlak olduqları "Palçıq Pilpiləsi" mədənlərinə gedib, dənizə 21 gül atardı. İndi isə bu abidə bütün neftçilərin müqəddəs ziyarətgahıdır.

Neft Daşlarında yaradılan şərait Azərbaycan dövlətinin əməyə, əməkçiyə, insan amilinə verdiyi dəyərin ən gözəl numunəsidir. Burada neftçilərin yaşamaları və istirahət etmələri üçün hər cür şərait yaradılıb. Otaqlardakı səliqə-sahman və təmizlik həsəd doğuracaq dərəcədədir. Yataqxananın otaqlarında müasir kondisionerlər və istilik sistemləri quraşdırılıb. İki nəfərlik otaqların hər birində sanitar qovşağı yaradılıb. Heydər Əliyev muzeyi, Mədəniyyət kulubu, idman mərkəzi, çay evi, tibb məntəqəsi fasiləsiz fəaliyyət göstərir. Neftçilər yüksəkkeyfiyyətli qidalanma ilə təmin edilirlər. Bu gün SOCAR-ın əsas devizi insan amilidir. İlk növbədə, Vətənə xidmət edən insanlara qayğı, diqqət göstərilməlidir ki, onlar vətənin neft-qaz hasilatını təmin edə bilsinlər.

Haradan çörək ətri gəlirsə, bilirsən ki, orada həyat, bərəkət var. Xalqımız hər zaman çörəyi müqəddəs sayıb, yerə düşən bir tikəni də qaldıraraq öpüb gözünün üstünə qoyub. Neft Daşlarındakı çörək sexində də bizi bu əziz nemətin ətri qarşıladı. Sexə daxil olanda çörəkçilər Sevinc Seyidova, Elçin Əliyev öz işləri ilə məşğul idilər. Onları işlərindən ayırmadıq. Ancaq öyrəndik ki, Sevinc Seyidova 25 il, Elçin Əliyev isə 32 ildir burada çalışırlar. Neft Daşlarında həmsöhbət olduğumuz digər əməkçilər kimi onlar da bura bağlı olduqlarını, Neft Daşlarında çalışmaqdan qürur duyduqlarını bildirdilər.

Çörək sexində yaradılan şərait, təmizlik, səliqə-sahman məmnunluq doğurur. İstər-istəməz düşünürsən ki, atalarımız doğru deyiblər: "Çörəyi ver, çörəkçiyə..."

Neft Daşlarında asudə vaxtın səmərəli təşkili üçün Mədəniyyət evi fəaliyyət göstərir. Mədəniyyət evinin direktoru Ruhəngiz Mustafayeva ilə həmsöhbət oluruq. O, 42 ildir ki, Neft Daşlarında işləyir: "Mən əvvəlcə neft ixtisası üzrə peşə məktəbində oxudum. İncəsənətə marağım böyük idi. 1986-cı ildə Azərbaycan Dövlət İncəsənət İnstitutuna (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) daxil oldum. 1990-cı ildə ali təhsilimi başa vurdum. Uzun illərdir ki, Neft Daşlarında fəaliyyət göstərən mədəniyyət evində çalışıram. Özümüzün "Dalğa" instrumental ansamblımız, poeziya dərnəyimiz var. Bura istehsalatdır. Əsas güc istehsalata yönəlib. Ancaq Neft Daşlarında çalışan əmək adamlarının boş vaxtlarının maraqlı keçməsi üçün lazımi şərait yaradılıb. Mədəniyyət evində əlamətdar günlərdə, bayramlarda konsertlər, şənliklər təşkil edirik. Bəzi tədbirlərdə çıxış etmək üçün SOCAR-ın köməyi ilə tanınmış müğənnilər də gəlirlər".

Ruhəngiz Mustafayeva bildirir ki, üzvlərimiz yalnız mədəniyyət evinin işçiləri deyil: "Neftçi-müğənnilərimiz, neftçi-şairlərimiz var. İstedadlılarımız çoxdur".

## Vətən candır, neft isə damarda axan qan

"Azneft" İB-nin "Neft Daşları" Neft və Qazçıxarma İdarəsinin (NQÇİ) istismar etdiyi yataqlar - "Neft Daşları" və "Palçıq Pilpiləsi"dir. Öyrənirik ki, "Neft Daşları" NQÇİ üzrə 2024-cü ildə 1 milyon 160 min 465 ton neft hasil edilib. Bu, müstəqillik dövründəki ən yüksək göstəricidir. Ötən aylar həyata keçirilən uğurlu tədbirlər nəticəsində gündəlik neft hasilatı artaraq 3300 tona qədər yüksəlib. Sevindirici haldır ki, bu, son 34 ilin ən yüksək hasilatıdır. Neftçilərin əsas hədəfi 2025-ci ili rekord nəticələrlə - 1,2 milyon tondan çox neftlə tamamlamaqdir.

Xatırladaq ki, "Azneft" İstehsalat Birliyi SOCAR-ın ən böyük struktur vahidi olaraq neft-qaz hasilatında mühüm pay sahibidir. Birlik hər zaman öz fəaliyyəti ilə SOCAR-ın, neft-qaz sənayesinin inkişafına mühüm töhfələr verib. Bu ənənənin davam etdirilməsi qarşıda duran əsas hədəflər sırasındadır. Son 1 ildə "Azneft" İB-də mühüm layihələr icra edilib, böyük uğurlara imza atılıb. Hasilatın düşmə tempinin qarşısının alınması, mövcud problemlər, onların həlli ilə bağlı görüləcək işlər və gələcək hədəflərin müəyyənləşdirilməsinə dair başlanan genişmiqyaslı araşdırma və fəaliyyət davam etdirilir. Tətbiq edilən yeniliklər istehsalatdakı çətinliklərin öhdəsindən gəlmək və prosesin təhlükəsizliyini artırmaq üçün mühüm rol oynayır.

Hasilatın sabitləşməsində suvurmanın tətbiqi və təkmilləşdirilməsi mühüm amildir. "Neft Daşları" yatağında 14 quyu ilə gün ərzində 1990 kubmetr suvurma aparılır. İlin sonuna qədər mövcud texnoloji sistemi təkminləşdirməklə əlavə 6 quyunun suvurmaya verilməsi ilə gün ərzində 2400 kubmetr qaldırılacaq. Onu da qeyd edək ki, Neft Daşlarındakı 1954, 2415 saylı meydançalardakı 2683 və 2421 saylı quyularda yeni yanaşma ilə suvurma prosesinə başlanılıb.

"Azneft" İB-də qazma üzrə əldə olan minimum imkanlardan maksimum dərəcədə faydalanmaq əsas hədəflərdəndir. "Neft Daşları" yatağında yeni tikilmiş 1646 saylı özüldən ilk quyu olan 2088 saylı quyunun planlaşdırılması dəyişdirilərək, məhsuldar laya giriş bucağını artıraraq normalda qalınlığı 90 metr olan layın neftli zonasını 350 metrə qədər artırılmasına nail olunub. Bundan başqa, quyudan 2 dəfə kern nümunəsi götürülüb və yataqda açıq lülədə müasir geofiziki tədqiqat işləri aparılıb. Belə ki, yataq üzrə ilk dəfə neft əsaslı məhlul ilə qazma, laya giriş bucağının artırılması, perforatorun düzgün seçimi quyudan gündəlik 10-15 ton neft hasilatı gözləndiyi halda, quyu gündəlik 80 ton neft və 6900 kubmetr qaz hasilatı ilə istismara daxil edilib.

"Neft Daşları" yatağındakı 1646 saylı meydançada və gələcəkdə qazılacaq quyuların optimallaşdırılmasını davam etdirib süzgəclərin tətbiqi ilə horizontal quyuların qazılaraq hasilat hədəflərinin gün ərzində 80-100 tona qədər qaldırılması planlaşdırılır.



Neft Daşlarında fəaliyyət göstərən Qaz Turbin İstilik-Elektrik Stansiyası enerji təminatında mühüm pay sahibidir. Artan infrastruktur, qazılan yeni quyular stansiyanın genişləndirilməsi zərurəti yaradır. Bu baxımdan enerji sahəsində etibarlılığın təmin edilməsi məqsədilə ötən ilin sonunda genişlənmə layihəsi üzrə işlər yekunlaşıb və generatorlar istismara verilib. "Neft Daşları" sahəsindəki neft hasilatında etibarlılığın artırılması üçün isə alternativ enerji təminatı proqramı çərçivəsində 5 qəza dizel generatoru estakadayanı meydançalarda quraşdırılaraq istismara verilib. Hər hansı enerji kəsilməsi zamanı bu dizel generatorları quraşdırıldıqları estakadayanı meydançalardan əlavə, yaxınlıqdakı meydançaları da elektrik enerjisi ilə təmin etməyə qadirdir. Qeyd edək ki, enerji kəsilmələri zamanı neft hasilatında itkilərin minimuma endirilməsi məqsədilə növbəti mərhələdə 7 qəza dizel generatoru quraşdırılıb. Bu istiqamətdə əlavə tədbirlər davam etdirilir.

"Neft Daşları" NQÇİ-də qış aylarında axın müntəzəmliyinin pozulmasına qarşı da tədbirlər görülərək hasilat itkilərinin qarşısı alınıb. Eyni zamanda "Neft Daşları" yatağında 250 min kubmetr səmt qazının atmosferə atılmasının qarşısı alınıb. "Neft Daşları" NQÇİ-də texnoloji sistemlərə yeni yanaşma tətbiq edilərək, əməliyyatların sadələşdirilməsi, sistemə kefiyyətli xidmətin təmin olunması davam edir. Görülən işlər, əldə olunan nəticələrin təhlili dövlətimizin başçısı İlham Əliyevin uzaqgörənliklə dediyi: "Neft Daşları hələ uzun illər Azərbaycana çox ləyaqətlə xidmət edəcəkdir" sözlərinin təsdiqidir.

## Ənənələr davam edir

Həmsöbətimiz dördüncü dərəcəli neftqazçıxarma ustası Ehtiram İbrahimovdur. O, 42 ildir Neft Daşlarında çalışdığını deyir:

- Əvvəl ikinci dərəcəli operator kimi əmək fəaliyyətinə başlamışam. O zamanla bu günü qəti müqayisə etmək mümkün deyil. Müstəqil deyildik. Qazandığımızı mərkəzi hökumət əlimizdən alırdı. Fəhlənin də indiki kimi qiyməti yox idi. Bu səbəbdən də tez-tez bədbəxt hadisələr baş verirdi. İndi vəziyyət tamam başqadır. İlk növbədə onu deyim ki, indi əl əməyindən çox az istifadə edilir. Əvvəllər neftin çıxmasını öyrənmək üçün qulağımızı quyuya dirəyib öyrənirdiksə, indi kompüterlə görə bilirik. Hər şey çox dəyişib. Neftçiyə olan diqqətdən, qayğıdan tutmuş burada olan şəraitə kimi. Bu gün özümüzü əsl insan kimi hiss edirik. Dövlət həyatımızı sığorta edib, sağlamlığımızın qayğısına qalır. Hətta ailəmiz, övladlarımız da neftçi ailəsi kimi SOCAR-ın imkanlarından kifayət qədər faydalana bilirlər.

Sizə bir fakt deyim, bəlkə də bu, kənardan baxana adi görünə bilər. Əvvəllər yataqxanalara su fasilələrlə verilirdi. Neftçilər ümumi hamamdan istifadə edirdilər. Hamam işləyəndə də qışda otaqlara istilik verilmirdi. Hamamdan çıxanlar soyuq otaqlara girib xəstələnirdilər. İndi "Əks Osmos" qurğu vasitəsilə dəniz suyu təmizlənib istifadəyə yararlı vəziyyətə salınıb verilir. Otaqlarımız tam təmirlidir, neftçilər üçün hər cür şərait yaradılıb. Soyuducu, kondisioner, teleivizor, hər otağın gözəl şəraitli sanitar qovşağı yaradılıb. Bunlar bir neftçi kimi bizi çox sevindirir. Dövlətimizin qüdrəti ilə qürur duyuruq.

Mən gözümü açıb özümü dənizdə görmüşəm. Ömrümün çoxunu yaşamış adamam. Bu yaşdan sonra mənə yalan danışmaq yaramaz. Neftçilərə olan diqqət cənab İlham Əliyevin Neft Şirkətindəki fəaliyyəti dövründən başladı. Təsəvvür edin ki, burada SOCAR-ın özünün 3500 işçisi, təxminən 2000 nəfər də podratçı çalışır. Bu qədər işçinin nəqliyyatının təşkili, yeyib-içməsi və digər problemləri elə həll olunub ki, adam dənizdə olduğunu qətiyyən hiss etmir. Neft "qara qızıl" deyil. Neft üz ağardan çox qiymətli nemətdir. Netçi kimi dövlətimlə, bu dövləti dünyanın hesablaşdığı gücə gətirən Prezidentimlə fəxr edirəm. Bu neft hamımızın, xalqın sərvətidir. 5 övladım - 3 qızım, 2 oğlum var. Hər biri ev-eşik sahibidir. SOCAR mənə Bakıda qurulu mənzil verib. Doğulduğum Cəlilabadda da çox gözəl evim, təsərrüfatım, mal-qaram var. Baxın bunların hamısını bu neftin, bir də Prezidentimiz İlham Əliyevin neftçilərə olan qayğısı nəticəsində əldə etmişəm.

Neft Daşları həyat, insanlıq məktəbidir. Burada çalışanlar vəzifələrinin böyüklüyü ilə yox, insana olan münasibətləri ilə fərqlənirlər. Hamı bir-birinə əziz adam kimi qayğı göstərir. Bünövrə belə qoyulub. Mən Dünyamalı Ağalıyev, Məmmədqulu Məmmədov, Arif Abbasov, Xanlar Əliyev kimi təcrübəli neft ustaları ilə işləmişəm. Onlardan yalnız neft çıxarmağı yox, insanlığı, böyüklüyü də öyrənmişəm. İndi bura gənclər gəlir. Çalışıram ki, təcrübəmi onlara da öyrədim. Bir gün buranı tərk edəndə mən də yaxşı neftçi, yaxşı insan kimi xatırlanım.

Neft Daşlarında uzun illərdir çalışan daha bir neftçi ilə həmsöhbət oluruq. İntizam Həsənov da neft-qaz çıxarma ustasıdır. 40 ilə yaxındır ki, Neft Daşlarında işləyir. O, 1963-cı ildə Ağdaş rayonunda dünyaya gəlib. Deyir ki, valideynlərim hər ikisi kolxozçu olub: "Onlar təsərrüfatla məşğul idilər. Ailədə 4 uşaq - 2 bacı, 2 qardaş idik. Mən ikinci uşaqdım. 1971-1981-ci illərdə Xosrov kənd orta məktəbində oxudum. Orta məktəbi bitirdiyim il arzularımı reallaşdırmaq üçün Bakıya gəldim".

İltizam Həsənov neftçi olmaq arzusuna düşüb. Deyir ki, bu peşəni təsadüfən seçmədim: "O vaxtlar ekranlardan izləyirdik, görürdük ki, respublikamızda neftçilərə çox böyük dəyər verir, ehtiram göstərirlər. Bakı Neft Texnikumuna daxil oldum. Neft-qaz quyularının istismarı fakültəsində təhsil aldım. Orda oxuduğum vaxt hərbi xidmətə getdim. Qayıtdıqdan sonra təhsilimi davam etdirdim. 1986-cı ilin əvvəlində texnikumu bitirdim. Bizi işləmək üçün başqa-başqa yerlərə göndərirdilər. Təyinatımı Neft Daşlarına aldım. Çünki məndən əvvəl yoldaşlarımız burada təcrübədə olmuş, məndə Neft Daşları barədə təəssürat yaratmışdılar. Böyük maraqla, həvəslə Neft Daşlarına gəldim. Bura mənim ilk iş yerim oldu. O vaxtdan Neft Daşlarında çalışıram. Bura ilk gəlişim yadımdadır... O zamanlar Neft Daşlarında bu gün gördüyünüz şərait yox idi. Əvvəllər burada bu qədər yaşıllıq görə bilməzdiniz. Belə çay evimiz, istirahət yerimiz yox idi. Neft Daşları bu illər ərzində çox dəyişib, daha da gözəlləşib. İndi şəraitimiz çox yaxşıdır".

Müsahibimiz danışır ki, Neft Daşlarına gələndə əvvəlcə 4 saylı neftqazçıxarma sahəsində işə başlayıb. Elə o vaxtdan da həmin sahədə çalışır. Əvvəl neft-qazçıxarma operatoru işləyib. 1999-cu ildən neft-qazçıxarma ustasıdır. 26 ildir ki, usta işləyir. Qaradağ rayonunun Lökbatan qəsəbəsində yaşayır. İki övladı - bir qızı, bir oğlu var. Hər ikisi ali təhsillidir. Artıq qızı ailə qurub. Övlad sahibidir.

"İşinizin çətinlikləri sizi heç yormayıb?" - sualına təbəssümlə cavab verir: "Yorsaydı, yəqin ki, burada qalmazdım. Etiraf edək ki, dəniz şəraiti bir az çətindir. İşimiz bir qədər ağırdır. Dəniz şıltaqdır. Doğrudur, sakit vaxtları da olur. Soyuq havalarda, xüsusilə qış fəslində şıltaqlıq edir. Dəniz, ümumiyyətlə, qorxaqları sevmir. Gərək onun şıltaqlıqlarına da dözə, sinə gərə biləsən. İşimizi davam etdirəcəyik, qismət olarsa, burdan da təqaüdə yollanacağıq".

İltizam Həsənov deyir ki, Neft Daşlarında ondan da çox, 41-42 il işləyənlər var. Təcrübəli neftçi Neft Daşlarına işləməyə gələn gənclərin çox olduğunu söyləyir: "İlk günlərdən Neft Daşlarına bağlananlar, yaxşı işləmək istəyənlər çoxdur. Gənclərə bacardığımız qədər öyüd-nəsihət, məsləhət veririk. Neft bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir. İqtisadiyyatımızın əsas qolu, ölkəmizin gücü, qüdrətidir. Neftçi şərəfli peşədir. Bütün bunlara görə işimizin çətinliklərinə dözüb Neft Daşlarında qalmışıq. Gənclərimz də işləməyə həvəslidirlər, işi öyrənirlər. Neftçi işi, bizim neft-qazçıxarma sahəsi elədir ki, öyrənə-öyrənə işləyirsən. Onun gərək dərinliklərinə, mahiyyətinə varasan. Və burada öyrənməyin son həddi yoxdur. Nə qədər təcrübə qazansan da, öyrənməli işlər yenə çoxdur. 40 ilə yaxındır işləyirəm, deyə bilmərəm ki, hər şeyi bilirəm. İş prosesində görürsən ki, nəyisə öyrənmək lazımdır".

*(Ardı var)*

*Zöhrə FƏRƏCOVA,*
*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*



**Səhnə xadimlərimiz**

# Unudulmaz aktyor

**Əsl soyadı Məlikov olsa da, Azərbaycan mədəniyyəti, incəsənəti tarixində, teatr aləmində "Qəmərlinski" kimi tanındı. O, yüz qırx beş il öncə, 1880-ci ildə Bakıda dünyaya göz açdı. Uşaqlıq illəri bu şəhərin əsrarəngiz İçərişəhər hissəsində keçdi. Atası tacir Haşımın niyyəti Moskva, Varşava şəhərləri ilə ticarət əlaqələri qurmaq idi. Oğlu Əhmədin də bir gün onun əlindən tutacağına ümid edirdi. Hələliksə oğlu ilə bağlı düşüncələrində əsas yeri Əhmədin oxuması tuturdu. Haşım təhsilin, elmin dəyərini bilir, övladının da savadlı olmasını arzulayırdı.**

Əhməd Məlikovun on yaşı olanda atası onu İçərişəhərdə tanınmış qazi Axund Mirzə Cavadın molla məktəbinə apardı. Çox keçmədi ki, müəllimi həm iti hafizəsinə, dərin zəkasına, həm də oxuyub öyrənmək marağına görə Əhməddən razılıq etməyə başladı. Onun təhsilini türk-rus məktəbində davam etdirməsini də Haşıma Axund Mirzə Cavad məsləhət gördü.

Həmin məktəbdə də seçilib fərqlənməsi uzun çəkmədi. Dərslərini əla qiymətlərlə oxuyan Əhməd müəllimlərin təşəbbüsü ilə görkəmli maarif xadimi, pedaqoq, yazıçı, tərcüməçi, publisist Sultan Məcid Qənizadənin məktəbinə köçürüldü. Əhməd gələcəyin səhnə xadimləri Hüseyn Ərəblinski və Mirmahmud Kazımovski ilə birlikdə bu məktəbdə təhsil aldı.

O, dərslərini yaxşı oxuması, bacarığı, çalışqanlığı və məsuliyyətli ilə bu məktəbdə də rəğbət qazanan şagirdlərdən biri oldu.



### Hüseyn Ərəblinskinin təklifi...

Hələ uşaqlıq illərində cazibəsinə düşdüyü səhnəyə Əhməd Məlikov ilk dəfə 1907-ci ildə Balaxanıda həvəskar aktyorların hazırladıqları "Adı var, özü yox" adlı tamaşada Cənnətəli rolu ilə çıxdı. O, həm də xalq mərasim, oyun və əyləncələrində fəal iştirak etməyə başladı.

Sonralar "Nicat" Cəmiyyətinin nəzdindəki teatr truppasında yer aldı. "Adı var, özü yox" tamaşasını həmin teatr truppası da səhnəyə qoydu. 1909-cu il yanvarın 2-də Əhməd Məlikov yenə Cənnətəli rolunda tamaşaçıların qarşısına çıxdı.

Teatr sənətində ilk addımlarını atan gənc aktyorun növbəti rolu dramaturq Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" əsərindəki İblis oldu. 1912-ci ildə hazırlanan afişa və proqramlarda onun da bu rolda şəkli var idi.

İstedadlı aktyorlar arasında özünəməxsus üslubu ilə seçilməyə başlayan gənc aktyor Əhməd Məlikovu yalnız Bakının teatrsevərləri tanımırdılar. O, 1908-ci ildən aktyor yoldaşları ilə birlikdə Azərbaycanın bir sıra kənd və rayonlarına gedərək tamaşalarda iştirak edirdi.

Belə qastrol səfərlərindən biri də Qəmərli kəndinə oldu. Həmin kənddən geri qayıdarkən Hüseyn Ərəblinski dostuna Qəmərlinski təxəllüsünü götürməyi təklif etdi. O vaxtdan Əhməd Məlikov bu adla - Əhməd Qəmərlinski kimi səhnəyə çıxdı, tanındı.

### Bənzərsiz aktyor oyunu, tamaşaçı alqışları...

Paytaxtdakı teatr truppaları 1919-cu ildə birləşdirildi, Dövlət Dram Teatrı yaradıldı. Həmin aktyor truppasına qəbul edilənlərdən biri də Əhməd Qəmərlinski oldu. O, 1921-1924-cü illərdə Dövlət Dram Teatrı ilə bərabər, Bakı Türk Azad Tənqid və Təbliğ Teatrında da çalışdı.

İstedadlı aktyorun zəngin repertuarında müxtəlif xarakterli rollar var idi. Əhməd Qəmərlinski "Xırs quldurbasan"da Bayram, "Lənkəran xanının vəziri"ndə Mirzə Həbib, "Məşədi İbad"da Rüstəm bəy, "Pəri cadu"da Əcinnə, Təlxək, İblis, Əmrah, "Bəxtsiz cavan"da Hacı Səməd ağa, Mirzə Qoşunəli, "Ac həriflər"də Süleyman, "Dursunəli və ballıbadı"da Dursunəli, "Dəmirçi Gavə"də Zöhhak, "Otello"da Brabansio, Kassio, "Qaçaqlar"da Şpigelberq, "Dövləti-bisəmər"də Hacı Fərəc, "Xalid ibn Valid"də Romas, "Şeyx Şamil"də Amul bəy, "Əl Mənsur"da Əli, "Nadir şah Əfşar"da Gürcü bəy və Mirzə Mehdi xan, "Şəd ibn Vəqqas"da Yəzdcürd, "Qəzavat"da Molla Hüseyn və başqa rollarda səhnəyə çıxırdı. Bu rolların hər birini öz bənzərsiz aktyor oyunu ilə təqdim etdi, tamaşaçıların alqışlarını qazandı.

O, Azərbaycan Dövlət Musiqili Komediya Teatrında 1938-1939-cu illərdə fəaliyyət göstərdi. Əhməd Qəmərlinski bu teatrda "Məşədi İbad"da Rüstəm bəy, "Ər və arvad"da Kəblə Qubad, "Lənkəran xanının vəziri"ndə Səməd bəy və başqa rolları ifa etdi.

Əhməd Qəmərlinski səhnə sənətindəki xidmətlərinə görə, 1940-cı ildə Əməkdar incəsənət xadimi fəxri adına layiq görüldü.

Onun aktyorluq məharətinə kinorejissorlar da biganə qalmadılar. Əhməd Qəmərlinskini filmlərə dəvət etdilər. "Azərbaycanfilm" Kinostudiyasının istehsal etdiyi "İsmət" (1934), "Almaz" (1936), "Səbuhi" (1941), "Sovqat" (1942) filmlərində canlandırdığı rollar Əhməd Qəmərlinskinin həm də istedadlı kinoaktyor olduğunu təsdiq etdi.

### Dramaturq Əhməd Qəmərlinski...

Azərbaycan teatr sənətinin inkişafında Əhməd Qəmərlinski dramaturq kimi də xidmət göstərdi. O, tarixi və müasir mövzularda "Cavanlar", "Tufani-Kərbəla", "Rüstəm və Söhrab", "Vətən uğrunda", "Eşq-məhəbbət", "Məkri-zənən", "Ziyarət nəticəsi", "Maymaq", "Tamahkarlıq, yaxud cavanlar məişəti", "Partizan oğlu", "Qazi", "Oxumayacağam", "Bəhlul Danəndə", "Molla Zaman", "Usta Qəni", "Yusif və Züleyxa", "Tahir və Zöhrə", "Uşaq duası", "Arşın malı" və başqa vodevillər, məzhəkələr, pyeslər, təbdillər qələmə aldı. Molyerdən etdiyi "Zorən təbib" təbdili xüsusilə məşhur oldu. Əsərlərini 1910-1920-ci illərdə Hüseyn Ərəblinski, Sidqi Ruhulla və başqa görkəmli sənətkarlar səhnələşdirdilər.

Əhməd Qəmərlinski 1952-ci il martın 9-da yetmiş iki yaşında vəfat etdi. Azərbaycan mədəniyyəti, incəsənəti tarixində adı və gördüyü işlər unudulmaz oldu.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

**Aşıq yaradıcılığı**

# Söz sərrafı

**Aşıq yaradıcılığı Azərbaycan xalq ədəbiyyatının ən qədim və zəngin qollarından biridir. Bu yaradıcılıq forması həm poeziya, həm musiqi, həm də teatr sənətinin vəhdətində formalaşmışdır. Aşıqlar həm söz ustası, həm də sazın müşayiətilə şeir söyləyən sənətkarlardır. Onların yaradıcılığı nəsildən-nəslə ötürülən şifahi xalq ədəbiyyatının qorunmasında və inkişafında mühüm rol oynamışdır.**




Aşıq sənəti bir peşə olmaqla yanaşı, həm də yüksək istedad, zəngin yaddaş, dərin poetik düşüncə və musiqi duyumu tələb edən sənət sahəsidir. Azərbaycan aşıqları təkcə şair və musiqiçi deyil, həm də pedaqoq, rəvayətçi, dastançı və hətta psixoloq kimi çıxış edirlər. Onlar xalqın içindən çıxır, xalqla nəfəs alır və xalqın hisslərini sözə çevirirlər.







Azərbaycan aşıq sənətində Aşıq Qurbani, Aşıq Abbas Tufarqanlı, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Şəmşir, Aşıq Mikayıl Azaflı, Aşıq Valeh kimi böyük sənətkarların adları xüsusilə çəkilir. Bu aşıqlar öz dövrlərində el arasında yüksək nüfuz qazanmış, yaratdıqları qoşmalar, gəraylılar, təcnislərlə aşıq ədəbiyyatının zənginləşməsinə böyük töhfələr vermişlər. Onların ədəbi irsini, yaradıcılığını dünənimizdən bu günümüzə gətirib çıxaranlar isə tədqiqatçı, alim və ədəbiyyatşünaslardır.

Ədəbiyyatşünaslar, müxtəlif dövrlərdə yaranmış ədəbiyyat nümunələrini bir-biri ilə müqayisə edərək, onlara dair yeni nəzəriyyələr irəli sürə bilərlər. Onlar həm də ədəbiyyatın müxtəlif cəmiyyətlərdə və mədəniyyətlərdə necə formalaşdığını, inkişaf etdiyini və bunun cəmiyyətin ideologiyası, fəlsəfəsi və sosial quruluşu ilə necə əlaqəli olduğunu araşdırırlar. Belə tədqiqatçılardan biri də İslam Ələsgərdir.

İslam Ələsgər, ilk növbədə, şairin həyatını, yaradıcılığını və əsərlərinin sosial-mədəni kontekstini araşdırıb. Onun poetik üslubunu, lirikasındakı mövzu və simvolları, şeirindəki dərin fəlsəfi və etik düşüncələri tədqiq edir və bu əsərləri dövrünün siyasi, ictimai və mədəni şəraiti ilə əlaqələndirir. Ələsgər şeirində xalqın yaşam tərzini, təbiət və insan, qadın gözəllikəri onların daxili dünyasını və milli kimlik məsələlərini əks etdirən zəngin bir dünya qurulub.

Ələsgərin şeirlərində folklor motivləri və xalq musiqisinin təsiri güclü şəkildə özünü göstərir. Onun əsərlərində həm də Azərbaycan xalqının təsəvvürləri, inancları və mədəniyyətinin izlərini görmək mümkündür. Bu baxımdan, ələsgərşünas, şairin əsərlərini yalnız ədəbiyyat deyil, həm də folklor, musiqi və mədəniyyət baxımından qiymətləndirmişdir.

İslam Ələsgər, şairin müasir dövrün ədəbiyyatında oynadığı rolu da tanıdıb. Ələsgərin şeirinin və fəlsəfəsinin XX əsrin və günümüzün Azərbaycan ədəbiyyatına təsiri haqqında müasir nəzəriyyələr irəli sürüb, onun şeirindəki estetik yanaşmalar və insan təbiətinin dərinliklərinə nüfuz etmə qabiliyyəti, həmçinin məhəbbət, azadlıq və ədalət kimi ümumbəşəri dəyərləri təbliğ edərək, ələsgərşünaslığın aktuallığını təmin edib.

Azərbaycan ədəbiyyatşünaslığına böyük töhfə verən İslam Ələsgər, bu sahədəki tədqiqatları ilə həm yerli, həm də beynəlxalq səviyyədə Azərbaycan mədəniyyətinin dərinliyini açmağa və aşıqla bağlı dünya ədəbiyyatına verdiyi töhfələri daha aydın göstərməyə qadir olub.

İslam Ələsgər Aşıq Ələsgər yaradıcılığının incəliklərini daha yaxşı anlamağa, şairin yaradıcılığını daha geniş bir müstəvidə qiymətləndirməyə və onun əsərlərini müxtəlif dövrlərdə və cəmiyyətlərdəki oxucular üçün aktual etməyə müvəffəq olub.

İslam Ələsgər 22 iyun 1925-ci ildə Göyçə mahalının Ağkilsə kəndində anadan olub. 1954-cü ildə Azərbaycan Dövlət Universitetini bitirib. Diplom işi "Aşıq Ələsgər ədəbi irsinin öyrənilməsi" ilə bağlı olub.

Göyçə aşıqlarının və şairlərinin şeirlərini toplayaraq 1956-cı ildən başlayaraq, Aşıq Ələsgərin əsərlərini dəfələrlə çap etdirib və haqqında məqalələr yazıb.

1973-cü ildə "Aşıq Ələsgər və XIX əsr Göyçə aşıqları" adlı namizədlik dissertasiyası müdafiə edib.

1997-ci ildə Azərbaycan Respublikası Prezidenti, Ulu Öndər Heydər Əliyevin "Aşıq Ələsgərin 175 illik yubileyinin keçirilməsi haqqında" sərəncamından sonra "Haqq aşığı Ələsgər" monoqrafiyasını yazıb. Bu əsər, Aşıq Ələsgər irsinin ən qiymətli elmi əsərlərindən biri kimi ədəbi ictimaiyyətin diqqətini cəlb edib. Tədqiqatçı 6 oktyabr 2014-cü ildə Göygöl rayonunda vəfat edib və orada dəfn olunub.

İslam Ələsgərin araşdırmaları arasında "Aşıq Ələsgər və XIX əsr Göyçə aşıqları" (namizədlik dissertasiyası), "Ələsgər ocağı", "Haqq aşığı Ələsgər", "Sazlı-sözlü Göyçə" və digər əsərlər mövcuddur. O, həmçinin müxtəlif qəzet və jurnallarda məqalələr dərc etmişdir. Bu məqalələrdə aşıq sənətinin müxtəlif aspektləri, xüsusən də Aşıq Ələsgərin yaradıcılığı və onun Azərbaycan aşıq sənətindəki rolu geniş şəkildə öyrənilmişdir.

İslam Ələsgər təhsilini başa vurduqdan sonra uzun illər - təxminən 48 il - Zod kənd orta məktəbində müəllim və direktor kimi fəaliyyət göstərmişdir. Bu illər ərzində yalnız təhsil sahəsində deyil, həm də ictimai-sosial işlərdə fəal olmuşdur.

İslam Ələsgərin diqqətçəkən əsərlərindən biri, 1998-ci ildə nəşr olunan "Haqq aşığı Ələsgər" monoqrafiyasıdır. Bu kitabda Aşıq Ələsgərin yaradıcılığı yalnız folklor deyil, həm də fəlsəfi və estetik cəhətdən dərin təhlil olunmuşdur. Onun kitabları təkcə elmi auditoriya üçün deyil, həm də geniş oxucu kütləsi üçün yazılmış dəyərli mənbələrdir.

İslam Ələsgər Azərbaycan ədəbi-mədəni həyatında öz möhkəm yerini tutmuşdur. Onun fəaliyyəti həm elmi, həm maarifçi, həm də milli-mənəvi baxımdan yüksək dəyərləndirilmişdir. O, həmçinin gənc tədqiqatçılar üçün bir məktəb rolunu oynamışdır.

Bu gün onun kitabları Azərbaycan aşıq sənəti və ədəbiyyatşünaslıq elminin mühüm qaynaqları sayılır. Adı, fəaliyyəti və irsi həm elmi dairələrdə, həm də aşıq mühitində böyük ehtiramla anılır.

*Fatma HACIYEVA,*
*professor*

# İçərişəhərdə "Muğam saatı" səs performansı keçirilib

**"Muğam aləmi" VII Beynəlxalq Musiqi Festivalı çərçivəsində İçərişəhərdə "Muğam saatı" səsli performansı nümayiş olunub. Tədbir Azərbaycan Mədəniyyət Nazirliyi və Heydər Əliyev Fondunun dəstəyi ilə baş tutub. Performansın rejissoru Konstantin Soldatov, musiqi rəhbəri - bəstəkar Azər Hacıəsgərli, texniki mütəxəssisi saund-art mütəxəssisi Fərhad Fərzəliyevdir.**



Bir saat ərzində 90-dan çox iştirakçı portativ blutuz dinamikləri ilə İçərişəhər ətrafında yavaş-yavaş hərəkət edərək qədim küçələri canlı musiqi orqanizminə çevirib. İçərişəhərin müxtəlif yerlərində eyni vaxtda 10 muğam kanalı səslənib.

Layihə səs, hərəkət və məkan vasitəsilə Bakının mədəni mənzərəsi ilə qarşılıqlı əlaqənin yeni üsulunu təklif edir. Bu nə konsert, nə də tamaşadır - bu, məkanın xor nəfəsidir, burada təsadüf dirijor, İçərişəhər isə səhnədir.

Mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanovun AZƏRTAC-ın müxbirinə dediyinə görə, Bakı sakinləri və paytaxt qonaqlarında müasir şəraitlə əlaqəlik hissi yaratmaq üçün bu cür layihələr çox vacibdir: "Biz gördük ki, tədbirimizdə iştirak edən insanlarda sonda bu işdə iştirak etdikləri üçün qürur hissi yarandı. Muğam inanılmaz dərəcədə dərin və ciddi sənətdir. Bu, mədəniyyətimizin mühüm mənəvi dirəyidir. Azərbaycanı dünyada ləyaqətlə təmsil etməkdən söhbət düşəndə biz həmişə muğama müraciət edirik".

Rejissor Konstantin Soldatov isə tədbirə hazırlıqlardan danışıb.

"Layihədə şəhər sakinləri, layihəni maraqlı hesab edənlər iştirak edirdi. İştirakçılar arasında yeniyetmələr, böyüklər, peşəkar sənətçilər, həvəskarlar və hətta teatrla əlaqəsi olmayan insanlar da var idi. Lakin heç kimdən peşəkar bacarıq tələb olunmurdu. Məqsəd şəhərlə birləşib musiqidən həzz almaq idi. Bizim 5 koordinatorumuzun hər biri 15-25 nəfərlik qruplara rəhbərlik edirdi. Biz insanların hərəkət etdiyi marşrutları düşünməli idik - nəticədə 50 müxtəlif marşrut alındı. Ssenariyə görə, performans iştirakçıları İçərişəhərin əsas nöqtələrində toplaşırdılar və dağılırdılar, finalda isə 100 nəfərdən ibarət olan bütün qrupumuz Qız qalasının yanında toplaşdı. Burada muğam kompozisiyasının finalını dinlədik. Mənə elə gəlir ki, prosesdə hər kəs musiqinin nəfəsini hiss etdi. İnsanların ucadanışanlarla İçərişəhəri necə gəzdiyini və sanki onunla yenidən tanış olduğunu müşahidə etmək çox maraqlı idi", - deyə rejissor qeyd edib.

# "Opera günləri" layihəsi çərçivəsində "Əsli və Kərəm" operası təqdim olunub

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının təqdim etdiyi "Opera günləri" layihəsi çərçivəsində Şirvanşahlar Sarayında dahi bəstəkarımız Üzeyir bəy Hacıbəylinin "Əsli və Kərəm" operasından parçalar nümayiş etdirilib.**



Teatrdan bildirilib ki, bəstəkarın anadan olmasının 140 illiyinə həsr olunmuş tamaşada Rəvanə Əmiraslanlı (Əsli), Məhəbbət Səfərov (Kərəm), Taleh Yahyayev (Keşiş), Fuad Əzizzadə (Şah), Nəzər Bəylərov (Sofi), Mütəllim Dəmirov (Şeyx), Pərviz Verdiyev (Paşa) iştirak ediblər.

Qeyd edək ki, tamaşanın dirijoru Əməkdar incəsənət xadimi Sevil Hacıyeva, quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Hafiz Quliyev, xoreoqrafı Xalq artisti Mədinə Əliyeva, tarda müşayiət edən Əməkdar artist Elxan Mansurovdur.

# Əməkdar rəssam Natiq Səfərovun 65 illiyinə həsr olunmuş sərgi açılacaq

**İyunun 25-də Azərbaycan Milli İncəsənət Muzeyində Əməkdar rəssam, ali dərəcəli bərpaçı Natiq Səfərovun 65 illiyinə həsr olunmuş "Bərpa: keçmişə ehtiram, gələcəyə miras" adlı sərgi açılacaq.**




Mədəniyyət Nazirliyi və Azərbaycan Milli İncəsənət Muzeyinin birgə təşkilatçılığı ilə keçirilən sərgidə Natiq Səfərovun rəhbərliyi ilə restavrasiya olunmuş muzey kolleksiyasına aid 40-dan çox eksponat, onların bərpadan öncəki və sonrakı görüntülərini əks etdirən foto və məlumatlar, eləcə də müəllifi olduğu rəngkarlıq əsərləri yer alacaq.

XVII-XIX əsrlərə məxsus ikonalar, V.Serovun "Baronessa N.A. Meyendorfun portreti" və rəqəmsal animasiyası, T.Tağıyevin uzun müddət sərgilənməyən "Koroğlu" triptixi, Azərbaycan avanqardının tanınmış siması Tofiq Cavadovun tabloları, eləcə də öz ecazkarlığı ilə seçilən Azərbaycan xalçaları, Meysen çiniləri, Türkiyə incəsənətinə aid unikal sənət nümunələri sərginin maraqlı əsərləri sırasındadır.

Natiq Səfərovun həm bərpaçı, həm də rəssam kimi çoxşaxəli yaradıcılığına işıq salan sərgi sentyabrın 25-dək davam edəcək.

# Ağ Ev İrana nüvə zərbəsi endirilməsi ehtimalını istisna etmir

## Donald Tramp iki həftə ərzində qərar verəcəyini deyir





**Qarşıdurmanın səkkizinci günündə İran ərazisindən raketlərin atılmasından sonra İsrailin cənubundakı bir neçə bölgədə hava hücumu xəbərdarlığı elan olunub. Bu, ilk növbədə, Birussebi şəhərinə təsir edib. Maşınlara və binalara ziyan dəyib.**

Dünən səhər saatlarında İranın ballistik raketi İsrailin cənubundakı Beer - Şeva şəhərinə düşüb. "Times of Israel" yazır ki, raket hava hücumundan müdafiə sistemləri tərəfindən tutula bilməyib və yaşayış binalarının yaxınlığında partlayıb. Nəticədə 5 nəfər yüngül xəsarət alıb. Amma binalara xeyli ziyan dəyib.

İranın paytaxtı Tehran səmasında isə İsrailə məxsus iki pilotsuz uçuş aparatı (PUA) vurulub. Bu barədə İranın "Mehr" xəbər agentliyi İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) komandanlığının bəyanatına istinadən məlumat yayıb. Açıqlamaya görə, bir kamikadze pilotsuz uçan aparat Tehranın cənubundakı Şəhre Rey bölgəsində, digər mini PUA isə Tehran Neft Emalı zavodunun ərazisində zərərsizləşdirilib.

İsrail Hərbi Hava Qüvvələri iyunun 20-nə keçən gecə Tehrandakı hərbi obyektlərə və nüvə tədqiqat mərkəzinə də zərbələr endirib. İsrail Ordusunun məlumatına görə, əməliyyatda 60 hərbi təyyarə 120 bomba atıb. İsrail Müdafiə Nazirliyinin "Teleqram" kanalında verdiyi açıqlamada deyilir ki, hərbi aviasiya cümə günü səhər İranın qərbindəki raket anbarları və buraxılış sistemlərinə hücum edib: "25-dən çox qırıcı təyyarə İranın Təbriz və Kirmanşah bölgələrində 35-dən çox raket anbarı obyektinə və infrastruktur komponentlərinə zərbələr endirib və onları zərərsizləşdirib". Qeyd olunur ki, zərbələrin hədəfləri İsrail Hərbi Kəşfiyyat İdarəsi tərəfindən müəyyən edilib.

"Associated Press" isə xəbər verir ki, İsrail təyyarələri gecə saatlarında Xəzər dənizi sahilindəki Rəşt şəhərinə hücum edib. Agentliyin məlumatına görə, zərbələrdən əvvəl İsrail hərbçiləri yerli sakinlərə xəbərdarlıq edib ki, Rəştin mərkəzindən bir neçə kilometr cənub-qərbdə yerləşən sənaye zonasından uzaq olsunlar.

İsrail İran ərazisinə zərbələr endirərkən Təbriz Beynəlxalq Hava Limanı yaxınlığında yerləşən əraziyə də hücum edib. Bu barədə ISNA agentliyi Şərqi Azərbaycan valiliyinin bəyanatına istinadən xəbər verir. Yerli mənbələrin məlumatına görə, hücum nəticəsində ərazidə yerləşən radiolokasiya obyekti vurulub. Bundan əlavə, İsrail qüvvələrinin Ərdəbildə raket buraxılış qurğusuna və Tehrandakı mənzilə hücum etdiyi bildirilir.

Bu arada, ABŞ Fordoda İranın uranın zənginləşdirilməsi zavoduna zərbələr endirmək üçün taktiki nüvə silahından (TNW) istifadə ehtimalını etiraf edib. Eyni zamanda "Fox News" telekanalının xəbərinə görə, Amerika hərbçiləri İranın nüvə zavodunu məhv edə biləcək bunker əleyhinə bombalarının effektivliyinə şübhə etmirlər.

Bundan əvvəl Axios yazmışdı ki, ABŞ Prezidenti Donald Tramp 13,6 ton ağırlığında supergüclü GBU-57 bombasının 90 metr dərinlikdə yerləşən yeraltı obyekti etibarlı şəkildə məhv etmək qabiliyyətinə şübhə edir. ABŞ Müdafiə Nazirliyinin bir hissəsi olan Müdafiə Təhdidlərinin Azaldılması Agentliyi (DTRA) hesablamışdır ki, Fordodakı nüvə obyektini ləğv etmək üçün əvvəlcə torpağı adi bombalarla yumşaltmaq, sonra isə bombardmançı təyyarədən nüvə silahını atmaq lazımdır.

İranın xarici işlər naziri Abbas Əraqçi isə cümə günü bildirib ki, İsrail İran ərazisinə zərbələri dayandırmayınca, Tehran ABŞ-lə danışıqlar aparmaq niyyətində deyil. "Əl-Ərəbiya" nəşri nazirin sözlərindən sitat gətirib: "Amerikalılar dəfələrlə ciddi danışıqlara çağıran mesajlar göndəriblər. Amma biz bunu açıq şəkildə bildirdik: hücum dayandırılmayana qədər diplomatiya və dialoqa yer qalmayacaq".

İran xarici işlər nazirinin müavini Səid Xətibzadə də BBC-yə müsahibəsində indiki mərhələdə ABŞ-lə danışıqların mümkünlüyünü rədd edib: "Biz diplomatik yanaşmaya sadiqik. Nə qədər ki, bu təcavüz davam edəcək, əlbəttə ki, heç bir danışıqlar gündəmdə olmayacaq". Eyni zamanda "təcavüzü dayandırmaq" şərti ilə diplomatik həll yollarına qayıtmağı da istisna etməyib.

Bundan əvvəl xəbər verilmişdi ki, cümə günü İsveçrədə Böyük Britaniya, Fransa və Almaniya XİN rəhbərlərinin Əraqçi ilə görüşü olacaq. Qərb mediası İran tərəfinin danışıqlarda iştirak edəcəyini təsdiqlədiyini yazıb. Ehtimal olunur ki, görüşdə ABŞ və İran arasında böhranın diplomatik yolla həlli müzakirə ediləcək.

Bu arada, İranın ali dini lideri Əli Xameneinin müşaviri Əli Şamxani bildirib ki, o, İsrailin zərbələri nəticəsində həlak olmayıb və hazırda xəstəxanada müalicə olunur. Bu barədə onun "Mehr" xəbər agentliyi vasitəsilə yayılan bəyanatında deyilir. Müşavirin vəziyyəti sabit qiymətləndirilir. Əli Şamxani İranın nüvə proqramı ilə bağlı ABŞ-lə danışıqlar aparan nümayəndə heyətinin tərkibində olub.

BMT sözçüsü Paskal Simin verdiyi son məlumata görə, İranın xarici işlər naziri Abbas Əraqçi dünən BMT-nin İnsan Haqları Şurasında çıxış edib. Görüşdən əvvəl Əraqçi deyib ki, BMT Təhlükəsizlik Şurasının iclasında İsrailin 1981-ci ildə İraqın nüvə obyektinə hücumuna cavab olaraq yekdilliklə qəbul edilmiş 487 saylı qətnaməni dəstəkləməsi və icra etməsi son dərəcə vacibdir: "Bu qətnamənin mətni aydındır: nüvə obyektlərinə hər hansı hərbi hücum bütün MAQATE-nin təhlükəsizlik tədbirləri rejiminə və nəhayət, "Nüvə silahının yayılmaması haqqında" müqaviləyə hücumdur. Bu, təkcə keçmiş fəaliyyətlərə deyil, həm də nüvə obyektlərinə qarşı güc tətbiqi hədəsinə və ya tətbiqinə qarşı aydın hüquqi standart yaradan gələcək davranışa da aiddir".

Cenevrədə İran, Avropa İttifaqı, Böyük Britaniya, Fransa və Almaniyanın xarici işlər nazirləri arasında ölkədəki vəziyyətlə bağlı danışıqlar başa çatıb. BBC xəbər verir ki, iştirakçılar İranı ABŞ-lə danışıqlar masasına qayıtmağa çağırıblar. Tehran bundan əvvəl hərbi əməliyyatlar bitənə qədər bunu etməyəcəyini bəyan etmişdi. Böyük Britaniyanın xarici işlər naziri Devid Lemmi deyib ki, Avropa ölkələri İranın nüvə silahına malik ola bilməyəcəyini "açıq şəkildə bəyan ediblər". Tehran uzun illərdir ki, hərbi nüvə proqramının mövcudluğunu rəsmən inkar edir.

Cenevrədə tərəflər nüvə və daha geniş məsələlər üzrə təmasları davam etdirmək barədə razılığa gəliblər.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə
2025-ci il üçün abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# İndi də COVID-in "Nimbus" subvariantı dünyanı təhdid edir

**2020-ci ildə dünya miqyasında pandemiyaya səbəb olan COVID-19 illər keçsə də, tam olaraq gündəmdən düşməyib. Mütəmadi olaraq yaranan yeni ştam və subvariantlar, onların yoluxuculuğu, ağırlaşma riski və vaksinasiyaya qarşı müqaviməti hələ də ciddi müzakirə mövzusudur.**



Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) 2023-cü ildə koronavirusun qlobal fövqəladə sağlamlıq təhdidi kimi başa çatdığını elan etsə də, bu, virusun yox olması demək deyildi. SARS-CoV-2 virusu hələ də müxtəlif formalarda dövr edir, mutasiyaya uğrayır və əsasən zəifləmiş formalarla insanlara yoluxur. Bunlardan sonuncusu "NB.1.8.1" adlandırılan, lakin qeyri-rəsmi olaraq "Nimbus" kimi tanınan subvariantdır.

"Omikron" ailəsindən olan "NB.1.8.1"in ən diqqətçəkən simptomu "qılınc kimi kəsən boğaz ağrısı"dır. Virusa yoluxanlar boğazda sanki sındırılmış şüşə parçaları varmış kimi ağrı hiss etdiklərini bildirirlər. Bu ağrı danışmaq, yemək və ya maye qəbul etməkdə çətinlik yaradır. Bundan əlavə, yorğunluq, öskürək, yüksək hərarət, burun axması və əzələ ağrıları kimi adi soyuqdəymə əlamətləri də müşahidə edilir. Yeni subvarianta qarşı ən həssas insanlar yaşlılar, uşaqlar, hamilələr, xroniki xəstəliyi və immun sistemi zəif olanlardır. Virus azyaşlılarda aşağı tənəffüs yollarının və bronxların iltihabi xəstəliklərinə, yetkinlərdə isə daha çox xroniki xəstəliklərin kəskinləşməsinə səbəb olur.

"Nimbus"a ilk dəfə bu il yanvarın sonlarında Çində rast gəlinib. Yaza doğru isə virusun yayılma əhatəsi genişlənib. Hazırda dünyanın 20-dən çox ölkəsində, habelə ABŞ, Yaponiya, Kanada, Avstraliya, Çin, Honq Konq, Sinqapur, Hindistan və Birləşmiş Krallıqda aşkar edilib. ÜST mayın 28-də yaydığı məlumatda həyəcan təbili çalaraq, bəzi bölgələrdə ştama yoluxmanın artmağa başladığını bildirib. Qurumun məlumatına görə, iyunun əvvəli təkcə ABŞ-də virusa yoluxma öncəki iki həftəyə nisbətən 15 faiz artıb. "NB.1.8.1"in yoluxuculuq əmsalı isə 12-dən 15-ə qədər qiymətləndirilib. Bu isə o deməkdir ki, bir yoluxmuş şəxs ətrafındakı 15 nəfəri yoluxdura bilər.

Genetik analizlər "NB.1.8.1"in sünbül zülalında onun yoluxuculuq qabiliyyətini artıra bilən və antitellərdən yayınmağa imkan verən spesifik mutasiyaların olduğunu göstərir. Bununla belə, ÜST bu subvariantın hazırda dövriyyədə olan digər viruslardan daha ağır xəstəliyə səbəb olduğuna dair heç bir sübut olmadığını deyir.

Yeni subvariant COVID-19-un hələ də ciddi təhlükə olduğunu göstərir. Statistikaya nəzər yetirsək, koronavirus hallarının hər il yay aylarında artdığını görmək olur. "Nimbus"un ortaya çıxması mümkün artımla bağlı narahatlıqları daha da artırıb. Bununla bağlı bir neçə ölkə artıq tədbir almağa başlayıb. Cənubi Koreya Tibb Assosiasiyası COVID-19-un mövsümi dəyişiklikər və səyahət səbəbindən yenidən arta biləcəyi ilə bağlı xəbərdarlıq edib. Hindistan Səhiyyə Nazirliyi isə xəstəxanalara çarpayı, oksigen, dərman və avadanlıq baxımından hazır olmaları barədə göstəriş verib. Tayvan səlahiyyətliləri ictimaiyyətə maska taxmaq və əl gigiyenasına riayət etmək barədə xəbərdarlıq edib.

Mütəxəssislər bildirirlər ki, peyvəndlər və qorunma tədbirləri xəstəliyin yayılmasının qarşısını almaqda həlledici rol oynayır. Lakin zaman keçdikcə peyvəndin təsiri azalır, nəticədə orqanizmin virusa qarşı müqaviməti zəifləyir. Buna görə də infeksionistlər xüsusilə yüksək risk qrupunda olan insanlara sonuncu peyvəndlərinin üzərindən 6 ay keçibsə, yenidən peyvənd olmağı tövsiyə edirlər. ÜST-nin məlumatına görə, hazırda təsdiqlənmiş COVID vaksinlərinin "NB.1.8.1" variantına qarşı effektiv olması gözlənilir.

COVID-19 həyatımıza sağlamlıq və sosial münasibətlər baxımından dərin izlər buraxdı. Onun yeni ştamları bizə göstərir ki, viruslarla mübarizə birdəfəlik deyil, davamlı və çevik yanaşma tələb edən bir prosesdir. Buna görə də ehtiyatı əldən vermədən xüsusən insanların sıx toplaşdığı qapalı məkanlarda tibbi maskadan istifadə tövsiyə edilir. Əlləri tez-tez yumaq və dezinfeksiya etmək, sosial məsafəni qorumaq, havalandırmanın zəif olduğu qapalı məkanlardan çəkinmək lazımdır. "NB.1.8.1" subvariantına yoluxma halına ölkəmizdə rast gəlinməsə də, ehtiyatı əldən vermədən fərdi gigiyena və məsuliyyətli davranış qaydalarına riayət etmək vacibdir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Leysan olacaq, dolu düşəcək, çaylardan sel keçəcək



**İyunun 21-24-də Azərbaycanın bəzi dağlıq və dağətəyi rayonlarında fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var.**

Bu barədə AZƏRTAC-a Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Bildirilib ki, gözlənilən yağıntılı hava şəraiti ilə əlaqədar çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqaz ərazisindən axan bəzi çaylardan qısamüddətli sel keçəcəyi, daşqın olacağı ehtimal edilir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3822
Sifariş 1244

Qiyməti 60 qəpik